Xalqın qəzeti!

# Xalq qəzeti

№ 198 (30892) 17 sentyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Dostluğa və xeyir-bərəkətə yönələn əməkdaşlığın strateji hədəfləri

## Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin Azərbaycana rəsmi səfəri

### *Füzuli Beynəlxalq Hava Limanında qarşılanma*




**Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilmiş Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.



## Dehli bu gün kimin yanındadır?

Səhifə ⇨ 10



## Düşüncələrdə daşlaşmış millətçilik zəhəri



Səhifə ⇨ 8

## Horadiz – Ağbənd yolu Zəngəzur dəhlizinə yaxınlaşır



Səhifə ⇨ 11

## Bakı İslam dünyasının sivil çağırışlar mərkəzidir

### *Ölkəmiz bu coğrafiyada həmrəyliyin önündə gedir*



**Son illər Azərbaycan Yaxın Şərq və ərəb dünyası ilə əlaqələrini keyfiyyətcə yeni mərhələyə daşıyıb. Bakı ikitərəfli diplomatik münasibətləri inkişaf etdirməklə yanaşı, həm də ərəb ölkələrinin kollektiv platformalarında fəal mövqedən çıxış edir. Körfəz dövlətləri, Şimali Afrika ölkələri və Yaxın Şərq paytaxtları ilə iqtisadi, enerji, investisiya və turizm sahələrində çoxsaylı razılaşmalar imzalanıb. Xüsusilə BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt və Misir kimi aparıcı ərəb ölkələri Bakı üçün strateji tərəfdaş statusu qazanıb. Bu əlaqələr həm də yeni nəqliyyat dəhlizləri, logistika mərkəzləri və kənd təsərrüfatı layihələri üçün zəmin yaradıb.**

(ardı 9-cu səhifədə)

## “Beşinci respublika” böhran içində



Səhifə ⇨ 9

## Binokldа görünən dünya, yaxud Ritterin uydurduğu münaqişə

### *Veteran müşahidəçilərin şefinin dedikləri Bakı, İrəvan yaxınlaşmasına kötük atır*



**Avropa İttifaqının Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən mülki müşahidə missiyasının rəhbəri Markus Ritter yenə ağzına gələni danışıb. EUMA adlandırılan təsisatın şefi, loru dildə desək, bostanımıza daş atıb. Markus konkret nə deyib, bu barədə söz açacağıq. Hələlik isə onun dilə gətirdiyi başqa məqamları diqqətə çatdıraq.**

(ardı 8-ci səhifədə)

## Sənədsiz evlərə necə “bəraət” veriləcək?



Səhifə ⇨ 12

# Azərbaycan və BƏƏ prezidentləri Daşaltı kəndində





**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan avtomobillə Füzuli şəhərini gəziblər.**

Sonra dövlət başçıları Şuşaya gedərkən Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

# Liderlərin təkbətək görüşü



**Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə təkbətək görüşü olub.**



# Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin Şuşada rəsmi qarşılanma mərasimi

**Sentyabrın 16-da Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.

Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundular.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



# Prezidentlərin geniş tərkibdə görüşü

## *Azərbaycan–Birləşmiş Ərəb Əmirlikləri sənədləri mübadilə edilib*



**Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü olub.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Azərbaycana, Qarabağa xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasındakı qardaşlıq, dostluq əlaqələrinə yeni təkan verəcək. Biz Sizinlə həm Azərbaycanda, həm də Birləşmiş Ərəb Əmirliklərində tez-tez görüşürük. Siz keçən il iki dəfə Azərbaycana səfər etmisiniz. Bu il bir neçə ay bundan əvvəl mən Sizin ölkənizə səfər etmişəm. Bugünkü səfəriniz xüsusi əhəmiyyət daşıyır. Çünki Siz Qarabağa, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz və bu, bizi, bütün Azərbaycan xalqını çox məmnun edir. Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir.

Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir. Biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu bizi çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci Günəş Elektrik Stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə giqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır.

Digər investisiyayönümlü layihələr üzərində işləyirik. Bugünkü nümayəndə heyətlərinin tərkibi özlüyündə bir göstəricidir. Bu göstərir ki, bizim əlaqələrimiz nə qədər çoxşaxəlidir, nə qədər dərindir, səmimidir və məhsuldardır.

Əziz qardaşım, Qarabağa səfər etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Azərbaycana, Qarabağa xoş gəlmisiniz!

**(ardı 3-cü səhifədə)**

# Prezidentlərin geniş tərkibdə görüşü





**(əvvəli 2-ci səhifədə)**

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan çıxış edərək dedi:**

- Əziz qardaşım, cənab Prezident.

Dost ölkənizə səfər etməyim və Sizinlə görüşməyim məni həqiqətən çox sevindirib. Qonaqpərvərliyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü görüşümüz bizim bu il ərzində üçüncü görüşümüzdür. Həqiqətən bizim bu ilin iyul ayında Əbu-Dabidəki görüşümüz çox səmərəli və ikitərəfli əməkdaşlığımızın yeni mərhələsinin əsası oldu. İnşallah, ikitərəfli əməkdaşlığımız və əlaqələrimiz, dostluğa, xeyir-bərəkətə əsaslanan münasibətlərimiz ölkələrimizin və xalqlarımızın rifahının daha da artması istiqamətində davam edəcəkdir.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında münasibətlər ötən onilliklər ərzində ardıcıl inkişaf etmişdir və xüsusilə də qeyri-neft sektorunda ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artmışdır.

İyul ayında ölkələrimiz hərtərəfli iqtisadi əməkdaşlıq haqqında Saziş imzalamışdır. Bu sənəd iqtisadi əlaqələrimizə yeni bir təkan vermişdir. İnşallah, bizim müştərək iqtisadi hədəflərimizi həyata keçirmək üçün onun çox böyük təsiri olacaqdır. Biz Birləşmiş Ərəb Əmirliklərində bu əməkdaşlığı genişləndirməyə davam etməkdə maraqlıyıq, ələlxüsus da inkişaf sektoruna aid olan iqtisadiyyat və bərpaolunan enerji, qida təhlükəsizliyi, həmçinin mədəniyyət sahələrində və əlbəttə ki, digər əhəmiyyətli sahələrdə. Çünki bu sahələr bizim gələcəyimiz üçün çox böyük nəticələr vəd edir.

Cənab Prezident, dost ölkənizlə ikitərəfli əlaqələrimizi gücləndirmək və genişləndirmək üçün xüsusi və böyük marağımız var, onu daha yüksək səviyyəyə qaldırmağı arzulayırıq. Biz hər iki tərəfə fayda gətirəcək və davamlı inkişafa töhfə verəcək yeni əməkdaşlıq fürsətlərinin daim axtarışındayıq.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, enerji sahəsində əməkdaşlığımızda indiyədək əldə etdiyimiz irəliləyişlər məni çox sevindirir. Şübhə yoxdur ki, bu gün ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığa dair imzalanmış Bəyannamə hər iki tərəfin qarşılıqlı münasibətlərini daha da inkişaf etdirmək və yüksək səviyyəyə qaldırmaq iradəsini əks etdirir.

Cənab Prezident, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında mədəniyyət sahəsində əməkdaşlığın böyük əhəmiyyəti var. Belə ki, bu sahə ikitərəfli əlaqələri inkişaf etdirməyin mühüm istiqamətidir. Çünki hər iki ölkə mədəni mübadilənin xalqlararası münasibətlərin və əməkdaşlığın körpüsü olduğuna inanmaqla, öz zəngin, çoxnövlü mədəni mirasını qorumaqda maraqlıdır.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olmasına çox böyük əhəmiyyət verir, Azərbaycan başda olmaqla, bütün xalqların mənafeyi üçün bölgənin bütün ölkələri ilə əlaqələrini və əməkdaşlığını inkişaf etdirməkdə maraqlıdır. Bu xüsusda Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyirik. Bu münasibətlə Birləşmiş Ərəb Əmirlikləri dövlətinin regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazır olduğunu bir daha vurğulayırıq.

Çıxışımın sonunda qardaşım, cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirir, dost ölkənizə və xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram. Çox sağ olun.

***

Sonra Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın iştirakı ilə mübadiləsi mərasimi olub.

İmzalanmış sənədləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Birləşmiş Ərəb Əmirliklərinin dövlət naziri Səid Əl Haceri mübadilə etdilər.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Dövlət Prokurorluğu arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Media Şurası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat və Turizm Nazirliyi arasında turizm əməkdaşlığı haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Ticarət və Sənaye Palataları Federasiyası arasında Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının yaşıl enerji zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə "Presight" şirkəti arasında Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyasının icrası üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", "Bakı Gəmiqayırma Zavodu" MMC ilə "Əbu-Dabi Limanları Şirkəti" ASC arasında iki ədəd konteyner gəmisinin tikintisinə və satışına dair Müqavilə", "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə "Presight" şirkəti arasında təhsildə süni intellektin (Aİ) istifadəsinin artırılması sahəsində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında Cənub Qaz Dəhlizində investisiya haqqında Anlaşma Memorandumu" və "Azərbaycan İnvestisiya Holdinqi ilə "Əbu-Dabi inkişaf Holdinq Şirkəti" ASC arasında "Azər-Türk Bank"ın sərmayələşdirilməsi haqqında Anlaşma Memorandumu" imzalanıb.

# Prezidentlər Şuşada güllələnmiş heykəllərə baxıblar





**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxıblar.**

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə ermənilərin işğal zamanı bu heykəlləri Ermənistana apararaq orada əritmək istədikləri barədə məlumat verilib. Ümummilli Lider Heydər Əliyevin müdaxiləsi nəticəsində bu heykəllər Ermənistandan alınaraq ölkəmizə gətirilib. Bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan heykəllər Şuşa işğaldan azad olunduqdan sonra öz əvvəlki yerlərinə qaytarılıb.



# Liderlər Milli Xalça Muzeyinin Şuşa filialında

**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Milli Xalça Muzeyinin Şuşa filialında olublar.**

Ali qonağa filialın fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı.

İşğal dövründə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi. İndi burada vaxtilə təxliyə olunmuş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Muzeydə ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.



# Prezidentlər Yeni Şuşa məscidinin tikintisi ilə tanış olublar







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan sentyabrın 16-da Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə həyata keçirilən işlər barədə məlumat verdi.

Qeyd edək ki, təməli 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan bu məscid tarixi şəhər olan Şuşada modern memarlıq nümunəsi kimi seçiləcək. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, məscidin forması 8 rəqəmini əks etdirəcək ki, bu da Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzi kimi məscidin iki minarəsi 11 rəqəmi formasında olacaq. Şəhərin yuxarı hissəsində inşa olunan bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

# Dost ölkələrin rəhbərləri Şuşa qalasının önündə

**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşa qalasının önündə foto çəkdiriblər.**






# Cıdır düzündə Qarabağ atlarının şousu

**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər.**

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə "Ərgünəş" adlı Qarabağ atını hədiyyə edib.













# Şuşada Prezident İlham Əliyevin adından BƏƏ Prezidentinin şərəfinə rəsmi nahar



**Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın şərəfinə rəsmi nahar verilib.**

# BƏƏ Prezidentinin rəsmi səfəri başa çatıb



**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri sentyabrın 16-da başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı yola saldı.

***AZƏRTAC***

# "Heydər Əliyev" çoxcildliyinin yeni nəşrinin 9-cu kitabı

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 9-cu kitabı çapdan çıxıb.**




Bu kitabda yer alan materiallar 1995-ci il sentyabrın 20-dən noyabrın 26-dək olan dövrü əhatə edir. Nəşrdə Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və məktubları toplanıb.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın iclaslarında iştirak edirdi. Komissiyanın iclaslarından biri də 1995-ci il oktyabrın 3-də keçirilmişdi. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev demişdi: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni, dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin Konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları Konstitusiya özündə əks etdirməlidir".

Bu cilddə Ulu Öndərin 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasına və Milli Məclisə seçkilərə səsvermədə iştirakı zamanı mətbuata bəyanatı, Milli Məclisin ilk iclasında geniş nitqi də verilib. Həmin nitqində Ümummilli Lider Azərbaycanda hakimiyyətin mənbəyinin xalq olduğunu bir daha vurğulayaraq demişdi: "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkil olunması Konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur: qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları Jan-Jak Russo, Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük".

Oxucu bu kitabda Heydər Əliyevin BMT-nin 50 illik yubileyi ilə əlaqədar Nyu-Yorkda BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxışının mətni ilə də tanış ola bilər.

Ümummilli Lider müstəqilliyini yeni əldə etmiş Azərbaycanın xarici ölkələrlə ikitərəfli əlaqələrinin inkişafını daim diqqət mərkəzində saxlayırdı. Ulu Öndərin 1994-cü ildə Çinə rəsmi səfəri zamanı iki ölkə arasında bir sıra sənədlər imzalanmışdı. 1995-ci il sentyabrın 29-da isə Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü münasibətilə Bakıda rəsmi qəbul keçirildi. Qəbulda iştirak edən Ulu Öndər iki ölkə arasında dostluq əlaqələrinin yarandığını söyləmiş, həmçinin Çinin BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyətini yüksək qiymətləndirərək demişdi: "Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluq əlaqələri yaranıbdır. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasında həmişə ölkələrin, xalqların milli azadlıq və öz dövlət müstəqilliyini əldə etmək səylərinə tərəfdar olubdur. Azərbaycan Respublikası yaranandan Çin respublikamızın milli azadlığını, dövlət müstəqilliyini tanıyıb və beynəlxalq təşkilatlarda, xüsusən BMT-də ölkəmizlə sıx əməkdaşlıq edib".

Heydər Əliyev müstəqillik əldə etmiş türk respublikalarının xoşbəxt sabahına inanır, Türk dünyasının yeni yüksəliş mərhələsi yaşadığını söyləyirdi. 1995-ci il sentyabrın 30-da Türk Xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının iştirakçılarına təbrik məktubunda Ulu Öndər bildirirdi: "Tarixin ağır sınaqlarına zaman-zaman sinə gərmiş türk xalqları qarşılıqlı elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini qoruyub saxlamış, bəşər tarixində daim önəmli mövqe tutmuşlar. Müasir Türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları Türk dünyasının xoşbəxt sabahından soraq verir. Əminəm ki, türk xalqlarının III qurultayı da bu müqəddəs arzu və istəklərin həyata keçirilməsində mühüm rol oynayacaq.

Müstəqil inkişaf yoluna qədəm qoyan Azərbaycan Cümhuriyyəti də suverenliyini əldə etdiyi ilk gündən Türk dünyasının möhkəmlənməsinə sədaqətlə xidmət etmiş və bundan sonra da edəcəkdir".

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Polis Akademiyasında andiçmə mərasimi



**Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Bilik günü və I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri münasibəti ilə təntənəli mərasim keçirilib. Tədbirə başlamazdan öncə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının dövlət himni ifa edilib.**

Mərasimi giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov tədbir iştirakçılarını salamlayaraq yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun təbrik və tövsiyələrini şəxsi heyətə çatdırıb. Ötən dövr ərzində əldə olunmuş nailiyyətlərə toxunan Akademiya rəisi müasir meyarlara cavab verən təhsil prosesinin həyata keçirilməsi və milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə edilən peşəkar polis kadrlarının hazırlığı istiqamətində qarşıya qoyulmuş vəzifələrin bundan sonra da əzmlə yerinə yetiriləcəyini vurğulayıb.



Tədbirin davamı olaraq 2024-2025-ci tədris ilini müvəffəqiyyətlə başa vuraraq tədris və idman nəticələrinə görə Polis Akademiyasının kursantları arasında "Əlaçı kursant" və ll dərəcəli "İdmançı kursant" döş nişanlarına layiq görülmüş, habelə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən lll ixtisas qrupu üzrə keçirilmiş imtahanlarda 650 və yuxarı bal toplayaraq Polis Akademiyasına qəbul olmuş gənc kursantlara döş nişanları və qiymətli hədiyyələr təqdim edilib.

Sonra 2024-2025-ci tədris ilini "Əlaçı" döş nişanı ilə başa vurmuş 4-cü kurs kursantı Elbrus Abbasov çıxış edərək göstərilən qayğı, etimad və dəstəyə görə akademiya rəhbərliyi və elmi pedaqoji kollektivinə öz təşəkkürlərini çatdırıb. Mərasim I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri ilə davam edib. Daha sonra I kurs kursantı Hacıalı Hacıyev çıxış edərək bu əlamətdar gün münasibətilə kurs yoldaşlarını təbrik edib.

***XQ***

# Şeyxülislam Allahşükür Paşazadə Astanada

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Astana Qurultayı və BMT Sivilizasiyalar Alyansının dini məkanların qorunması üzrə birgə xüsusi sessiyasında çıxış edib. Tədbir Dünya və Ənənəvi Dinlərin Liderlərinin VIII Qurultayı çərçivəsində təşkil olunub.**



Qafqaz Müsəlmanları İdarəsinin sədri bildirib ki, Sivilizasiyalar Alyansı və Astana qurultayları iki onillikdən artıq müddətdə bəşəriyyət naminə dialoqu təşviq edərək mühüm nailiyyətlər əldə edib. Ksenofobiya təzahürlərinin, milli, dini və irqi zəmində qarşıdurmaya təhrik edən nifrət çağırışlarının artdığı indiki dövrdə sülh və qlobal problemlərin həlli baxımından dinc birgəyaşayış, qarşılıqlı anlayış mədəniyyəti, sivilizasiyalar və dinlərarası dialoq, multikulturalizm ideyaları xüsusi əhəmiyyət daşıyır.

"Biz söz azadlığı və din pərdəsi altında hər hansı radikalizm və ksenofobiya təzahürlərini, xüsusilə də dinlərin müqəddəs məkanlarına, dəyərləri və atributlarına, mədəni irs nümunələri və abidələrinə qarşı törədilən terror və vandalizm əməllərini qətiyyətlə pisləyirik", - deyə QMİ sədri əlavə edib.

***XQ***

# “Böyük Ermənistan” uçurumu

## *“Krunk”, “Miatsum”, “Artsax” dərsləri oxuyanlar Bakıda “imtahan” verirlər*

**Təqvimi vərəqləyərkən qarşıma çıxan tarixi faktlardan biri də 1988-ci il sentyabrın 17- də Xankəndidə azərbaycanlıların əmlakına, var-dövlətinə qarşı başlamış talanlar, qarət və haqsızlıqlar haqqında yazılanlar oldu. Bu az kimi ertəsi gün şəhərin baş meydanında (Mən bu ilin may ayında həmin meydanda özümü dünyanın ən xoşbəxt insanlarından biri kimi hiss edirdim) separatçıların ilk və kütləvi aksiyası keçirilmişdi. Həmin köhnə xəbər barədə bir neçə cümlə yazmaq istəyirdim ki, kütləvi informasiya vasitələri Xankəndidən ən yeni hesab etmək olan bir xəbər yaydılar: “Sentyabrın 14-də Xankəndi şəhərinin erməni əsilli sakini – 1967-ci il təvəllüdlü Avanesyan Karen Albertoviçin insident törətmək cəhdinin qarşısı alınıb”.**

**60-70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

Tragikomediyadır. Bu adamlar belə təfəkkürlə hara qədər gedə bilərlər? Hara qədər gedə bilərdilərsə, getdilər və dünyanın hər yerindəki himayədarlarının min bir cəhdinə baxmayaraq, tuta bildikləri divar qurtardı... və başbilənlərinin, “liderlərinin” hamısı Bakıya gətirildi. “Krunk” (Durna) dünya erməniliyinin böyük xülyalara doğru uçuşunun pərən-pərənliyinə şahidlik etməli oldu, “Miatsum” (Birlik) ümumerməni ideologiyasının parçalanmasına “tamaşa edərək” dağıldı, “Artsax” gorbagor edildi, “Böyük Ermənistan” isə baş nazir Nikol Paşinyanın dediyi kimi “real Ermənistan”ın sərhədləri içərisinə yığışdırıldı. Çünki Kremldəkilər bilirdilər ki, sentyabrın 21-dək yüzlərlə azərbaycanlı ailə öz ev-eşiyindən didərgin düşmüş və çoxsaylı cinayətlər törədilmişdi. Moskvada oturanlar azərbaycanlıların qisas almasından qorxurdular. Onlara ədalətin bərqərar edilməsi yox, azərbaycanlıların Xankəndidən qaçıb getməsi lazım idi.

Bildirilir ki, ermənilər yerli sakinlərin Qarabağdan didərgin salınması məqsədiylə Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd etmişdilər. Hələ fevralın 20 -də Xankəndi mərkəzi xəstəxanasında təcrübə keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanmış, iki gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş etmişdi. Onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilmiş, baş verən qarşıdurmada iki azərbaycanlı gənc qətlə yetirilmişdi.



Yəni Azərbaycan Prezidenti İlham Əliyev və şanlı Ordumuz erməni ideoloqlarının – təbii ki, çoxsaylı himayədarların dəstəyi ilə – əsrlərdən bəri reallaşdırmaq istədikləri anti-Azərbaycan, anti-türk planları tamamilə alt-üst etdi. İndi “Real Ermənistan”ın tarixində 2020-ci il noyabrın 20-də imzalanmış kapitulyasiya aktı da var, 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanmış üçtərəfli sənədlər də. Yəni bundan sonra dikbaşlıq, yekəxanalıq etməyə nə haqqları var, nə də imkanları. Beyinlərinə elə fikir gələrsə, başlarına endiriləcək “Dəmir yumruq” hazırdır.

O ki qaldı yuxarıda xatırlatdığımız 17 sentyabr 1988-ci il talanlarına və 18 sentyabr “Ümumarsax” siyasi aksiya”sına, birmənalı olaraq deyə bilərik ki, haylar Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin SSRİ rəhbərliyindən istefasını iki əsr boyu çalışıb çata bilmədikləri arzularına yetmək üçün böyük şans bilmişdilər. Bu barədə tarixi mənbələrdə qeyd edilir ki, 1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə “İnterkontinental” hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürmüşdü. Bunun ardınca – noyabrın 18-də həmin Aqanbekyanın qərəzli müsahibəsi “L’Humanite” qəzetində çap olunmuşdu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynayırdı.

O vaxtkı Kreml rəhbərlərinin yeritdiyi milli ayrı-seçkilik siyasətindən və xüsusən, ermənipərəst mövqeyindən ruhlanan İrəvan rəsmiləri Xankəndini “ayağa qaldırmaq” üçün ən iyrənc addımları belə atmaqdan çəkinmirdilər. 1988-ci il sentyabrın 17-də Xankəndidə başlanan kütləvi basqınlar və azərbaycanlıların var-dövlətinin talan edilməsi, şəhərin azərbaycanlı məhəlləsində onlarla evin yandırılması, partlayış və qırğınlar törədilməsi də bilavasitə Moskvanın xeyir-duası ilə reallaşdırılmışdı. Bu faktı SSRİ rəhbərliyinin sentyabrın 21-də Xankəndidə xüsusi vəziyyət elan etməsi də təsdiqləyir.

Əlavə edilir ki, azğınlaşmış ermənilər havadarlarına arxayın olaraq, cinayət əməllərin miqyasını gün-gündən artırmağa başlamışdılar. Hətta 1988-ci il sentyabrın 18-i tarixə növbəti erməni vəhşiliklərinin törədildiyi gün kimi yazılmışdı. Həmin gün silahlı ermənilər Xankəndi şəhərində yaşayan azərbaycanlıların evlərinə hücum etdilər. Evlərə basqın əvvəlcədən planlaşdırıldığından azərbaycanlıların ev telefonları da kəsilmişdi. Xankəndi şəhər daxili işlər şöbəsinin ictimai təhlükəsizlik bölməsinin rəisi mayor Şahbazyanın başçılığı ilə ayrı-ayrı silahlı qruplar azərbaycanlıların yaşadıqları evləri nəzarətə götürmüşdülər. Bu cinayətkar qrupların ilk tapşırığı azərbaycanlıların evlərinin yandırılması idi. 18 sentyabr tarixində, ümumilikdə, Xankəndi şəhərində 63 ev yandırılmışdı. İki gün ərzində şəhərdə 270-dən artıq ev qarət olunmuşdu. Vəziyyətin gərginləşməsini, hadisələrin məcrasından çıxmasını görən Moskva Xankəndidə komendant saatının tətbiq edilməsi barədə qərar qəbul etmişdi. Bildirilir ki, gərginlik azalsa da, bu müvəqqəti hal idi. Sonrakı hadisələr də sübut etdi ki, həmin günlər Xankəndidə yaranmış nisbi sakitlik şəraitində ermənilər yeni işğalçılıq planları qurublar.

Ancaq zaman sübut etdi ki, hansı planı, necə, kimin köməyi, kimin məsləhəti ilə qurmalarından asılı olmayaraq, separatçıların, terrorçuların və işğalçıların bütün planları darmadağın edildi və Azərbaycan xalqı 2020-ci ildə öz tarixinin ən böyük Zəfərinə imza atdı. Bu gün Xankəndi başda olmaqla, Qarabağ və Şərqi Zəngəzur sözün həqiqi mənasında yenidən qurulur, cənnətə çevrilir. İndi artıq elə bir ay olmur ki, cənab Ali Baş Komandanımız İlham Əliyev Qarabağın və ya Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərinə getməsin, hansısa açılış və ya təməlqoyma mərasimində iştirak etməsin.

Ən başlıcası, cənab Prezident öz ata-baba ocağına qayıtmış keçmiş məcburi köçkünlərlə görüşlərin hamısında, hamıya, dəfələrlə deyir ki, siz burada əbədi yaşayacaqsınız.

Bəli, bu qətiyyətə, həqiqətə keçmiş köçkünlər də inanır, bütün xalqımız da, dünya ictimaiyyəti də. Elə olmasaydı, dünyanın ən güclü dövlətlərinin rəhbərləri Azərbaycan Prezidentini bu münasibətlə təbrik etməzdilər.

***İttifaq MİRZƏBƏYLİ***




# Milli kimliyin təməli

**Azərbaycan xalqının dövlətçilik yaddaşında elə hadisələr vardır ki, onlar yalnız bir dövrün deyil, bütöv bir millətin gələcək taleyinin hüquqi və siyasi təməlini müəyyən edir. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhz belə bir hadisədir. Bu sənəd müasir müstəqil dövlətçiliyimizin əsasını təşkil etməklə, milli suverenliyin hüquqi manifestinə çevrilmişdir. Elə buna görə də 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması yalnız tarixi yaddaşın təzələnməsi deyil, həm də dövlətçilik ideallarımızın yenidən dərinləşdirilməsi baxımından əvəzsiz əhəmiyyət daşıyır.**

Ulu öndər Heydər Əliyev Konstitusiyanın qəbulunu milli iradənin təntənəsi kimi qiymətləndirərək qeyd edirdi: “Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın azadlıq və müstəqillik yolunda apardığı mübarizənin bəhrəsidir.” Bu fikir bir daha göstərir ki, Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də xalqın tarixi yaddaşının, müstəqillik iradəsinin, milli özünüdərk prosesinin ən ali ifadəsidir.

1991-ci il 18 oktyabrda qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı” xalqımızın əsrlər boyu arzuladığı azadlıq ideallarını reallığa çevirdi. Lakin müstəqil dövlətin qurulması təkcə siyasi bəyanatla məhdudlaşa bilməzdi. Dövlətin təməl sütunu – hüquqi dayaqları, idarəçilik institutları və vətəndaş cəmiyyətinin prinsipləri möhkəm əsas üzərində qurulmalı idi. Bu zərurət xalqın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasi iradəsi ilə Azərbaycanı müasir dövlətçilik yoluna çıxardı.

Əslində, Konstitusiyanın qəbul olunması prosesi sadəcə hüquqi akt deyil, tarixi zərurətin məhsulu idi. 70 illik sovet totalitarizmi dövründə Azərbaycan xalqı formal konstitusiyalarla idarə olunsa da, bu sənədlər əsl mənada milli suverenliyin ifadəsi deyildi. Müstəqillik illərində yaranmış mürəkkəb tarixi şərait, daxili siyasi böhran və xarici təzyiqlər dövlətin hüquqi bazasının təcili olaraq möhkəmləndirilməsini tələb edirdi. Belə bir zamanda Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya Komissiyası yaradıldı və geniş ictimai müzakirələrdən sonra, 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil dövlətinin ilk Milli Konstitusiyasını qəbul etdi.

Konstitusiyanın ən mühüm prinsiplərindən biri Azərbaycanın suveren dövlət kimi tanınmasıdır. Suverenlik – yalnız hüquqi anlayış deyil, həm də millətin öz taleyini sərbəst müəyyən etmək iradəsinin ifadəsidir. Azərbaycan Respublikasının Konstitusiyası suverenliyi həm daxili, həm də xarici müstəvidə təsbit edir: xalqın hakimiyyətin yeganə mənbəyi olması, dövlətin müstəqil daxili siyasət yürütməsi, eləcə də beynəlxalq münasibətlərdə bərabərhüquqlu subyekt kimi çıxış etməsi. Ulu öndərin məşhur sözlərini xatırlamaq yerinə düşər: “Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən də çətindir.” Konstitusiya və ondan irəli gələn qanunvericilik mexanizmləri məhz bu çətin, amma şərəfli missiyanın həyata keçirilməsi üçün etibarlı zəmin formalaşdırıb.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması bir tərəfdən milli yaddaşımızı təzələyir, digər tərəfdən isə müasir çağırışlara adekvat hüquqi islahatların həyata keçirilməsini zəruri edir. Konstitusiya yalnız qəbul olunduğu tarixi dövrün tələblərinə cavab vermir, həm də dinamik inkişaf edən cəmiyyətin ehtiyaclarına uyğun olaraq dəyişdirilir və təkmilləşdirilir. Son illərdə həyata keçirilən konstitusion islahatlar dövlət idarəçiliyinin çevikliyini artırmış, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə daha geniş imkanlar açmışdır.

Konstitusiya ilə dövlətin ali prinsipləri təsbit olundu: demokratiklik, hüquqilik, dünyəvilik və xalq suverenliyi. Xüsusilə insan hüquq və azadlıqlarının toxunulmazlığı və hakimiyyətin bölgüsü prinsipi dövlət idarəçiliyinin əsası kimi müəyyən edildi. Lakin dövlətin yalnız qanunverici və icra hakimiyyəti ilə deyil, həm də ədalət mühakiməsi və nəzarət institutları ilə bütöv işləməsi tələb olunurdu. Bu zərurət Konstitusiyanın 133-cü maddəsində öz əksini tapdı. Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinə əsasən, prokurorluq orqanları qanunların icrasına nəzarəti həyata keçirir, cinayət təqibini aparır, dövlət ittihamını müdafiə edir və məhkəmə aktlarının icrasına nəzarət edir. Bu, dövlətin hüquqi suverenliyinin mühüm təminatlarından biridir. Başqa sözlə, dövlətin müstəqilliyi yalnız siyasi bəyanat və ya diplomatik münasibətlərlə deyil, hüququn aliliyinin qorunması ilə gerçək mənada möhkəmlənir. Prokurorluq orqanlarının konstitusion statusu Azərbaycan dövlətçiliyi üçün strateji əhəmiyyət daşıyır. Çünki müstəqillik dövrünün ilk illərində baş verən daxili qarşıdurmalar, cinayətkarlığın artması və dövlətçiliyə yönələn təhdidlər hüquqi nəzarət mexanizmlərinin gücləndirilməsini tələb edirdi. Konstitusiyanın 133-cü maddəsi məhz bu tarixi reallıqdan doğaraq dövlətin hüquqi dayaqlarını möhkəmləndirdi və prokurorluq orqanlarını suverenliyin keşiyində duran institutlardan birinə çevirdi. Bu gün “Konstitusiya və Suverenlik ili”ndə Konstitusiyanın 133-cü maddəsinin mahiyyətinə qayıtmaq həm nəzəri, həm də praktik baxımdan vacibdir. Çünki müstəqil dövlətin yaşaması yalnız siyasi iradə ilə deyil, həm də hüquqla təmin edilir. Qanunun aliliyini qoruyan prokurorluq orqanları isə suverenliyin hüquqi təminatçısıdır.

“Konstitusiya və Suverenlik İli” ərzində prokurorluq orqanlarının fəaliyyəti bir neçə mühüm istiqamətdə təzahür etdi. İlk növbədə, qanunçuluğun təmin edilməsi və dövlətin konstitusion quruluşunu sarsıtmağa yönəlmiş cinayətlərə qarşı barışmaz mübarizə aparıldı. Bununla yanaşı, ictimaiyyətin hüquqi maarifləndirilməsi, gənclərin hüquq təfəkkürünün inkişafı, vətəndaşlarla birbaşa ünsiyyətin gücləndirilməsi kimi tədbirlər xüsusi yer tutdu. Bu, təsadüfi deyil, çünki hüquqi dövlət yalnız normativ aktlarla deyil, həm də cəmiyyətin hüquqi şüur səviyyəsi ilə möhkəmlənir. Azərbaycan Respublikasının Baş Prokurorluğu və yerli prokurorluq orqanları bu il ərzində həyata keçirdikləri tədbirlərlə göstərdilər ki, qanunun aliliyinin qorunması suverenliyin ən mühüm dayağıdır. Hüquq-mühafizə orqanlarının şəffaf, vətəndaşlara açıq və ictimaiyyətlə əməkdaşlıq ruhunda fəaliyyəti milli hüquqi sistemin möhkəmlənməsinə və dövlətin suveren iradəsinin təmin olunmasına xidmət etdi. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu il ərzində keçirilən seminarlar, konfranslar, maarifləndirici görüşlər yalnız hüquqşünaslar üçün deyil, həm də gənclər, tələbələr, ictimaiyyət nümayəndələri üçün açıq idi. İşğaldan azad olunmuş Ağdam şəhərində Baş Prokurorluq tərəfindən təşkil edilən “Konstitusiya və suverenlik: Hüquqi dövlətin təməli” və Laçın şəhərində Baş Prokurorluq tərəfindən təşkil edilən “Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzularında regional konfranslar dövlətin bərpa olunan ərazilərində hüquq sisteminin inkişafı baxımından xüsusi simvolik məna kəsb edib. Tədbirdə prokurorluq nümayəndələri, hüquqşünaslar və ictimaiyyət iştirak edərək, Konstitusiyanın dövlət müstəqilliyinin hüquqi təminatı kimi rolu ətrafında müzakirələr aparmışlar. Baş prokuror çıxışında qeyd etmişdir: “Azərbaycan Respublikasının Konstitusiyası yalnız dövlətimizin ali hüquqi sənədi deyil, həm də suverenliyimizin toxunulmazlığını təmin edən, milli birliyimizi möhkəmləndirən başlıca təminatdır.”

Azərbaycan Respublikasının Konstitusiyası – hüquqi dövlətin təməli, milli suverenliyin rəmzi, gələcəyə ünvanlanan siyasi-hüquqi manifestdir. 2025-ci il bu mənada yalnız xatırlatma ili deyil, həm də hər birimiz üçün milli məsuliyyət ilidir. Çünki Konstitusiyanın aliliyini qorumaq, suverenliyi möhkəmləndirmək və hüquqi dövlət quruculuğunu davam etdirmək hər bir vətəndaşın, hər bir dövlət qurumunun, xüsusilə də hüquq mühafizə orqanlarının şərəfli borcudur. Ulu öndərin kəlamı ilə desək: “Konstitusiya Azərbaycan xalqının dövlətçilik iradəsinin ən ali ifadəsidir.” Bu iradəni qorumaq isə bu günümüzün və gələcəyimizin ən ali vəzifəsidir.

***Zaur ƏLİYEV,***
***Zərdab rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# 2023-cü ilin sentyabr döyüşlərinin Praqa əks-sədası

**Hazırda Cənubi Qafqaz üçün ən aktual məsələ Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması və kommunikasiya yollarının açılmasıdır. Lakin proses indiki mərhələyə heç də asanlıqla gəlib çatmayıb. Xatırladaq ki, 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi, sonra şərti sərhəddəki toqquşmalar və 2023-cü ilin sentyabrında Xankəndi və ətraf ərazilərdə birgünlük antiterror tədbirlərində Azərbaycan Ordusunun qazandığı parlaq qələbələr hazırkı reallıqların təməlini qoyub.**



2022-ci il 12-14 sentyabr tarixlərində Azərbaycan–Ermənistan şərti sərhədində baş vermiş döyüşlər postmüharibə dövrünün ən böyük toqquşmalarından biri kimi yadda qalıb. Həmin döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri strateji üstünlük əldə edərək sərhəd boyunca əsas yüksəklikləri nəzarətə götürdü. Bu qələbə təkcə hərbi üstünlüklə bitmədi. Həmin ilin oktyabrın 6-da Avropa Siyasi Birliyinin ilk toplantısı çərçivəsində Praqada Azərbaycan və Ermənistan, eləcə də Fransa və Türkiyə liderləri arasında tarixi görüşlər keçirildi. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Fransa prezidenti Emmanuel Makron vasitəsilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan bir araya gələrək Cənubi Qafqazın iki ölkəsi arasında münasibətlərin normallaşdırılması və münaqişəyə son qoyulması istiqamətində əhəmiyyətli irəliləyiş əldə etdilər. Aİ Şurası və Fransanın birgə bəyanatlarına əsasən, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü rəsmi olaraq tanımağı öhdəlik olaraq götürdülər. Bəyanatlarda qeyd olunur ki, "Ermənistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, həmçinin 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsinə sadiqliklərini təsdiqləyiblər. Bu sənəd hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımasını əks etdirir".

**Ekspert rəyi**



**Şair RAMALDANOV,**
**hərbi ekspert**

**Hələ 2016-cı ilin Aprel döyüşlərində Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bəyan etmişdi ki, Azərbaycan Ordusu qısa zamanda işğalçı qüvvələri darmadağın edib, ərazi bütövlüyünü bərpa etməyə qadirdir.**

Qısa müddət sonra bu sözlər öz təsdiqini tapdı – Ordumuz 44 gün ərzində tarixi qələbə qazanaraq işğala son qoydu. Lakin bundan sonra Ermənistan cəmiyyətində revanşist qüvvələr fəallaşdı. Reallıqla barışmaq istəməyən bu dairələrin atdığı əsas addımlardan biri 2022-ci ilin sentyabrında Cermuk istiqamətində törədilən genişmiqyaslı təxribat oldu. Ermənistanın diversiya qrupları Azərbaycan tərəfinin mövqelərini ələ keçirmək və logistik yolları minalamaq niyyətində idilər. Məqsəd həm daxildəki revanşist qüvvələrə mənəvi dəstək vermək, həm də strateji üstünlük qazanmaq idi.

Bu istiqamət təsadüfən seçilməmişdi. Çünki Azərbaycan Ordusu həmin yüksəkliklərə nəzarət edirdi. Əgər onlar Ermənistanın əlinə keçsəydi, bölgənin logistikası nəzarət altına düşəcək, yeni təhlükələr yaranacaqdı. Lakin Ordumuz böyük peşəkarlıqla düşmənin qarşısını aldı, mühüm mövqeləri ələ keçirərək Kiçik və Böyük Göyçə gölləri ilə Zod istiqamətində üstünlük qazandı.

Nəticədə Ermənistan böyük itkilərə məruz qaldı, cəmiyyətdə ciddi narazılıq baş qaldırdı. Azərbaycan Ordusu isə müasir dəqiqvuran silahlarla öz gücünü bir daha sübut etdi. Bu qələbə cəmiyyətdə böyük ruh yüksəkliyi yaratdı və bir daha göstərdi ki, Azərbaycan əsgəri üçün ən ali dəyər torpaq və vətəndaşdır. Ordumuz hər zaman Prezident, Ali Baş Komandan İlham Əliyevin verdiyi hər bir tapşırığı yerinə yetirməyə qadirdir və hazırdır.

Alma-Ata Bəyannaməsi keçmiş Sovet İttifaqına daxil olan respublikaların (Baltikyanı ölkələr və Gürcüstan istisna olmaqla) bir araya gələrək Müstəqil Dövlətlər Birliyini yaratması və Sovet İttifaqının rəsmi dağılmasını təsdiqləməsi ilə tarixi əhəmiyyət kəsb edir.

Bugünlərdə erməni ictimai xadim Vahram Martirosyan sentyabr hadisələrini şərh edərək yazıb: "Məğlubiyyətin qiyməti var. 2022-ci ilin sentyabr müharibəsinin siyasi nəticələri hərbi nəticələrdən az faciəli olmadı". Onun sözlərinə görə, məhz Cermuk (İstisu) döyüşlərində Azərbaycan Ordusunun qazandığı qələbə Ermənistanı Qarabağın üzərində Azərbaycanın suverenliyini tanımağa məcbur etdi: "Bu döyüşdə məğlub olan tərəf (Ermənistan) bir neçə həftə sonra Praqada "artsax"ı (keçmiş qondarma rejim) Azərbaycanın bir hissəsi kimi tanıyaraq Cermuk müharibəsini dayandırmağın bədəlini ödədi".

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin bölmələri 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətdi. Düşmənin diversiya qrupları müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirdi. Ermənistanın məhz bu əməli və genişmiqyaslı təxribatı Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində hərbi toqquşmaya səbəb olub. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Sərhəddə baş verən bu hərbi toqquşma nəticəsində Ermənistan silahlı qüvvələri ciddi itkilərə məruz qaldı. Ermənistan rəsmilərinin bildirdiyinə görə, düşmən 200-dən çox hərbçisini itirdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı sentyabr döyüşlərindən danışarkən deyib: "13-14 sentyabr əməliyyatından sonra Azərbaycan–Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib. Ermənistan gözəl anlamalıdır bu, nə deməkdir. Bu gün həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini biz gözlərimizlə görürük. Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq, Vətən müharibəsindən sonra. Nə üçün? İlk növbədə, Ermənistanın hərbi təxribatlarına cavab olaraq, digər tərəfdən, özümüzü gələcək hərbi təxribatlardan sığortalamaq üçün. Çünki dediyim yüksəkliklərdən Ermənistanın əksər postları görünür və əgər orada qüvvələrin konsentrasiyası baş verərsə, biz bunu görüb dərhal tədbir görəcəyik...".

Sentyabr döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin taktiki hazırlığının, döyüş ruhunun və strateji planlamasının yüksək səviyyədə olduğunu göstərdi. Müdafiə xəttinin möhkəmləndirilməsi, yüksəklikdəki mövqelərin ələ keçirilməsi və düşmənin geri çəkilməyə məcbur edilməsi Azərbaycan tərəfinin hərbi üstünlüyünü bir daha təsdiqlədi. Diplomatik səviyyədə isə bu qələbə regiondakı siyasi balansı dəyişdirdi. Ermənistanın Praqada atdığı addım Azərbaycan tərəfinin diplomatik səlahiyyətlərinin gücləndirilməsini və sülh prosesinin sürətlənməsini təmin etdi. Bununla da Azərbaycan Ordusunun hərbi qələbəsi və Bakının diplomatik uğurları bir-birini tamamlayaraq ölkəmizə strateji üstünlük qazandırdı.

Bugünkü reallıq onu göstərir ki, sülh müqaviləsi və kommunikasiya yollarının açılması həm hərbi qələbələrlə, həm də davamlı diplomatik tədbirlərlə mümkündür. Üç il öncə şərti sərhəddə baş verən döyüşlər Azərbaycanın gücünü və regiondakı lider mövqeyini təsdiqləyən, sülh prosesinə istiqamət verən əhəmiyyətli hadisə kimi tarixə yazıldı.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycanın siyasi iradəsi və gerçəkliyin sərt diqtəsi

## *Bakının strateji tələbləri sülh prosesinin dinamikasını müəyyən edir*

**Azərbaycanın siyasi kursunu və sülh siyasətini anlamaq üçün Prezident İlham Əliyevin 14 sentyabr 2025-ci il tarixində Qarabağda səfəri zamanı səsləndirdiyi çıxış xüsusi əhəmiyyət kəsb edir. Prezident vurğuladı ki, Azərbaycan xalqı güclü və iradəlidir; döyüş meydanında qələbə qazandığı kimi, sülhə də hər zaman hazırdır. Onun sözlərinə görə, sülh yalnız ədalətli ola bilər, yəni beynəlxalq hüquq və tarixi ədalət üzərində qurulmalıdır. Son beş ilin hadisələri göstərdi ki, heç bir xarici qüvvə Azərbaycanın iradəsinə təsir göstərə bilməyib, 2023-cü ilin sentyabr hadisələri və antiterror əməliyyatı sübut etdi ki, ölkəmiz öz haqq işində tam qələbəyə nail olub.**



Prezidentin çıxışı həm daxili auditoriyaya, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış mesaj idi: Azərbaycan bölgədə davamlı sülh və quruculuq prosesinə hazırdır. Qarabağ və Zəngəzurda beş il ərzində aparılan sürətli bərpa işləri – şəhər və kəndlərin yenidən qurulması, infrastrukturların yaradılması, enerji və su sistemlərinin bərpası–Azərbaycanın sülhün iqtisadi təməlini güclü şəkildə formalaşdırdığını göstərir. Çıxış, eyni zamanda, Ermənistan və beynəlxalq aktorlara dolayısı mesaj verir: sülh gücün diktəsi ilə deyil, həm də iqtisadi və sosial inkişafa əsaslanan dayanıqlı nizamla təmin edilə bilər.

Son aylar regionda baş verən sürətli siyasi dəyişikliklər həm də məcburi və selektiv siyasətin arasında incə bir tarazlığın formalaşdığı yeni reallığın göstəricisidir. Ermənistan parlamentinin deputatı Kristina Vardanyanın açıqlaması – Azərbaycanın sülh prosesi çərçivəsində qoyduğu tələblərin tədricən yerinə yetirildiyi iddiası regionun geosiyasi matrisində mövcud güc nisbətlərinin açıq bəyan olunmasıdır. Bəyanat Bakının diplomatik və hərbi strategiyasını tamamlayır, eyni zamanda, Ankara–İrəvan dialoqunun arxa fonunda formalaşan yeni mərhələyə işarə edir. Hazırkı dönüş nöqtəsi iki vacib tendensiyanın kəsişməsində yaranıb: bir tərəfdən Azərbaycan öz hərbi və iqtisadi üstünlüyünü sülhün şərtlərini müəyyənləşdirmək üçün istifadə edir; digər tərəfdən, Türkiyə bölgə siyasətində ideoloji və simvolik tələblər vasitəsilə İrəvanı məcbur edir ki, uzun müddət formalaşmış narrativ və tarixi iddialardan geri çəkilsin. Prosesdə Ermənistanın razılaşmaları məcburi xarakter daşısa belə – bunlar həm də daxili siyasətdə yeni reallıqların formalaşmasına təkan verə və milli kimliyin yenidən tərtib olunması üçün daxili qarşıdurmaları artıra bilər.

Analitik prizmadan baxdıqda, həmin açıqlama üç əsas məqamı aydınlaşdırır: gücün sülhü formalaşdırmaq qabiliyyəti, sərhədlərin və təhlükəsizlik arxitekturasının yenidən dizaynı və tarixi-narrativ konfliktlərin siyasətin alətinə çevrilməsi. İndi isə həmin məqamların hər biri –Ermənistanın daxili siyasi balansları və hakim elitanın strategiyası, Azərbaycanın hədəflərinin hərbi-diplomatik və iqtisadi komponentləri, Türkiyənin tələblərinin regional əlaqələrə təsiri və beynəlxalq icmanın rolu daha dərindən təhlil olunacaq.

*

Azərbaycanın qarşıya qoyduğu tələblərin xronologiyası, əslində, sülh prosesinin konturlarını müəyyənləşdirən bir xəritədir. Ardıcıllıq təsadüfi seçilməyib, strateji olaraq həm diplomatik, həm də təhlükəsizlik baxımından bir-birini tamamlayan pillələrdən ibarətdir. İlk növbədə, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı tələb həyata keçirildi. Bu tələb yalnız uzun illər status-kvonu donduran bir mexanizmin sıradan çıxarılması deyildi; həm də Azərbaycanın beynəlxalq gündəmi öz şərtləri ilə formalaşdırmaq gücünü nümayiş etdirdi. Əslində, Bakı açıq şəkildə göstərdi ki, artıq "köhnə formatlar"la heç bir proses davam etdirilməyəcək.

Daha sonra gündəmə gətirilən məsələ– sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsinin qarşısının alınması regionun təhlükəsizlik arxitekturasının əsas sütunlarından birinə çevrildi. Azərbaycan üçün həmin addım məhz Ermənistanın Qərb və ya rus hərbi kontingentinə etibar edərək məsuliyyətdən yayınmasının qarşısını almaq idi. Başqa sözlə, Bakı açıq mesaj verdi: bu regionda təhlükəsizlik yalnız regional dövlətlərin balansı əsasında təmin olunacaq, kənar güclərin iştirakı yolverilməzdir.

Növbəti mərhələ – Ermənistan ordusunun ixtisar olunması Bakının strateji hesablamasının ən mühüm elementlərindən biridir. Ermənistanın hərbi resurslarının məhdudlaşdırılması birbaşa təhlükəni neytrallaşdırmaq məqsədi daşımır, eyni zamanda, İrəvanın siyasi alətlərini də daraldır. Çünki ordunun zəifləməsi daxili siyasətdə "güc kartı"nın istifadəsini mümkün qədər sıradan çıxarır, Ermənistanı diplomatik müstəviyə yönəldir.

Daha kritik məsələ isə konstitusiya dəyişiklikləri ilə bağlıdır. Azərbaycan açıq şəkildə tələb edir ki, Ermənistanın əsas qanununda hələ də mövcud olan ərazi iddiaları aradan qaldırılsın. Mövcud tələb milli kimliyin yenidən formalaşdırılması, siyasi mifi reallıqla əvəzləmək anlamı daşıyır. Əslində, konstitusion dəyişiklik İrəvan üçün ideoloji kapitulyasiyanın ən aydın göstəricisi ola bilər.

Burada əsas sual ortaya çıxır: Ermənistan bu tələbləri gələcək əməkdaşlıq üçün strateji seçim kimi qəbul edir, yoxsa sadəcə xarici təzyiqlər və beynəlxalq öhdəliklər qarşısında güzəştlərə gedir? Hazırkı vəziyyət göstərir ki, İrəvan daha çox təzyiq xətti ilə hərəkət edir. Təzyiq təkcə Azərbaycanın hərbi üstünlüyü ilə izah edilə bilməz; həm də ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda 8 avqustda sülh sazişinin paraflanması, beynəlxalq öhdəliklərin qüvvəyə minməsi və Türkiyənin geosiyasi təsiri Ermənistanın seçim imkanlarını məhdudlaşdırır. Başqa sözlə, İrəvan yalnız regional güclərin deyil, eyni zamanda, beynəlxalq aktorların təsiri altında hərəkət edir.

Ancaq uzunmüddətli perspektivdə bu tələblərin yerinə yetirilməsi Ermənistan üçün həm təhlükə, həm də imkan deməkdir. Təhlükə ondadır ki, daxili ictimaiyyət bu addımları milli kimliyin zəifləməsi kimi qəbul edə bilər. Perspektiv isə odur ki, Ermənistan regionda təcrid vəziyyətindən çıxaraq iqtisadi inteqrasiya kanallarına qoşula bilər. Başqa sözlə, məcburiyyətlə başlayan proses gələcəkdə siyasi rasionalizmin qapısını aça bilərmi? Sualın cavabı İrəvanın daxili siyasi elitasının hansı strategiyanı seçəcəyindən asılı olacaq.

*

Türkiyənin Ermənistanla münasibətlərin normallaşdırılması üçün irəli sürdüyü şərtlər daha çox siyasi-ideoloji xarakter daşıyır. "Erməni soyqırımı" iddiasının beynəlxalq platformalarda gündəmdən çıxarılması və Ağrı dağı ilə bağlı simvolların aradan qaldırılması İrəvan üçün daxili ideoloji mərkəzlərin zəifləndilməsi anlamına gəlir. İki şərt Ermənistan üçün həssas məqamı üzə çıxarır: tarixi yaddaş üzərində qurulmuş milli identikliklə real siyasət arasında balansın pozulması. Əgər Azərbaycanla bağlanan şərtlər əsasən təhlükəsizlik və hüquqi müstəviyə aid idisə, Türkiyənin istəkləri daha çox simvolik və identik sahəni əhatə edir. Burada əsas sual ortaya çıxır: Ermənistan öz tarixi narrativlərindən geri çəkildikcə, siyasi elita bunu cəmiyyətə necə izah edə biləcək? Çünki uzun illər dövlət ideologiyası məhz həmin narrativlər üzərində formalaşıb və bu mövqedən imtina psixoloji qırılma nöqtəsi ola bilər. Bununla yanaşı, reallıq göstərir ki, Ermənistanın regiondakı mövqeyini bərpa etməsi üçün həmin şərtlərin qəbulundan başqa alternativ yol qalmayıb. Əslində, bu addımlar Ermənistanı milli kimliyini tamamilə itirməyə deyil, real geosiyasi çərçivəyə uyğunlaşdırmağa məcbur edir. Lakin prosesin paradoksu da məhz buradadır: hər bir simvolik güzəşt Ermənistan daxilində siyasi parçalanmanı dərinləşdirə, amma beynəlxalq müstəvidə inteqrasiyanın açarına çevrilə bilər. Yəni İrəvan qarşısında duran seçim ideologiya ilə geosiyasət arasında tarazlıq yaratmaqdır.

*

Bəs Azərbaycan regiondakı mövqeyini uzunmüddətli sabitlik üzərindəmi qurur, yoxsa qısamüddətli üstünlüklə kifayətlənir? Qeyd etməliyik ki, Bakı strateji planı uzunmüddətli perspektivdə qurur. Bunun əsas səbəbi odur ki, iqtisadi resursların yönləndirilməsi yalnız daxili inkişaf üçün deyil, həm də regionun gələcək inteqrasiyasını mümkün etmək üçündür. Başqa sözlə, Azərbaycan göstərmək istəyir: sülh yalnız hərbi diktatla yox, iqtisadi əməkdaşlıqla da möhkəmlənə bilər. Ermənistanın indiki siyasi davranışı, əslində, bir yol ayrıcına işarə edir. Bir tərəfdə Azərbaycanın



diktə etdiyi şərtləri qəbul edərək regionda yeni təhlükəsizlik və iqtisadi arxitekturaya inteqrasiya olmaq perspektivi dayanır. Digər tərəfdə isə uzun illər davam edən təcrid, daimi təhlükəsizlik riskləri və iqtisadi zəiflik ssenarisi qalır. Əsas sual isə budur: Ermənistan uzunmüddətli sülhün təminatçısı ola biləcəkmi, yoxsa taktiki güzəştlərlə kifayətlənəcək? Ermənistan cəmiyyətinin isə ən böyük dilemması budur: tarixi yaddaş üzərində qurulan ideoloji siyasəti davam etdirmək, yoxsa geosiyasi reallığa uyğunlaşmaq. Birincinin nəticəsi daimi təcrid, ikincinin nəticəsi isə inteqrasiya yoludur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Düşüncələrdə daşlaşmış millətçilik zəhəri

## *Qonşuluğa xəyanət və tarixi cinayət etimada yer qoymayıb*



**Dante Aligyeri yaradıcılığının zirvəsi sayılan "İlahi komediya" əsərində xəyanəti cəhənnəmin ən dərin qatına yerləşdirir və onu cəmiyyətə yönəlmiş ciddi təhdid olduğunu qeyd edir. Xəyanəti etimadın itirilməsi kimi təsvir edən dahi italyan yazıçısı əsərində mənfur niyyətlərin zamanla əsl mahiyyətinin üzə çıxdığını vurğulayır.**

Bu ümumbəşəri reallıqla Azərbaycan çağdaş tarixində üzləşməli oldu. Ölkəmizin Ermənistanla uzun illər sülh danışıqları aparmasına, təkcə Bakının deyil, beynəlxalq təşkilatların da ona torpaqlarımızdan könüllü çıxmağı tövsiyə etmələrinə baxmayaraq, xəyanətkar düşmən dialoqa açıq mövqeyimizdən özünün işğalçılıq planlarını həyata keçirmək üçün istifadə etdi. Halbuki Azərbaycan heç vaxt müharibənin tərəfdarı olmayıb. Prezident İlham Əliyev sonda müharibənin qaçılmaz olacağını bildirsə də, onlar bu acı reallığı qəbul etmədilər. Rəsmi İrəvan hesab edirdi ki, arxalarında duran böyük dövlətlərin dəstəyi, aldığı silahlar, maliyyə yardımı hər zaman onu qoruyacaq. Sülhməramlı mövqeyimizi düzgün qiymətləndirə bilməyən ermənilər 2020-ci il sentyabrın 27-də cəbhəboyu genişmiqyaslı təxribatlara əl atdılar. Qarşılığında Azərbaycan Ordusu düşmənə çevik və güclü cavab verdi, cəmi 44 gün ərzində işğalçını əbədi məğlubiyyətə uğratdı.

Zəfərimizdən sonra da Azərbaycan Ermənistana şans verdi. Amma mənfur düşmən bu şansın əhəmiyyətini dərk edə bilmədi. Prezident İlham Əliyevin sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşü zamanı səsləndiyi fikirlər bunu bir daha təsdiqlədi: "Hətta İkinci Qarabağ müharibəsindən sonra, artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin, Azərbaycan qanunlarına tabe olun, gəlin, Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq, mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara son dərs oldu. Hamıya dərs oldu". Bəli, əfsuslar olsun ki, revanşistlər İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etmək istəmirdilər. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata baxmayaraq, Ermənistan silahlı birləşmələri Qarabağdan tam çıxmadı, əksinə, qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi və ərazidən çıxarılması məsələlərinə laqeyd yanaşdı. Bütün bunlar kifayət etmirmiş kimi, Ermənistan qanunsuz silahlı dəstələrin təminatını davam etdirir, Qarabağa silah-sursatla yanaşı, minaların daşınmasına şərait yaradırdı. Eyni zamanda, Azərbaycan Ordusunun mövqeləri ilə üzbəüz yerləşən ərazilərdə fəal mühəndis-istehkam işləri aparılır, kəşfiyyat-diversiya qruplarının fəaliyyəti gücləndirilir, yollar və ərazi yenidən minalanırdı. Onların məqsədi sülhün bərqərar olmasını ləngitmək, bölgədə qeyri-sabitlik yaratmaq və beynəlxalq hüququn aliliyini tapdamaq idi. Bütün bunlar 2023-cü ilin sentyabr ayında həyata keçirilən çevik antiterror tədbirlərini zərurətə çevirdi. Həmin tədbirlər göstərdi ki, düşmənin mənfur niyyətləri heç vaxt uğur qazana bilməz. Həm hərbi, həm də hüquqi baxımdan planlaşdırılmış antiterror tədbirləri xalqımızla yanaşı, beynəlxalq ictimaiyyətə mesaj oldu. Bu yerdə dahi Dantenin "xəyanətkarlar ağır cəzalara məhkumdur" postulatının özünü doğrultduğunu demək yerinə düşər.

Lokal antiterror tədbirlərindən sonra Azərbaycan Qarabağdakı erməni əhalinin bölgədə qalmasının mümkünlüyünü açıq şəkildə bəyan etdi. Dövlətimiz onların təhlükəsiz yaşayışının təminatı üçün bütün lazımi zəmanətləri verdi, infrastrukturun bərpası, həyat şəraitinin normallaşdırılması və humanitar dəstək istiqamətində addımlar atdı. Hətta onlayn müraciət və qeydiyyat portalı yaradıldı. Amma Paşinyan hökuməti bunun qarşısını aldı. Rəsmi Bakının reinteqrasiya təklifinə razı olmayan ermənilər bölgəni tərk etməyə başladılar. Tarix boyu işğalçı və xain niyyətlərin qurbanları həmişə sadə insanlar olub. Separatçıların və Ermənistan rəhbərliyinin dediklərinə inananlar, əslində, yad torpaqlarda məskunlaşaraq uzun illər çətinliklərlə üzləşdilər. Onlar anlamaq istəmirdilər ki, etimadsızlıq, manipulyasiya və xaincəsinə qurulmuş planlar yalnız qısa müddət üçün "təhlükəsiz" görünə bilər. Azərbaycanın reinteqrasiya təklifini qəbul etməməklə həm hüquqi, həm də sosial imkanlardan məhrum oldular. Vətəndaşlığı qəbul etsəydilər, tamhüquqlu sakin kimi tanınacaq, seçki hüququndan istifadə edə, dövlət orqanlarında işləyə və hüquqi müdafiə imkanlarından faydalana biləcəkdilər. Bundan əlavə, sosial sığorta, pensiya, təhsil və səhiyyə kimi əsas təminatlardan yararlanmaq da öz yerində. Onlar bundan imtina ilə yalnız imkanlardan məhrum olmadılar, həm də etimadımızı itirdilər. Üz tutduqları Ermənistanda təhlükəsizlik zəmanəti yox, iqtisadi imkanlar məhdud, sosial təminat isə formal xarakter daşıyır. Gündəlik həyatlarını təmin etmək, gələcək nəsillər üçün sabit şərait yaratmaq imkanlarından da məhrum oldular. Onların "ikinci növ erməni" kimi qarşılandıqları Hayastanda əldə etdikləri yalnız qeyri-sabitlikdir. Çünki İrəvanın saxta vədlərinə aldandılar, siyasi manipulyasiyanın qurbanı oldular. Separatçıların aqibəti isə indi hər kəsə bəllidir.

Deyirlər, gedən qatarın arxasınca baxmağa dəyməz. Amma "qarşı tərəf nə itirdi?" sualını cavablamasaq olmaz. Nəfsinin qurbanı olan ermənilər təkcə çörəyimizi, suyumuzu deyil, inam və etibarımızı itirdilər. Həm də birdəfəlik. Çünki onun bərpası, yaxud yenidən qazanılması mümkün deyil.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Fəzail İBRAHİMLİ,**
**Milli Məclisin deputatı**

Ölkəmiz tarixi ədaləti bərpa edərək torpaqlarını işğaldan azad edib, beynəlxalq münasibətlərdə nümunəvi davranış sərgiləyib. Bu gün dövlətimizin beynəlxalq arenada durmadan artan nüfuzu və tarixi reallıqlar bizi gözü götürməyənlərə qarşı, bir növ, "göz dağı"dır. Prezident İlham Əliyev sentyabrın 15-də Qarabağa səfəri zamanı həm ermənilərə, həm də onların havadarlarına mühüm ismarıclar ünvanladı. Ölkə başçısı qeyd etdi ki, Azərbaycan daim sülh tərəfdarı olmuş, müharibəyə qarşı çıxmışdır. Amma Ermənistan öz xain xislətindən əl çəkmək istəmirdi. Çünki böyük dövlətlər düşmənə silah verir, maliyyə və siyasi dəstək göstərirdilər. Müharibədən sonra bu, açıq göründü. Avropanın bəzi dövlətləri Ermənistanı açıq şəkildə müdafiə edərək bölgəni platsdarma çevirdilər. Fransa prezidenti ermənilərdən də çox ermənipərəst mövqe sərgiləyir, Hindistandan Ermənistana silahlar daşınırdı. Avropa İttifaqının bölgəyə göndərdiyi missiya isə "mülki müşahidə" adı altında fəaliyyət göstərən hərbi kəşfiyyat kontingenti idi. Azərbaycan təkcə Ermənistana qarşı deyil, onun arxasında duran güclərlə də üz-üzə qaldı və qələbə qazandı. Avropa dövlətlərinin bu mövqeyi onların əsl simasını üzə çıxardı. Amma ermənilərin "Böyük Ermənistan" xülyası üzərində qurduqları bütün planlar II Qarabağ müharibəsində məhv edildi. 2023-cü ilin sentyabrında baş tutan antiterror tədbirləri ilə separatizmin tabutuna sonuncu mismar vuruldu. Onlar bundan sonra yaradılan reinteqrasiya şansını da dəyərləndirə bilmədilər.

Azərbaycan Prezidenti iki gün əvvəl Qarabağa səfərində xüsusi vurğuladı ki, Ermənistan Azərbaycan xalqının iradəsini düzgün hesablaya bilmədi. Onlar nə dövlətimizin qətiyyətini, nə xalqımızın birliyini, nə də ölkə başçısının ətrafında sıx birləşən millətin gücünü nəzərə aldılar. Azərbaycanın beynəlxalq nüfuzu da bu qətiyyətin nəticəsi olaraq artmaqdadır. Avqustun 8-də Vaşinqtonda keçirilən görüşlər bunu bir daha təsdiqlədi.

# Binoklda görünən dünya, yaxud Ritterin uydurduğu münaqişə

**(əvvəli 1-ci səhifədə)**

M.Ritter bildirib ki, rəhbərlik etdiyi missiya bölgəyə gələndə əhalinin gözləntilərini idarə etməyi bacardı. Təsəvvür edin, 2023-cü ilin əvvəlidir, EUMA şefi və onun "binokllu cəngavərləri" şərti sərhəddə dayanıblar və sıravi haylar onları görüb sakitləşiblər, qorxuları aradan qalxıb. Hər halda, belə bir dünya yoxdur. Amma Ritterin haqqında sonra danışdığı dünya olub. Yəni erməni əhali, həqiqətən elə başa düşmüşdü ki, EUMA Aİ-nin Ermənistanın müdafiəsinə gəlmiş qüvvələridir.

EUMA-nın mövcudluğuna iki il əvvəl də ehtiyac yox idi, indi də bununla əlaqədar zərurət duyulmur. Qurum birbaşa Fransa Prezidenti Emmanuel Makronun Cənubi Qafqaza yönəlmiş "planlarının" tərkib hissəsi idi. O "planlarının" ki, hamısı iflasa uğradı. O "planlarının" ki, onların, böyük ölçüdə, Aİ-nin strateji maraqlarına aidiyyatı yoxdur. Makron, EUMA-nın xətti ilə qlobal oyunlar üçün dayaq nöqtəsi hazırlamışdı. Hesab etmişdi ki, Ermənistanı müdafiə adı altında bütövlükdə Cənubi Qafqazda üstünlük qazanmağa müvəffəq olacaq. Nəzərə alaq ki, üstünlük üçün Qarabağ avantürasının davamı kimi aşkar ermənipərəstlik kursu da götürülmüşdü. Axı EUMA bölgəyə gələndə Qarabağda erməni separatizmi öz varlığını qoruyur, qondarma "Dağlıq Qarabağ Respublikası" deyilən qurum saxlanılırdı.

Makron Fransası hesab edirdi ki, müşahidəçilərin şərti sərhəddəki mövcudluqları Azərbaycanın separatçıların Qarabağdakı demarşlarına Ermənistan ərazisinin ələ keçirilməsi ilə cavabının qarşısını alacaq. Azərbaycan isə tamamilə fərqli yol seçdi, 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri keçirərək, separatizmin kökünü kəsdi, özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Əslində, EUMA məhz həmin vaxt "missiyasını" başa vurmalı idi. Ancaq Makron və xaricdəki ermənipərəstlər təzə mövzu tapdılar: Azərbaycan Ermənistanı işğal etmək istəyir. Guya, ölkəmizin qarşısını EUMA kəsəcəkmiş. Qurum üzvlərinin silahlandırılması və saylarının artırılması ideyası da məhz bundan qaynaqlanırdı. Yəni Makron tutduğunu buraxmırdı. Daha doğrusu, buraxmaq istəmirdi.

Bəli, Fransa başda olmaqla, Qərb dünyası çalışırdı ki, EUMA silahlandırılsın və bölgədə güc amili kimi çıxış etsin. Rusiya Cənubi Qafqazdakı mövcudluğunu klassik jandarmeriya missiyası yerinə yetirməkdə gördüyü kimi, Aİ-nin bu təsisatını yaradanlar da ağıllarına təxminən eyni fəaliyyətə üstünlük verməyi salmışdılar. Amma Azərbaycanın diktə etdiyi reallıqlar qarşısında onların bütün hesablamaları boşa çıxdı. M.Ritter indi bildirir ki, əvvəllər onun rəhbərlik etdiyi təsisatı hərbi birləşmə olaraq təsəvvürə gətirənlərin baxışları dəyişib: "İndi insanlar artıq bilirlər ki, biz niyə buradayıq və nə edə bilərik".

Cənab Ritter haqlıdır. O anlamda ki, artıq insanlarda, yəni, erməni əhalidə EUMA-nın tam mənasızlığına, heç nə edə bilməyəcəyinə dair yetkin qənaət formalaşıb. Hərçənd, əvvəllər bununla bağlı müəyyən tərəddüdlər var idi. Ümumən, təsisatın hansı real işi gördüyünə dair qənaət yoxdur və olmayıb da. Hər halda, "pikap"larda şərti sərhədin bir tərəfindən o biri tərəfinə məsafə qət etmək, əldə binokl Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə baxmaq fəaliyyət sayıla bilməz. Ritterin dilə gətirdikləri, əslində, danışılası söz deyil. Amma onu sırf humanizm nöqteyi-nəzərdən çox da qınamırıq. Nə etsin, adam özünə asan iş yeri tapıb, heç bir vəchlə itirmək istəmir. Həm də ona görə humanizmə üstünlük veririk ki, Ritter psixi problemləri olan birinə bənzəyir. O bildirir ki, "Ermənistan hələ də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür, burada Rusiya qoşunları yerləşir və...".

Deyən lazımdır ki, Ermənistanın hansı təşkilata üzv olmasından sənə nə? Eləcə də ölkədə Rusiya qoşunlarının olub-olmamasının Ritterə heç bir halda dəxli yoxdur. Aydındır ki, o, öz aləmində, təhlükəsizlik çağırışları uydurmaqla məşğuldur. Ritterin EUMA-nın mövcudluğunu əsaslandırmaq üçün ortaya atdığı ən sərsəm məntiq isə budur: "Azərbaycanla münaqişə mövcuddur, üstəlik, Azərbaycan bizimlə əməkdaşlıq etmək istəmir. Bu isə missiyamıza qarşı çoxsaylı dezinformasiya kampaniyalarına səbəb olur. Buna hər zaman asanlıqla reaksiya vermək olmur, amma biz müəyyən cavab mexanizmləri tapmışıq".

Deyəsən, cənab Ritter özünü tam başqa dünyanın nümayəndəsi sayır. EUMA şefinin Azərbaycan–Ermənistan münaqişəsinin mövcudluğuna dair fikirlərinə gəlincə, deyəsən o, dünyaya əlindəki binoklla baxır. Yəni, təəssürat yaranır ki, adamın Vaşinqtonda Bakı–İrəvan sülh sazişinin paraflanmasından, Birgə Bəyannamənin imzalanmasından xəbəri yoxdur. Xəbəri olsaydı, konflikt qondarmazdı. Konflikt qondarmağı bir yana, Ritter şizofren tərzdə bildirir ki, "hazırda Azərbaycandan gələn dezinformasiya susub, may ayından etibarən dayandırılıb. Rusiya ilə bağlı isə hələ də problemlərimiz qalır, amma bu mərhələdə vəziyyət yaxşı görünür".

Ümumən, M.Ritter o qədər yalan danışıb ki, özü də səsləndirdiyi cəfəngiyyata inanır. Üstəlik, Azərbaycanın rəhbərlik etdiyi qurumla əməkdaşlıq etmədiyini bildirib şikayətlənir də. Beləsi ilə necə əməkdaşlıq edəsən? Birincisi, ölkəmiz lap əvvəldən bəyan etmişdi ki, Aİ-nin müşahidəçilərinə ehtiyac duymur, onları öz ərazisinə buraxmayacaq. İkincisi, rəsmi Bakı heç vaxt İrəvanla münasibətlərin tənzimləməsi xüsusunda EUMA-nı səlahiyyətli saymayıb. Əksinə, ölkəmiz həmişə çalışıb ki, özündə münaqişə məntiqini saxlayan təsisatlar aradan qalxsın. Azərbaycanın ATƏT-in Minsk qrupunun ləğvi istiqamətində göstərdiyi inad bunun sübutudur. Ritter isə münaqişə uydurur. Bir azdan özünü keçmiş Minsk qrupunun həmsədri kimi göstərsə, heç təəccüblənmərik.

Amma məqsədimiz təkcə M.Ritterin sərsəmləmələrini vurğulamaq deyil.

Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi bir məqamın üzərində dayanaq: "Avropa Komissiyası ilə münasibətlərimizin necə inkişaf edəcəyini söyləmək çətindir. Amma deməliyəm ki, ötən il məyusluqla dolu bir il oldu. Məhz keçən il Avropa İttifaqı normallaşma prosesində birmənalı olaraq Ermənistanın tərəfini tutdu. Sizin də yaxşı bildiyiniz çoxlu fakt var. Əlbəttə, Avropa İttifaqının qondarma müşahidə missiyasının müddətinin uzadılması etimadı möhkəmləndirmədi, əksinə, sarsıtdı. Axı, bunun bizimlə razılaşdırılmasını tələb etdikdə, hansısa yüksək ambisiyalardan çıxış etmirdik, sadəcə istəyirdik ki, bu missiyanın özünün yaradılması və onun sərhədimizə göndərilməsi bizimlə, 2022-ci ilin oktyabrında Praqada şəxsən mənimlə razılaşdırılsın. Əgər həmin vaxt biz bunun iki aylığına və 40 nəfərdən ibarət olacağı barədə razılığa gəldiksə, deməli, bu, belə də olmalı idi. Mən razılığa gəldikdə, hətta sözdə də olsa, həmişə bu razılaşmalara əməl edirəm. Amma belə bir vəziyyətdə Avropada hesab etdilər ki, onlar həmin razılaşmaları pozmaq hüququna malikdirlər. Sonra heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər. Onların oradan necə sürətlə qaçacağını göstərmək istəmirəm, əgər kimsə təsadüfən Azərbaycan ərazisinə soxularsa, onda sadəcə görəcəklər ki, əllər necə qaşınır. Ona görə də biz onlara çatdırdıq ki, binokl şousuna son qoysunlar, artıq, necə deyərlər, binoklsuz gəzişirlər. Hərçənd bu yaxınlarda Avropanın bir ölkəsinin prezidenti Azərbaycanı binoklla izləmək kimi ədəbsiz davranış sərgiləyib. Məgər o, bundan bir həftə əvvəl burada, Bakıda olarkən və mənimlə görüşməyi xahiş edərkən bunları görmürdü? Əgər baxmaq istəyirdisə, mən onu Qarabağa göndərərdim, dağları seyr edərdi. Başa düşürsünüzmü, bu, artıq nümayiş deməkdir. Bu, sadə məsələ deyil, münasibət deməkdir. Binoklla sanki düşmənə baxırsan. Əgər siz Azərbaycana belə münasibət bəsləyirsinizsə, onda biz necə münasibət göstərə bilərik? Mən hələ xarici işlər üzrə sabiq ali nümayəndənin destruktiv rolundan danışmıram. Başqa məsələlər də var. Çoxlu məyusluq oldu".



Sözümüz ondadır ki, bu gün başda ABŞ olmaqla, Qərb dünyası Azərbaycan və Ermənistan arasından sülhün qərarlaşmasını arzulayırsa, ilk növbədə EUMA-nın mövcudluğuna son qoymalıdır. Dünya anlamalıdır ki, Bakı ilə İrəvan arasında münaqişə məntiqini özündə daşıyan heç bir təsisat olmamalıdır. Olmamalıdır ki, onun rəhbəri M.Ritter kimi macərapərəstlər ortalığa düşüb təfəkkürlərinin mücərrəd güşələrində bəslədikləri primitivlikləri reallıq qismində göstərməsinlər. Hesab edirik ki, indiki durumda Aİ, ən başlıcası isə Ermənistan hakimiyyətinin özü məsələyə həssas yanaşmalıdır. Çünki Ritterin söylədikləri nəinki cəfəngiyyatdır, bütövlükdə Bakı–İrəvan sülh gündəminə tamamilə zidd təmayüldür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı İslam dünyasının sivil çağırışlar mərkəzidir

**(əvvəli 1-ci səhifədə)**

Sentyabrın 15-də Qətərdə öz işinə başlayan Fövqəladə Ərəb–İslam Sammitində Azərbaycan XİN rəhbəri Ceyhun Bayramovun iştirakı bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Toplantıda əsas müzakirə mövzusu Yaxın Şərqdə gərginlik, Fələstin məsələsi və humanitar böhranın həlli yolları oldu. Bakı humanitar fəlakətin dayandırılmasına, beynəlxalq hüququn aliliyinin qorunmasına çağırış etdi. Azərbaycanın mövqeyi balanslı və praqmatik idi – münaqişənin siyasi həllinə, bölgədə dayanıqlı sülhün təmin olunmasına dəstək ifadə olundu. Sammitdə çıxış edən nazir C.Bayramov Qətərə edilən son hava hücumunun dərin narahatlıq doğurduğunu bildirib, Qətərin suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edib. XİN başçısı beynəlxalq hüququn və BMT Nizamnaməsinin prinsiplərinə sadiq qalaraq gərginliyin daha da dərinləşməməsinə çağırış edib. Fələstin məsələsində rəsmi Bakının dəstəyi diqqətə çatdırılıb, regiondakı böhranın həlli istiqamətində sülh təşəbbüslərindən əlavə, humanitar yardım səylərinin əhəmiyyəti qeyd olunub.

Bu kontekstdə vurğulanıb ki, Azərbaycan 2023-cü ildən etibarən regionda gərginliyin artmasına reaksiya olaraq Fələstin əhalisinə 2 milyon ABŞ dolları dəyərində humanitar yardım ayırıb. Nazir çıxışında, həmçinin bildirib ki, Bakı təhsil və səhiyyə istiqamətlərində bir sıra dəstək proqramları həyata keçirərək Fələstin xalqının sosial vəziyyətinin yaxşılaşdırılmasına töhfə verir.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri kimi həmişə İslam həmrəyliyi məsələlərində prinsipial mövqe sərgiləyib. Qarabağ münaqişəsinin ədalətli həlli uğrunda illərlə davam edən diplomatik mübarizədə İƏT-in siyasi dəstəyi Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinin daha geniş tanınmasına imkan verib. 1997-ci ildə İƏT-in 8-ci zirvə toplantısı zamanı ölkəmiz İslam dünyasının dəstəyini bariz olaraq hiss etdi. O dövrdə İslam Əməkdaşlıq Təşkilatının baş katibi olmuş İzzəddin Laraki qurumun ölkəmizə dəstəyini bu sözlərlə ifadə etmişdi: “Azərbaycanın üzləşdiyi problem bizim də problemimizdir. Hər şeyə dözə bilərsiniz, ancaq torpağın ələ keçirilməsinə deyil. İslam Konfransı Təşkilatının tamamilə yanınızda olduğuna əmin olun”.

Məhz təşkilatla uğurlu əlaqələr və qarşılıqlı dəstək fonunda həm ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyevin dövründə İƏT-lə münasibətlər müsbət tempdə inkişaf etdi. Bu gün Azərbaycan artıq təkcə dəstək alan tərəf deyil, həm də gündəliyi müəyyənləşdirən, təşəbbüslər irəli sürən, İslam dünyasında vasitəçi rolunu oynayan aktordur.

Qətərdə keçirilən Fövqəladə Ərəb–İslam Sammitinin mərkəzi mövzularından biri regional təhlükəsizlik idi. Azərbaycan uzun illərdir ki, radikalizmə və beynəlxalq terrorizmə qarşı mübarizə aparır, BMT, ATƏT, NATO tərəfdaşlığı kimi platformalarda fəal iştirak edir. Bu təcrübə Azərbaycanın nümunəvi model kimi təqdim olunmasına şərait yaradır. Xüsusilə Cənubi Qafqazda sülhün təmin olunması, Ermənistanla sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması prosesi İslam dünyası üçün də strateji əhəmiyyət daşıyır. Çünki bu region Asiya ilə Avropanı birləşdirən əsas ticarət marşrutlarının kəsişmə nöqtəsidir. Bakı bu imkanlardan istifadə edərək həm Mərkəzi Asiya, həm də Yaxın Şərq ölkələrini cəlb edən Orta Dəhliz layihəsini inkişaf etdirir. Bu, İslam ölkələrinin iqtisadi birliyinə də töhfə verə bilər.

Sammitdə humanitar məsələlərin müzakirəsi Azərbaycanın illərlə topladığı təcrübə ilə səsləşir. Bir milyondan artıq qaçqın və məcburi köçkün problemini həll etmək üçün gördüyü işlər, BMT və digər qurumlarla əməkdaşlıq formatları Azərbaycanın bu sahədə beynəlxalq nüfuzunu artırıb. Bakı, həmçinin qlobal humanitar təşəbbüslərin təşviqində fəal iştirak edir. Qoşulmama Hərəkatına sədrliyi dövründə COVID-19 ilə mübarizə üzrə humanitar mexanizmlərin yaradılması bunun ən parlaq nümunəsidir. Bu təcrübə Doha sammitində Azərbaycanın mövqeyini daha da gücləndirdi və onu İslam dünyasında humanitar məsələlərin həllinə nümunə kimi təqdim etdi. Azərbaycan üçün bu sammit beynəlxalq nüfuzun möhkəmləndirilməsi, İslam həmrəyliyində öncül mövqeyin təsdiqi, sülh və təhlükəsizlik təşəbbüslərinin fəal dəstəklənməsi deməkdir.

Bu mərhələdən sonra Azərbaycanın ərəb–müsəlman dünyası ilə iqtisadi, siyasi, mədəni və humanitar əlaqələrinin daha da dərinləşəcəyi gözlənilir. Bakı həm Qarabağda həyata keçirilən bərpa işlərini, həm də Orta Dəhliz layihəsini İslam ölkələri üçün strateji əməkdaşlıq platformasına çevirə bilər. Məhz bu baxımdan dövlət başçımız İlham Əliyevin sentyabrın 15-də Şuşada ICESCO-nun (İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı) Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul etməsi, ötən gün isə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi səfəri Azərbaycanın ərəb ölkələri ilə münasibətlərə xüsusi önəm verdiyini bir daha göstərir. Bu addımlar Azərbaycanın ərəb-müsəlman dünyası ilə davamlı və strateji dialoqa sadiqliyini təsdiqləyir, ölkəmizin regional inteqrasiya və tərəfdaşlıq siyasətini daha da gücləndirir.

***Tacir SADIQOV***
***XQ***



### Ekspert rəyi



**Lalə XƏLİLZADƏ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Ərəb ölkələri üzrə eksperti**

Sentyabrın 15-də Dohada öz işinə başlayan Fövqəladə Ərəb-İslam Sammitində 57 ərəb və islam ölkəsinin xarici işlər nazirləri, o cümlədən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da iştirak edirdi. Sammitdə İsrailin Qətərə qarşı həyata keçirdiyi hücumla bağlı bəyanat layihəsi müzakirə olundu. C.Bayramov öz çıxışında Fələstin məsələsi kontekstində Azərbaycan tərəfindən “iki dövlət” prinsipinin dəstəkləndiyini qeyd etdi. Həmçinin BMT-nin hüquqi normaları və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin dəstəkləndiyini bir daha diqqətə çatdırdı.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan 2023-cü ilin oktyabrından etibarən başlanmış İsrail–HƏMAS münaqişəsi zamanı Qəzaya və Fələstinə bir sıra humanitar yardım göndərib. Ümumiyyətlə, Azərbaycan İslam və Ərəb dünyasında təkcə regionda deyil, həm də beynəlxalq səviyyədə nüfuzlu mövqeyə malikdir.

Azərbaycanı ərəb ölkələri və İslam dünyasına yaxınlaşdıran digər amillərdən biri beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdır. Azərbaycan ərəb ölkələrinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda tərəfdaşlıq edir və qarşılıqlı dəstək göstərir. Eyni zamanda, Qətərlə Azərbaycan bir sıra sahələrdə əməkdaşlıq edir və bu ikitərəfli tərəfdaşlıq artan xətt üzrə inkişaf edir.

# “Beşinci respublika” böhran içində

## *Fransa prezidentinə etimad sürətlə azalır*

**Fransa siyasətində son illərin əsas müzakirə mövzusu hökumətin ardıcıl səhvləri və bunların yaratdığı gərginliklərdir. Hökumətin idarəçilik üslubunda çevik yanaşmanın olmaması, əksinə, sərt və çox vaxt nəticəsiz qərarların qəbul olunması ictimai gərginliyi daha da artırır. Xarici siyasətdəki qeyri-sabit addımların daxildəki narazılıqlarla üst-üstə düşərək ölkəni çətin vəziyyətə saldığı günün reallığıdır. Sosial ədalətin, iqtisadi sabitliyin və milli həmrəyliyin təmin olunmaması hökumətin əsas problemlərindəndir. Cəmiyyətin müxtəlif təbəqələri arasında parçalanma dərinləşir, etirazlar isə gündəlik hadisəyə çevrilir. Vəd edilən islahatların nəticəsiz qalması vətəndaşlarda ümidsizlik və inamsızlıq yaradır. Bütün bunlar Fransada siyasi mühitin dərin ziddiyyətlər və böhranlarla xarakterizə olunmasına səbəb olur.**

Beşinci Respublika rəhbərliyinin, konkret olaraq, prezidenti Emmanuel Makronun yaranmış vəziyyətdən çıxış yolu tapa bilməməsi onun reytinqinin sürətlə aşağı düşməsinə gətirib çıxarıb. Fransa İctimai Rəy İnstitutunun (IFOP) “Le Journal du Dimanche” qəzetində dərc etdiyi sorğunun nəticələrinə görə, Makronun fəaliyyətindən razılıq səviyyəsi 2025-ci ilin sentyabr ayında tarixi minimuma enib.

Respondentlərin yalnız 19 faizi Fransa liderinin fəaliyyətindən razıdır ki, bu da avqust ayı ilə müqayisədə 5 faiz bəndi aşağıdır və sorğu tarixində ən aşağı göstəricidir, deyə institut qeyd edib. Rəyi soruşulanların, ən azı, 81 faizi Makronun işindən narazı olduğunu, 50 faizi çox məyus olduğunu, 31 faizi isə daha çox məyus olduğunu bildirib. Narazılıqda ən çox artım kiçik ticarətçilər və sahibkarlar (+20 faiz) və yaşı 65-dən yuxarı olan vətəndaşlar (+10 faiz) arasında qeydə alınıb. Respondentlərin sayı və sorğunun keçirilmə tarixi barədə məlumat açıqlanmayıb.

Qeyd edək ki, sentyabrın 8-də baş nazir Fransua Bayru Milli Assambleyada (parlamentin aşağı palatası) hökumətinə etimad məsələsi ilə bağlı səsvermədən əvvəl ölkə iqtisadiyyatında ilk növbədə dövlət borcunun sürətli artımı ilə bağlı yaranmış böhrandan bəhs edib. Müxalifət nümayəndələri, Makron da daxil olmaqla, hökumətlərin tez-tez dəyişdirilməsi siyasətinin bu vəziyyətə gətirib çıxardığını bildiriblər. Deputatların əksəriyyəti (364 nəfər) cəmi 9 ay fəaliyyət göstərən hökumətə etimadın əleyhinə səs veriblər. 194 deputat isə hökumət başçısının lehinə səs verib. Sentyabrın 9-da Silahlı Qüvvələr naziri Sebastian Lekornu Fransanın yeni baş naziri təyin edilib.



Onu da bildirək ki, etimadsızlıq səsverməsi keçirilməsinin təşəbbüskarı Fransanın dövlət borcunu azaltmaq üçün dövlət xərclərini təxminən 44 milyard avro azaltmağı təklif etdiyi “sərt qənaət” planının yaratdığı böhrandan sonra Bayru özü idi. Bayru xüsusilə vergi dərəcələrinin, eləcə də sosial müavinətlərin və pensiyaların mövcud səviyyədə dondurulmasını təklif etmişdi.

Fransua Bayru 2017-ci ildə E.Makronun prezident seçilməsindən sonrakı dövrdə altıncı, 2022-ci ildən sonra isə beşinci baş nazir idi. Bütövlükdə, Fransada son illərin siyasi mənzərəsi ölkə rəhbərliyinin ardıcıl uğursuz qərarları fonunda formalaşır. Makronun daxili siyasətdə ortaya qoyduğu xətt nə ictimai sabitlik gətirib, nə də sosial problemlərin həllinə töhfə verib. Əksinə, hökumətin qəbul etdiyi hər bir qərar cəmiyyətdə yeni gərginlik dalğaları doğurur. Enerji böhranından tutmuş pensiya islahatlarına qədər atılan addımlar vətəndaşların gündəlik həyatına ağır təsir göstərib. Ölkənin böyük şəhərlərinin küçələrinin bir neçə il ərzində davamlı olaraq etirazların, tətillərin və narazılıqların ünvanına çevrildiyini hər kəs xatırlayır.

*

Sirr deyil ki, Makronun idarəçilik üslubu çox vaxt sərt və avtoritar çalarlarla müşahidə olunur. O, islahat adı altında həyata keçirdiyi təşəbbüsləri müzakirəyə çıxarmadan, sanki zorla xalqa qəbul etdirir. Halbuki fransız cəmiyyətinin ənənəvi xüsusiyyəti demokratik dialoq və ictimai konsensusdur. Hakimiyyət isə bu prinsipləri gözardı edərək, “mən nə dedim, odur” siyasətini önə çıxarır. Bu səbəbdən də narazılıqlar daha da dərinləşir, sosial qruplar arasında uçurum genişlənir. Zəhmətkeşlər, tələbələr, orta təbəqə – hamı müxtəlif səbəblərlə eyni dalğada hökumət əleyhinə çıxış edir. Ən böyük problemlərdən biri də sosial ədalət məsələsidir. Vətəndaşlar gündəlik həyatlarını ağırlaşdıran iqtisadi çətinliklər fonunda hökumətin daha çox imtiyazlı təbəqələri qorumasını açıq şəkildə hiss edirlər. Gənclərin işsizlik problemi həll olunmur, təhsil sistemindəki bərabərsizliklər qalır, regionlar arasındakı fərq isə artır. Xüsusilə kəndlərdə və kiçik şəhərlərdə yaşayan vətəndaşlar özlərini dövlət tərəfindən unudulmuş sayırlar. Bu da böyük şəhərlərdəki nümayişlərlə yanaşı, əyalətlərdə də narazılığın kök salmasına səbəb olur.

Makronun hakimiyyəti dövründə siyasi gündəm çox vaxt elitanın maraqlara uyğun formalaşdırılıb. Cəmiyyətin əsas təbəqələri isə prosesdən kənarda qalıb. Vəd edilən “yeni Fransa” ideyası kağız üzərində yarşıqlı görünsə də, reallıqda ciddi sosial böhranları daha da kəskinləşdirib. İnsanlar artıq hökumətin sözlərinə deyil, öz təcrübələrinə güvənirlər. Bu təcrübə isə gündəlik həyatın bahalaşma, qeyri-bərabərlik və daimi etirazlarla dolu olduğunu göstərir.

Bu mənada Fransada aparılan son rəy sorğusu ölkə rəhbərliyinin uğursuz siyasətinin cəmiyyətə necə təsir etdiyini açıq şəkildə ortaya qoyur. Beşinci Respublika rəhbərinin bir neçə ildir daxili idarəçilikdə yol verdiyi ardıcıl səhvlər nəticəsində ictimai narazılıqlar daha da güclənib və bu gün Paris küçələri müxtəlif sosial qrupların iğtişaş səhnəsinə çevrilib. Enerji qiymətlərindən tutmuş sosial təminata qədər hər bir sahədə yaşanan böhran insanların durumunu ağırlaşdırıb. İctimai Rəy İnstitutunun dərc etdiyi son rəy sorğusu bu vəziyyətin bariz göstəricisidir. Sorğunun nəticələrinə görə, Makronun fəaliyyətindən razılıq bildirənlər rəyi soruşulanların cəmi 19 faizini təşkil edirlər. Bu, institutun tarixində qeydə alınmış ən aşağı göstərici hesab olunur. Daha diqqətçəkən məqam odur ki, narazıların böyük hissəsi – 50 faizi tam məyus olduqlarını etiraf ediblər. Bu, artıq təkcə bir siyasətçinin şəxsi uğursuzluğu deyil, həm də dövlətlə xalq arasında dərin uçurumun yaranması deməkdir. Narazılığın ən çox kiçik ticarətçilər və sahibkarlar arasında artması da vacib nüansdır. Çünki məhz bu təbəqə ölkə iqtisadiyyatının, necə deyərlər, onurğa sütunu sayılır və onların inamsızlığı iqtisadi həyatın bütün sahələrinə mənfi təsir göstərə bilər.

Sorğu fonunda parlamentdə baş verənlər də Fransanın hansı siyasi burulğana düşdüyünü göstərir. Fransua Bayru hökuməti cəmi 9 ay davam gətirə bildi. Dövlət borcunun sürətlə artmasını əsas gətirən baş nazir qənaət planı irəli sürdü, amma bu addım əksinə, narazılığı daha da qızışdırıb. Vergilərin artırılması, sosial müavinətlərin və pensiyaların dondurulması kimi təkliflər əhalinin ən həssas təbəqələrinə birbaşa zərbə idi. Nəticədə parlamentdə etimadsızlıq səsverməsi keçirildi və hökumət çoxluq tərəfindən rədd edilib. Bayru özü də etiraf edib ki, sərt qənaət planı əhalidə ciddi narazılıq doğurub.



**Politoloq İlyas Hüseynov** mövzu ilə bağlı XQ-yə bildirdi ki, sentyabrın 9-da yeni baş nazirin təyin olunması Fransadakı ümumi mənzərəni dəyişməyəcək. Onun sözlərinə görə, çünki problem təkcə hökumət başçılarının tez-tez dəyişməsində deyil, dövlətin idarəçilik mexanizminin böhran yaşamasındadır: “Cəmiyyət artıq başa düşür ki, hakimiyyətin növbəti “islahat” vədləri real nəticə vermir. Hər yeni baş nazirin təyin olunması sadəcə vaxt udmaq, narazı kütlənin diqqətini qısa müddətlik yayındırmaq cəhdinə bənzəyir. Amma həm küçələrdə, həm də sorğularda əks olunan mənzərə aydındır: Fransa dərin siyasi və sosial böhran yaşayır. Makronun siyasəti indi təkcə onun şəxsi nüfuzuna zərbə vurmur, həm də dövlətin əsas sütunlarını sarsıdır. Əgər hakimiyyət bu vəziyyətdən çıxış yolu tapa bilməsə, qarşıdakı illərdə ölkə daha ciddi siyasi silkələnmələrlə üz-üzə qala bilər”.

Ekspert qeyd etdi ki, Fransada keçirilən son sorğu cəmiyyətlə hakimiyyət arasında uçurumun getdikcə böyüdüyünü bir daha göstərdi. Onun sözlərinə görə, əhalinin böyük hissəsi artıq prezidentin qərarlarında ümidverici heç nə görmür: “Ənənəvi olaraq siyasi sabitliyin dayağı sayılan orta və yaşlı nəsil belə narazılığını açıq ifadə edir. Kiçik sahibkarların etimadını itirmək isə iqtisadi həyat üçün təhlükəli siqnaldır. Çünki bu təbəqə həm istehsal, həm də sosial dinamikanın aparıcı qüvvəsidir. Əgər yaxın vaxtlarda real dəyişikliklər baş verməsə, siyasi böhran daha da dərinləşəcək”.

***Səxavət HƏMİD***
***XQ***

# Ağrı dağı: Paşinyan üçün sinə dağı, Oskanyan üçün sancı

## *Yaxud Ermənistanda dövlət rəmzləri ilə bağlı məsələyə sözardı*

**Ermənistanın baş naziri Nikol Paşinyan 2023-cü ilin yayında ölkə parlamentində çıxış edərkən, dövlət gerbi məsələsinə toxunmuşdu. Baş nazir demişdi ki, gerbdə təsvir olunan simvollar müasir Ermənistan dövləti ilə əlaqəli deyil, oradakı bəzi elementlər sual yaradır. Paşinyanın sözlərinə görə, ermənilərin "Ararat" adlandırdıqları Ağrı dağının rəmzi əhəmiyyəti böyükdür. Amma bu rəmzin gerçək və praktiki aspektlərinə müasir Ermənistanın dövlət sərhədləri prizmasında yanaşılmalıdır.**



Ölkəsinin gerbinin "real Ermənistan" ilə "tarixi Ermənistan" anlayışı arasında dualizm yaratdığını vurğulayan Nikolun söylədiklərindən gələn başlıca qənaət bu olmuşdu ki, gerbin müasir Ermənistanın kimliyi ilə daha yaxından uyğunluğu üçün onun bəzi rəmzlərinin yenidən nəzərdən keçirilməsi vacibdir. Əlbəttə, baş nazir ehtiyatı əldən verməmiş, bu mövzuda konkret qərara gəlməzdən əvvəl məsələnin açıq müzakirəsinin, xalqın və parlamentin öz fikrini formalaşdırmasının zəruriliyini vurğulamışdı.

Qeyd edək ki, Ermənistanda sözügedən mövzu yenidən gündəmə gəlib və ölkədəki revanşist-şovinst kəsimin təmsilçiləri həmişəkitək Paşinyanı tənqid, hətta təhqir hədəfinə çeviriblər. Məsələ ilə bağlı ucuz populizmə güc verənlərdən biri də ölkənin sabiq xarici işlər naziri Vardan Oskanyandır. O, hökumətin Ermənistanın giriş-çıxış möhürlərindən Ağrı dağının təsvirini çıxarmaq, həmçinin bu təsvirin ümumən dövlət gerbindən götürülməsi ehtimalı ilə bağlı müzakirəyə reaksiya verib, daha doğrusu, hakimiyyətin belə bir qərar vermə ehtimalını pisləyən bəyanatla çıxış edib. Onun sözlərinə görə, ölkə iqtidarının düşüncəsi, sadəcə, rəmzin dəyişdirilməsi deyil, bütövlükdə erməni xalqının kimliyinə, yaddaşına və ləyaqətinə vurulan zərbədir. "Ağrı dağı sadəcə coğrafi obyekt deyil, erməni mədəniyyətində və dünyagörüşündə dərin kök salmış simvoldur", - deyən Oskanyan özünü nəinki ucuz populizmə kökləyir, avantürizmi də təbliğ edir.

Yada salaq ki, Paşinyan əvvəlki çıxışlarının birində Ağrı dağını nəzərdə tutaraq onu başqa dövlətin ərazisindəki dağ kimi göstərmiş və dolayısıyla dağın təsvirinin Ermənistanın dövlət gerbində mövcudluğunun yolverilməzliyini vurğulamışdı. Oskanyan isə fikirlərini eyni zamanda Nikolun vaxtilə söylədiklərinə cavab kontekstində səsləndirib. Əlbəttə ki, mənasız pafosa üstünlük verməklə: "Ağrı İrəvandan və Ermənistanın bir çox guşəsindən görünür. Onun qarla örtülü zirvələri baxışımıza, yaddaşımıza və təxəyyülümüzə hakimdir. Bizim üçün, ermənilər üçün Ağrı, sadəcə, Türkiyədə yerləşən dağ deyil. Bu, irsimizin ürəyidir. O, Ermənistanın gerbində təsvir olunub, kilsələrin daşlarında həkk olunub, divarlara çəkilib, İrəvandan diaspora qədər hər bir erməni evində mövcuddur".

Bəli, Oskanyan da haqlıdır. O anlamda ki, həqiqətən, Qarabağ kimi Ağrı dağının saxta nisgili də erməni avantürizminin hərəkətverici qayəsini təşkil edib. Bu yerdə Vardanın dünya ölkələri ilə müqayisə aparması mənasızdır. Çünki onun misal gətirdiyi İrlandiya, Yunanıstan, Hindistan və digər ölkələrin dövlət rəmzlərində həmin ölkələrin müasir sərhədlərindən kənarda yerləşən ərazilərin təsvirlərindən istifadə edilməsi avantürizm üçün əsas yaratmır. Amma məlumdur ki, hay millətçiləri Azərbaycanla yanaşı, Türkiyəyə qarşı da ərazi iddiası irəli sürürlər və Ağrı dağı məhz həmin iddianın rəmzidir. Əlbəttə, ölkəmizə qarşı təzavüz olmasaydı, heç kəsin ağlına gəlməzdi ki, Ermənistanın dövlət gerbi ilə bağlı fikir bildirilsin.

İndiki durumda belə təəssürat var ki, Paşinyan problemin, bir növ, kökündən həllinə çalışır. O, ölkəsinin dövlət rəmzlərinin də hansı böyük problemlər yaratdığını dərk edən erməni obrazındadır. Axı sadə məntiq var: Bir dövlət başqa dövlətlə normal münasibətlər qurmaq istəyirsə, bunu faydalı sayırsa, deməli, münasibət qurmağa, imkanlarından faydalanmağa çalışdığı ölkəyə hörmətlə yanaşmalıdır. İndi belə bir durum istisnadır və Paşinyanın aradan qaldırmağa səy göstərdiyi də budur. Oskanyan isə baş nazirin istəklərinin reallaşması üçün immunitet formalaşdırmaq yolu tutur. Bu yola Ermənistanı yenidən rupora çevirmək mərəzi hakimdir.

Aydındır ki, Ermənistanın özünün müstəqil şəkildə hansısa avantüra gerçəkləşdirmək imkanı yoxdur. Ümumən, hay cəmiyyətinin damarına yeridilmiş avantürizm kənar güclərin siyasi baxışlar sistemindən qaynaqlanır. Hansı güclərin, bu da hər kəsə yaxşı bəllidir və həmin güclər hazırda Ermənistanda hakimiyyəti devirməklə, ölkəni, bütövlükdə erməni varlığını region üçün quduz it qiyafəsində görmək planlarını gerçəkləşdirmək məqsədi güdürlər. Eynilə otuz ilə yaxın müddətdə güddükləri kimi.

Bəli, V.Oskanyan da obrazlı desək, quduz itlərdən olub. Daha doğrusu, onların düşərgəsində yer alıb. Görünür, onun kimilərinə heç bir peyvənd kar eləmir və Vardan bildirir ki, siyasi mühit daha müdrik olsaydı, Ermənistanın tapındığı rəmzlər maneə yox, körpü ola bilərdi. Sabiq nazirin fikrincə, Türkiyənin ermənilərin Ağrı dağı ilə xüsusi bağlılığını tanıması ziddiyyətləri dərinləşdirmək yox, barışığa doğru addım olardı.

Göründüyü kimi, Oskanyan nəinki həyasızılıq edir, eyni zamanda, riyakarlıqla məşğuldur. Məsələ ondadır ki, Vardanın da sıralarında təmsil olunduğu quldur iqtidar otuz ilə yaxın müddətdə nəinki Azərbaycanla, habelə Türkiyə ilə də normal münasibətlərə can atmayıb. Həmin iqtidar Rusiyanın buyruq qulu qiyafəsində davranmaqdan başqa heç bir iş görməyib. Bir anlıq təsəvvürə gətirək ki, Oskanyanı xarici işlər naziri təyin etmiş (eks prezident – red.) Serj Sarkisyan İrəvanın Ankara ilə münasibətlərinin normallaşmasına səy göstərir. O zaman sual olunur: Az qala, ayaqyoluna gedəndə də Rusiyadan icazə istəyən Serjik çoxmu müdrik idi?.. Yox bir, Türkiyə ermənilərin Ağrı dağına bağlılığını tanıyacaqmış. Görəsən, hansı əsasla? Ona görə ki, Oskanyan eramızın 301-ci ilində Ermənistanın xristianlığı qəbul etdiyini bildirib Ağrı dağını dinin rəmzi qismində göstərir?

Sonda onu da bildirək ki, V.Oskanyan kimi siyasi populistlərin düşüncələri Ermənistandakı revanşist və şovinist kəsimin başlıca ideya mənbəyidir. Baxın, keçmiş nazir onu da bildirib ki, "burada söhbət möhürlərdən, gerblərdən və ya sənədlərdən getmir. Söhbət ondan gedir ki, erməni xalqı öz kimliyini qoruya biləcəkmi, yoxsa başqalarının onu redaktə etməsinə imkan verəcək? Öz xalqını diplomatiya naminə dərin rəmzlərdən imtinaya məcbur edən hökumət lider deyil, kapitulyantdır. Ağrı dağı Türkiyədə yerləşir. Amma o, hər zaman erməni xalqının ruhuna məxsus olacaq. Heç bir fərman, heç bir silinmiş möhür, heç bir dəyişdirilmiş gerb bu həqiqəti dəyişməyəcək. Bu həqiqəti unudan hökumət qonşunu sakitləşdirmir, öz xalqını satır".

Bəli, vardanyanlar normal məntiqdən uzaqdırlar. Onlar qızışdırıcı mövqe tutaraq erməni cəmiyyətindəki xəstə stereotipləri diri saxlamağa cəhd göstərirlər. Onların anlamlarında qonşularla daimi müharibə və mübarizə kimi sərsəmlik var. Elə bir ideya ki, yekun nəticədə Ermənistanı bir dövlət olaraq yer üzündən silmək təhlükəsini daim aktual saxlayır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dehli bu gün kimin yanındadır?

## *Hindistanın Şimalda keçirilən "Qərb-2025" hərbi təlimində iştirakı müəmmalıdır*



**Bu irimiqyaslı hərbi manevrlərə Hindistan 65 nəfərlik heyətlə qatılıb. Heyətin tərkibində Hindistan ordusunun ən qədim və nüfuzlu hərbi birləşmələrindən olan "Kumaon" alayının əsgərlərinin də yer alması tədbirə verilən önəmi nümayiş etdirir. Rəsmi Dehli bu addımı Moskva ilə hərbi əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı etimadın möhkəmləndirilməsi məqsədilə atdığını bəyan edib.**

Hindistan hərbçilərinin Rusiya ilə birgə taktiki hazırlıq, silah tətbiqi üzrə xüsusi bacarıqların inkişafı və müxtəlif əməliyyat planlamaları üzərində təlimlərdə iştirakı ölkənin beynəlxalq münasibətlər sistemindəki mövqeyinə dair yeni suallar doğurur. Xüsusilə, bu hadisənin NATO ilə Rusiya arasında münasibətlərin gərgin olduğu bir dövrə təsadüf etməsi Qərb dairələrində ciddi narahatlıq yaradıb. Qərb mediasında bu addım "lüzumsuz və uğursuz siyasi jest" kimi təqdim olunur və Hindistanın çoxvektorlu xarici siyasətindən uzaqlaşması kimi dəyərləndirilir.

Siyasi müşahidəçilər hesab edirlər ki, Hindistanın bu addımı onun Moskva ilə strateji yaxınlaşmasının davamı kimi qəbul olunmalıdır. Xüsusilə baş nazir Narendra Modi hökumətinin Rusiya ilə hərbi-texniki və enerji sahələrində münasibətləri genişləndirməsi bu tendensiyanı daha da gücləndirir. Bu, eyni zamanda, ABŞ və Qərb ölkələri ilə münasibətlərə mənfi təsir göstərə bilər. ABŞ Dövlət Departamentinin keçmiş rəsmisi Devid Merkelin fikrincə, Hindistan hərbi təlimlərdə iştirak etməklə bağlı addımı Vaşinqtonla münasibətlərdəki qeyri-müəyyənliyi nəzərə alaraq atıb və Moskva ilə strateji tərəfdaşlığı prioritetə çevirib.



Almaniyalı ekspert Ulrix Şpek Hindistanın iştirakını "qırmızı xəttin keçilməsi" kimi qiymətləndirərək, qərarın geosiyasi balansı dəyişə biləcək qədər önəmli olduğunu deyib. Qərb tərəfindən səsləndirilən tənqidi fikirlərə baxmayaraq, təlimlərdə NATO üzvü olan ölkələrdən ABŞ, Türkiyə və Macarıstanın müşahidəçi qismində iştirakı diqqətdən yayınmayıb. "Reuters" agentliyinin qeyd etdiyi kimi, amerikalı müşahidəçilərin bu təlimlərdə iştirakı, Vaşinqton ilə Minsk arasında münasibətlərin müəyyən səviyyədə istiləşməsi kimi yozulur. Bu isə Qərbin Hindistana yönəltdiyi tənqidlərin selektiv xarakter daşıdığını göstərir.

"Qərb-2025" təlimləri yalnız Rusiya və Belarus ərazisində deyil, həm də Baltik və Barens dənizlərinin akvatoriyalarında keçirilməklə geniş coğrafiyanı əhatə edib. Təlimlər zamanı 23 ölkədən müşahidəçilər iştirak edir. Rusiya bu manevrlərin planlı xarakter daşıdığını və heç bir ölkəyə qarşı yönəlmədiyini bəyan etsə də, Polşa, Litva, Latviya və Estoniya kimi ölkələr öz hava məkanlarını bağlayaraq əlavə təhlükəsizlik tədbirləri həyata keçirməyə başlayıblar. Moskva isə bu reaksiyanı "emosional yüklənmə" kimi qiymətləndirib.

Məsələyə Hindistanın xarici siyasət kursu prizmasından baxdıqda, məlum olur ki, Dehli çoxqütblü dünya düzənində müstəqil mövqeyini qorumağa çalışır. Qərb ölkələri ilə iqtisadi və texnoloji sahələrdə sıx əməkdaşlıq edir, eyni zamanda, Rusiya ilə enerji və hərbi sahələrdə strateji tərəfdaşlığını davam etdirir. Lakin budəfəki hərbi təlimlərdə iştirak balans siyasətindən daha çox Rusiya ilə yaxınlaşmaya işarə kimi görünür. Bu isə Qərbə ünvanlanmış siyasi mesaj kimi dəyərləndirilir: Hindistan qlobal güclər arasında seçim etmək niyyətində deyil və öz strateji muxtariyyətini qoruyub saxlamaqda israrlıdır.

Hazırkı mərhələdə bu hadisə təkcə Hindistan–Rusiya münasibətləri deyil, həm də Hindistan–Qərb əlaqələrinin gələcək inkişaf trayektoriyası baxımından mühüm əhəmiyyət kəsb edir və sadəcə hərbi yox, həm də diplomatik sınaq nöqtəsinə çevrilib.

Rusiya–Hindistan münasibətləri kontekstində də bu proseslərin təsiri nəzərəçarpacaqdır. Çünki hər iki dövlətin Ermənistanda maraqları var və bu maraqlar üst-üstə düşür. Hər iki ölkə İrəvanı silahlandırır və regionda gərginlik yaratmağa çalışırlar. Bunun fonunda isə Bakı ilə münasibətlərdə müəyyən gərginliklər var. Hindistanla tarixən çoxşaxəli və bəzən ziddiyyətli xarakter daşıyan ikitərəfli münasibətlər son illərdə mürəkkəb mərhələyə qədəm qoyub. Azərbaycanın regionda mövqeyinin güclənməsi və Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda Hindistanın bu proseslərə yanaşması zaman-zaman emosional xarakter alır. Dehlinin Ermənistanla münasibətlərini intensivləşdirməsi, xüsusilə də hərbi-texniki əməkdaşlıq sahəsində atdığı addımlar Azərbaycanda ciddi narahatlıqla qarşılanır.

Eyni zamanda, 2020-ci ildən sonra Ermənistanın separatçı iddialarına dəstək göstərən bəyanatlar və təmaslar bu mövqenin daha da aydınlaşmasına səbəb olub. Azərbaycan ictimaiyyəti və siyasi dairələri Hindistanın bu davranışını balanssız və qeyri-konstruktiv yanaşma kimi qiymətləndirir. Hindistanın Cənubi Qafqazda artan Çin və Pakistan təsirinə qarşı Ermənistanı "regional tərəfdaş" kimi irəli çəkməsi də diqqətdən yayınmır. Bu yanaşma Azərbaycan–Hindistan münasibətlərini gərginləşdirən əlavə amilə çevrilib və hər iki ölkənin strateji maraqları arasında ziddiyyətlərin dərinləşdiyini göstərir.

Azərbaycan və Hindistan arasında münasibətlərin bu şəkildə mürəkkəbləşməsi, əsasən beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklərin və geosiyasi təzyiqlərin nəticəsidir. Belə bir şəraitdə tərəflər arasında rasional və qarşılıqlı maraqlara əsaslanan dialoqun inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əks halda, diplomatik münasibətlər soyuyacaq, qarşılıqlı etimad azalacaq.

Mövzu ilə bağlı XQ-yə açıqlamasında **politoloq Yeganə Hacıyeva** bildirdi



ki, Rusiya–Hindistan yaxınlaşması Ermənistan üçün əlavə diplomatik və hərbi resurslar anlamına gəlir, bu da Azərbaycan–Ermənistan münasibətlərində müəyyən gərginliklərə səbəb ola bilər: "Azərbaycanın bu geosiyasi reallıqlara cavabı balanslı xarici siyasət və regional tərəfdaşlarla daha sıx əməkdaşlıqdır. Ölkəmiz paralel şəkildə Qərb, Rusiya, Çin və İslam dünyası ilə çevik diplomatik əlaqələr saxlayaraq beynəlxalq mövqelərini qoruyur.

Ölkəmizin əsas məqsədi regionda sabitliyi və sülhü qorumaq, suverenliyini və ərazi bütövlüyünü möhkəmləndirmək, regional əməkdaşlıq imkanlarını genişləndirməkdir. Ermənistanın yeni resurslara çıxış əldə etməsi və sülh prosesinə qeyri-səmimi yanaşması regionda yeni gərginlik dalğasına səbəb ola bilər ki, bu da təkcə ikitərəfli münasibətləri deyil, bütövlükdə regional təhlükəsizliyi riskə atar. Bu da Ermənistanın sonunu gətirər. İrəvanda bunu yaxşı başa düşürlər.

Hindistanın Belarusda keçirilən hərbi təlimlərə qoşulmasına gəlincə, deməliyəm ki, bu, onun Moskva ilə münasibətlərə verdiyi önəmi göstərir. Hindistanın Polşaya pilotsuz uçuş aparatları ilə hücumdan sonra hərbi təlimlərdə iştirakı və ABŞ ilə münasibətlərinin soyuması, Vaşinqton– Delhi təhlükəsizlik əlaqələrinin gələcəyi ilə bağlı suallar doğurur. Bu da Hindistanın yerləşdiyi regionda ABŞ-ın ənənəvi müttəfiqi statusundan çıxaraq, Rusiya ilə yaxınlığa üstünlük verməsi deməkdir.

Hərbi təlimlərin ATƏT-in 2011-ci il Vyana Sənədinə zidd olaraq əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilməsi isə beynəlxalq hüquqi öhdəliklərin pozulması kimi qiymətləndirilir. Bu, geosiyasi gərginliyin təkcə regional deyil, qlobal miqyasda artmaqda olduğunu göstərir".

Beləliklə, "Qərb-2025" təlimlərində Hindistanın iştirakı yalnız bir ölkənin xarici siyasət istiqamətinin dəyişməsi deyil, həm də qlobal güc balansında yeni düzənlərin formalaşmasının göstəricisidir. Bu fəallıq, müəyyən hallarda, regional sabitlik və ikitərəfli münasibətlər baxımından ziddiyyətli nəticələr doğura bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Kənddə məhsul bolluğuna hərtərəfli təminat yaradılıb

## *8 ayda ümumi istehsal 9,4 milyard manata çatıb*

**Əhalinin, təqribən, yarısının bölgələrdə yaşadığı Azərbaycanda aqrar sahənin inkişafı, daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm önəm daşıyır. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı ölkə iqtisadiyyatının prioritet sahələrindən biri kimi xüsusi aktuallıq kəsb edir.**



Ölkə Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönəldilən stimullaşdırıcı tədbirlər müsbət nəticələr verir. Eyni zamanda, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması, aqrar subsidiya və aqrar sığorta mexanizmlərinin kənd təsərrüfatında tətbiqi təşəbbüskarlığa geniş meydan açır. Bütün bunlar isə ölkədə məhsul bolluğuna təminat yaratmaqla yanaşı, yerlərdə iqtisadi fəallığın artmasına səbəb olur.

Təkcə onu qeyd etmək kifayətdir ki, son 10 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı, təqribən, 2 dəfə artıb. Ötən dövrdə ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının davamlı olaraq artmasına imkan yaradıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika bu ilin yanvar-avqust aylarında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin 8 ayında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 9 milyard 424,2 milyon manat təşkil edib. Bunun da 4 milyard 776,1 milyon manatı bitkiçilik, 4 milyard 648,1 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Bu ilin yanvar-avqust aylarında kənd təsərrüfatının ümumi istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz artıb. Hesabat dövründə bitkiçilik məhsullarının istehsalında 2,5 faiz azalma baş versə də heyvandarlıq məhsulları üzrə 1,1 faiz artım qeydə alınıb.

Kənd təsərrüfatının mühüm sahələrindən sayılan bitkiçilik məhsullarının istehsalının azalması əsasən iqlim dəyişikliklərinin mənfi təzahürləri, mövsümün əvvəlində havanın qeyri-sabit keçməsi ilə əlaqədardır. Bunu 2025-ci ilin ilk 6 ayında təbiət hadisələri nəticəsində təsərrüfatları ziyan görmüş fermerlərə edilmiş sığorta ödənişləri də təsdiqləyir. Hesabat dövründə Aqrar Sığorta Fondu tərəfindən 41 rayon üzrə əkin sahələrinə dəymiş zərərə görə fermerlərə 4 milyon 245 min manat sığorta ödənilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə, təqribən, 55 faiz çoxdur. İlin birinci yarısında ən çox ödənişlər taxıl, qarğıdalı, pambıq sahələri ilə yanaşı, günəbaxan, tütün, armud, şaftalı, şəkər çuğunduru, fındıq, badam və qarpız əkinləri üzrə müşahidə edilib. Təsərrüfatlara ən çox zərər vuran hadisələr isə dolu, sel-subasma, fırtına və leysan olub.

Bütün bunlara baxmayaraq, ölkədə bitkiçilik məhsullarının istehsalının artırılması üçün geniş imkanlar mövcuddur. Bu səbəbdəndir ki, son illər istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bitkiçilik məhsullarının artımını şərtləndirən digər vacib məqam əkin sahələrinin müasir texnologiyalar əsasında suvarılmasının təşkili ilə bağlıdır.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bu yaxınlarda keçirilmiş Bakı Su Həftəsindəki çıxışı zamanı bildirib ki, hazırda Azərbaycanda mövcud 1,4 milyon hektar suvarılan sahənin yalnız 10-11 faizi müasir suvarma sistemləri ilə təmin olunub. Bununla belə, dövlətin bu sahəyə göstərdiyi güclü maliyyə dəstəyi sayəsində cari ilin ilk yarısında 2 min hektardan çox sahədə yeni suvarma sistemləri tətbiq olunub. Nazir, həmçinin bildirib ki, bu ildən etibarən yerli istehsal olan müasir suvarma avadanlıqlarının subsidiyalaşdırma səviyyəsi 60 faizə qaldırılacaq. Əkin sahələrinin genişləndirilməsi və müasir suvarma sistemlərinin tətbiqi isə məhsul bolluğuna təminat yaradan mühüm amildir.

Ötən müddətdə məhsulun optimal vaxtda və itkisiz yığılması üçün bütün imkanlardan maksimum istifadə edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin sentyabr ayının 1-dək qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 50 min ton dənli və dənli-paxlalılar toplanılıb. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 0,8 faiz çoxdur. Hesabat dövründə təsərrüfatlarda 1 milyon 420,6 min ton tərəvəz, 760,4 min ton kartof, 510,5 min ton meyvə və giləmeyvə, 450,8 min ton bostan məhsulları, 62,3 min ton üzüm, 43,9 min ton şəkər çuğunduru, 21,5 min ton günəbaxan, 5 min ton tütün, 876,2 ton yaşıl çay yarpağı və 23,2 ton pambıq yığılıb.

Ümumilikdə isə tərəvəz, kartof, bostan məhsulları, üzüm və yaşıl çay yarpağı istehsalında əvvəlki ilin eyni dövrü ilə müqayisədə azalma qeydə alınsa da dənli və dənli paxlalı bitkilər, meyvə və giləmeyvə, şəkər çuğunduru, tütün və pambıq yığımında artım baş verib. Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsullarının yığımı davam edir.

Aqrar istehsalın ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də ölkədə təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu baxımdan sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülən işlər mal-qaranın baş sayının artmasına və heyvanların məhsuldarlığının yüksəlməsinə səbəb olub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2025-ci ilin yanvar-avqust aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 383,9 min ton ət, 1 milyon 493,4 min ton süd, 1 milyard 605,7 milyon ədəd yumurta, 14,3 min ton yun və 186,6 ton barama istehsal olunub. Əvvəlki ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,2 faiz, yumurta istehsalı 2,1 faiz, süd istehsalı 0,3 faiz artıb, yun istehsalı 1,4 faiz, barama istehsalı isə 22,1 faiz azalıb.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bütövlükdə isə kənd təsərrüfatı məhsulları ixracının yüksək artım dinamikası cari ilin ötən dövründə də davam edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın sentyabr sayına əsasən 2025-ci ilin yanvar-avqust ayları ərzində ölkə üzrə aqrar məhsulların ixracı 28,2 faiz artaraq 614,4 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 4,7 faiz artaraq 209,5 milyon dollara bərabər olub.

Ümumilikdə, bu ilin 8 ayında aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 21,3 faiz artaraq 823,9 milyon dollar təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***



# Neft şirkəti İsveçrə nəqliyyatçıları ilə strateji əməkdaşlıq yaradır

**Azərbaycan Dövlət Neft Şirkəti ilə İsveçrənin dünyaca məşhur daşıma şirkəti olan MSC (Mediterranean Shipping Company) arasında strateji əməkdaşlığa dair saziş imzalanıb.**

Bakıda keçirilən imzalanma mərasimində tərəflər Egey bölgəsinin ən böyük konteyner limanı olan "SOCAR Terminalı"nda birgə investisiyalar vasitəsilə Türkiyənin qlobal təchizat zəncirində mövqeyini gücləndirməyi hədəf seçiblər. Razılaşmaya əsasən MSC-nin törəmə şirkəti və qlobal terminal operatoru "Terminal Investment Limited" (TIL) "SOCAR Terminalı"nda səhmdar olacaq.

Əməkdaşlıq "SOCAR Terminalı"nın TIL-in geniş qlobal şəbəkəsinə inteqrasiyasını təmin edəcək. Yeni avadanlıq və texnoloji sərmayələr nəticəsində terminal mövcud gücünü artıracaq, əməliyyat səmərəliliyini yüksəldəcək, rəqəmsallaşma, dayanıqlılıq və infrastruktur inkişafı sahəsində mühüm nailiyyətlər əldə edəcək.

Qeyd edək ki, Egey bölgəsinin ən böyük konteyner terminalı olan "SOCAR Terminal" 700 metrlik fasiləsiz körpü, 16 metrlik dərinlik, 420 min kvadratmetr liman ərazisi və 30 min kvadratmetr yardımçı sahəsi ilə həm regional, həm də qlobal ticarət üçün strateji əhəmiyyət daşıyır. ULCS sinifli yeni nəsil iri gəmiləri qəbul etmək imkanına malik olan terminal eyni anda bir neçə əsas gəmini sürətli şəkildə idarə edərək gözləmə müddətlərini minimuma endirir.

"Gələcəyin limanı" konsepsiyası ilə fəaliyyət göstərən "SOCAR Terminal" ən yüksək əmək mühafizəsi və təhlükəsizlik standartlarını tətbiq edir, rəqəmsallaşma və texnologiyaya qoyulan sərmayələrlə sənayedə qabaqcıl mövqeyini qoruyur. Bununla yanaşı, karbon izinin azaldılması, bərpaolunan enerji mənbələrinə sərmayə yatırılması və enerji səmərəliliyinin artırılması ilə dayanıqlı biznes modeli qurur.

***XQ***

# Qazaxıstanla vergi əməkdaşlığı dərinləşir



**Qazaxıstanın paytaxtı Astanada iki ölkə arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınmasına dair konvensiya layihəsi müzakirə olunub.**

Azərbaycan tərəfini Dövlət Vergi Xidmətinin nümayəndələri və Maliyyə Nazirliyinin səlahiyyətli şəxsi, Qazaxıstanı isə Maliyyə Nazirliyinin ekspertləri təmsil ediblər. Görüşdə sənədin vergitutma ilə bağlı əksər bəndləri üzrə razılıq əldə olunub. Tərəflər açıq qalan məsələlərin qısa zamanda razılaşdırılması üçün işlərin intensivləşdirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Səfər çərçivəsində iki ölkə arasında "Transfer qiymətləri" mövzusunda fikir mübadiləsi də aparılıb. Müzakirələrdə hər iki ölkənin təcrübəsi nəzərdən keçirilib və gələcək əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə olunub.

***XQ***

# Horadiz – Ağbənd yolu Zəngəzur dəhlizinə yaxınlaşır




**Azərbaycan və Türkiyə prezidentlərinin təməlini qoyduğu Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) həm Azərbaycan, həm də region üçün strateji layihələrdən biri hesab olunur. Bu yol müasir nəqliyyat infrastrukturunun bir parçası olmaqla yanaşı, siyasi, iqtisadi və geosiyasi əhəmiyyət də daşıyır. Layihə reallaşdıqdan sonra regionda yeni iqtisadi əlaqələrin qurulmasına, logistika imkanlarının genişlənməsinə, ticarət yollarının şaxələnməsinə və beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verəcək.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin açıqladığı məlumata əsasən uzunluğu 123,6 kilometr olan əsas yolda tikinti işlərinin artıq 95 faizi yekunlaşıb. Bu, yolun yaxın gələcəkdə istifadəyə verilməsinə real zəmin yaradır. Ümumilikdə, layihə çərçivəsində 149,9 kilometr uzunluğunda yolun çəkilməsi nəzərdə tutulur ki, bunun 123,6 kilometri əsas magistraldır. Yolun eni 14-21 metr, torpaq yatağının eni isə 21,5-29,5 metr təşkil edir. 4-6 hərəkət zolağından ibarət yol gələcəkdə minlərlə avtomobilin fasiləsiz hərəkətini təmin etməklə regionun tranzit potensialını daha da gücləndirəcək.

Layihənin miqyası təkcə yolun uzunluğu ilə ölçülmür. Onun çərçivəsində iri infrastruktur elementləri də inşa olunur. Belə ki, ümumi uzunluğu 20 min 249 metr olan 260 dairəvi və 55 düzbucaqlı borunun çəkilməsi, 3 781 metr uzunluğunda 55 alt keçidin, 2 090 metr uzunluğunda 28 körpünün, 26 336 metr uzunluğunda 8 yol qovşağının, 12 032 metr uzunluğunda 3 tunelin və 1 500 metr istinad divarının tikintisi nəzərdə tutulub. Bu göstəricilər təkcə bir avtomobil yolunun deyil, bütöv bir nəqliyyat şəbəkəsinin formalaşdırıldığını nümayiş etdirir.

İnşaat işləri yüksəkkeyfiyyətli materiallar və qabaqcıl texnologiyalar əsasında həyata keçirilir. Torpaq yatağının hazırlanması, layların sərilməsi və yol geyiminin döşənməsi üzrə işlərin böyük hissəsi artıq tamamlanıb. Layihə çərçivəsində 61 milyon 386 min 373 kubmetr torpaq işləri görülüb, 950 min kubmetr asfaltın döşənməsi nəzərdə tutulub. Bu işlər yolun möhkəmliyini, uzunömürlülüyünü və keyfiyyətini təmin edən əsas amillərdəndir.

Tunellərin tikintisində də mühüm irəliləyişlər var. Artıq ümumi uzunluğu 13 032,8 metr olan tunellərdə qazma və püskürtmə beton işləri yekunlaşıb. Körpülərin də böyük hissəsi hazırdır: 28 körpüdən 22-si istifadəyə verilmək üzrədir. Onların 16-sı su ötürücü, 12-si isə yol ötürücü funksiyasını daşıyır. Bundan əlavə, 55 alt keçidin, 258 dairəvi və 47 düzbucaqlı borunun tikintisi artıq başa çatdırılıb.

Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolu Hacıqabul–Horadiz–Ağbənd–Zəngəzur dəhlizi magistralının bir hissəsi kimi Azərbaycanın digər bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək. Bu, həm ölkə daxilində iqtisadi əlaqələrin möhkəmlənməsi, həm də Azərbaycanın beynəlxalq tranzit qovşağına çevrilməsi baxımından böyük strateji əhəmiyyət daşıyır.

Layihənin reallaşması ilə Azərbaycan region ölkələri üçün yeni iqtisadi imkanlar yaradır. Zəngəzur dəhlizinin işə düşməsi Orta Dəhliz layihəsinin səmərəliliyini daha da artıracaq. Çin–Avropa yükdaşımalarının sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi mümkün olacaq, Azərbaycanın geosiyasi çəkisi isə yüksələcək.

Bu yolun istifadəyə verilməsi regionda iqtisadi inteqrasiyanı sürətləndirəcək, ticarət dövriyyəsini artıracaq və yeni əməkdaşlıq formatlarının yaranmasına təkan verəcək. Azərbaycanın güclənən tranzit imkanları həm ölkəyə əlavə maliyyə gəlirləri gətirəcək, həm də regionun sabitliyi və təhlükəsizliyi üçün mühüm baza yaradacaq.

Beləliklə, Horadiz–Ağbənd avtomobil yolunun tam istifadəyə verilməsi ilə Azərbaycan nəqliyyat xəritəsində yeni bir mərhələyə qədəm qoyacaq. Bu yol regionun gələcək iqtisadi inkişafını, beynəlxalq əməkdaşlığını və siyasi sabitliyini təmin edən strateji damardır.

***Nurlan ABDALOV***
***XQ***

# Sahibkarlarla maarifləndirici görüş



**"Mənşə sertifikatı"nın üstünlükləri Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi "Mənşə sertifikatı" alt modulundan istifadəyə dair ixracatçılarla maarifləndirici görüşləri davam etdirir. Həmin görüşlərdə keyfiyyət informasiya sisteminin "Mənşə sertifikatı" alt modulundan istifadənin ixracatçılar üçün yaratdığı üstünlüklərdən bəhs olunur.**

Bu silsilədən növbəti görüş Sumqayıt və Xırdalan şəhərləri, eləcə də Xızı və Siyəzən rayonlarından olan sahibkarlar üçün təşkil olunub. İxrac fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin 30-a yaxın nümayəndəsinin qatıldığı tədbirdə keyfiyyət informasiya sistemində "Mənşə sertifikatı" alt modulunun funksional xüsusiyyətləri və sistemdən istifadə qaydalarına dair məlumat verilib, bu məqsədlə hazırlanmış videotəlimat nümayiş etdirilib.

***XQ***

# "Mahmud Rəhimov" gəmisi Xəzərə qayıdıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) "Mahmud Rəhimov" universal quru yük gəmisinin təmiri başa çatdırılıb.**

ASCO-dan verilən məlumata görə, təmir prosesi çərçivəsində gəminin baş mühərrikləri yenisi ilə əvəz olunub, köməkçi mühərriklər işlək vəziyyətə gətirilib. Bununla yanaşı, gəminin mexanizmləri, hava kompressorları sazlanıb. Eyni zamanda gəmidə boru quraşdırma, elektrik quraşdırma, avtomatika və gövdə qaynaq işləri görülüb. Gəminin sualtı və suüstü hissələri tam təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları, anbar qapaqları təmir edilib.

Təmir zamanı rabitə və elektroradionaviqasiya sahəsinə aid də lazımi işlər görülüb. Belə ki, gəmidə müasir, yeni elektron xəritə quraşdırılaraq 2 ədəd VHF tipli daşınan əl radiostansiyası ilə təchiz edilib. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan işlər başa çatdıqdan sonra gəmi müvafiq yoxlanışdan uğurla keçib və Aktau limanına doğru ilk səfərə yola salınıb.

Qeyd edək ki, "Mahmud Rəhimov" gəmisinin uzunluğu 117,5, eni 16,5 metr, yükgötürmə qabiliyyəti isə 4 min 100 tondur.

***XQ***



# Sənədsiz evlərə necə "bəraət" veriləcək?

## *500 min belə tikilinin leqallaşdırılması günün tələbidir*

**Azərbaycan iqtisadiyyatının dinamik inkişafı fonunda daşınmaz əmlakın qeydiyyatı, torpaq münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüququnun qorunması məsələləri hər zaman diqqət mərkəzində saxlanılıb. Çünki mülkiyyət hüququ hüquqi aktlarla nizamlanmaqla bərabər, həm də sosial sabitlik və əhalinin rifahı ilə bilavasitə bağlı olduğundan boşluqlara da yol verilib. Son illərdə isə dövlət tərəfindən aparılan islahatlar torpaq və daşınmaz əmlak bazarında şəffaflığın artırılması, sənədsiz evlərin leqallaşdırılması, habelə mühafizə zolaqlarında yerləşən obyektlərin hüquqi statusunun müəyyənləşdirilməsinə yönəlib.**



Bu sahədə görülən bütün işlərin fonunda sənədsiz evlərin leqallaşdırılması ilə əlaqədar problemlər daha çox nəzərə çarpır. Bu, Dövlət Statistika Komitəsinin belə bir məlumatından da aydın görünür: hazırda ölkədə ümumilikdə 3,6 milyon fərdi yaşayış evi və mənzil mövcuddur. Onlardan, təxminən, 500 mininin sənədsiz olması, yəni mülkiyyət hüququnun rəsmiləşdirilməməsi hüquqi, sosial-iqtisadi baxımdan ciddi problem yaradır.

Bununla yanaşı, mühafizə zolaqlarında yerləşən əmlakların qeydiyyatı ilə bağlı mövcud məhdudiyyətlər də əhalinin geniş təbəqəsinə təsir göstərir. Rəsmi məlumata görə, təkcə Bakı və Abşeron ərazisində 20 mindən çox fərdi ev magistral kəmərlərin və yüksək gərginlikli elektrik xətlərinin mühafizə zolaqlarında yerləşdiyinə görə qeydiyyata alınmır. Energetika Nazirliyinin qiymətləndirməsinə görə,



ölkədəki elektrik xətlərinin 30 faizi yaşayış məntəqələrindən keçir. Bu isə minlərlə evin mühafizə zolağında qalmasına gətirib çıxarır.

Hazırda respublikamızda beynəlxalq təcrübə və müasir texnoloji həllər nəzərə alınmaqla mühafizə zolağında yerləşən daşınmaz əmlakların qeydiyyatından imtina hallarının azaldılması üçün qanunvericiliyə uyğun tənzimləmə aparılması hədəflənir. Bu məqsədlə magistral boru kəmərlərinin, yüksəkgərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin, suların və digər mühafizə zonalarının hüdudlarının dəyişdirilməsi ilə bağlı təkliflərin hazırlanacağı bildirilir. Eyni zamanda, torpaq icarəsi ilə bağlı mübahisələrin məhkəmədənkənar həlli üçün arbitraj mexanizminin tətbiqini stimullaşdırmaq məqsədilə müvafiq təhlillərin aparılacağı və zərurət olduqda nəticələr əsasında təkliflər veriləcəyi də vurğulanır.

Azərbaycanda "qanunsuz yaşayış evləri" adlandırılan və inşasından çoxsaylı orqanların xəbəri olan belə tikililərin su, qaz, elektrik enerjisi ilə təmin olunması isə əslində, həmin binaların mülkiyyət hüququnun qismən tanınması anlamına gəlir. Belə olduğu təqdirdə, təxminən, 500 min sənədsiz evə mülkiyyət hüququnun (çıxarış, yəni "kupça") verilməməsi nə ilə bağlıdır? Sualın cavabı isə aydındır: bu yaşayış eləri mühafizə zonalarında yerləşdiyi üçün sənədləşdirilməsi qanunvericiliyin tələblərinə ziddir. Amma təkrar edirik, doğrudan da əgər dövlət belə qanunsuz tikilən evlərə su, qaz, elektrik xəttini çəkir və kommunal xidmət göstərirsə, bu, həmin əmlakın vurğuladığımız kimi, dolayısı ilə tanınması deməkdir. Belə olan halda mülkiyyət hüququnun rəsmiləşdirilməməsi hüquqi boşluq yaradır.

Qeyd edək ki, ekspertlərin fikrincə, bu məsələdə hazırda iki əsas problem narahatlıq doğurur. Birincisi, mühafizə zolaqlarında yerləşən daşınmaz əmlakların qeydiyyatından imtina halları və bununla bağlı tənzimləyici mexanizmlərin müasirləşdirilməsidir. İkincisi, sənədsiz evlərin mülkiyyət hüququnun rəsmiləşdirilməsi ilə bağlı qeyri-müəyyən bir vəziyyətin illərlə davam etməsidir. Bu çətinliyin aradan qaldırılması isə həm sosial sabitlik, həm də iqtisadi fəallıq baxımından strateji önəm daşıyır.

### Mühafizə zolaqları "ölüm zonası"dır

Dünyanın bir çox ölkəsində, xüsusən də Avropa İttifaqı (Aİ), Türkiyə və post-sovet məkanında mühafizə zolaqları ilə bağlı hüquqi rejimlər yaradılır. Məsələn, qardaş ölkədə magistral boru kəmərləri və yüksəkgərginlikli elektrik xətləri ətrafında mühafizə zolaqları qanunla dəqiq müəyyən edilir, lakin bu zaman vətəndaşların mülkiyyət hüququ da tamamilə məhdudlaşdırılmır. Kompensasiya mexanizmləri tətbiq olunur. Aİ-də əsas prinsip balansın qorunmasıdır, yəni dövlət təhlükəsizliyi ilə mülkiyyət hüququ arasında optimal həll axtarılır. Belə ki, əgər mülkiyyətə müdaxilə labüddürsə, bu, ancaq kompensasiya və alternativ təminatla həyata keçirilir.

Almaniyada infrastruktur obyektlərinin təhlükəsizliyinə üstünlük verilir, bununla bərabər, vətəndaşın mülkiyyət hüququ da zəruri kompensasiya ilə təmin edilir. Qazaxıstanda reallaşdırılan müvafiq islahatlarla mühafizə zonaları sərhədlərinin dəqiqləşdirilməsi və evlərin qeydiyyat imkanının artırılması diqqətdə saxlanılır. Azərbaycanda isə uzun illər ərzində bu məsələ daha sərt şəkildə tətbiq olunub. Yüksəkgərginlikli xətlərin, boru kəmərlərinin və nəqliyyat obyektlərinin mühafizə zolaqlarında yerləşən evlərin qeydiyyatına imtina halları çoxalıb. Bu isə bir tərəfdən dövlətin təhlükəsizlik maraqlarını qorusa da digər tərəfdən, minlərlə ailənin mülkiyyət hüququ qeyri-müəyyən vəziyyətdə saxlanılıb.

Hazırda məqsəd qanunvericiliyə uyğun tənzimləmələrin aparılmasıdır. Yəni yalnız məhdudlaşdırıcı mexanizmlərlə kifayətlənmək yox, həm də mühafizə zonaları sərhədlərinin daha dəqiq müəyyənləşdirilməsidir. Ehtiyac olduqda bu sərhədlərin dəyişdirilməsi də gerçəkləşdirilməlidir.

Ekspertlər bildirirlər ki, hazırda mülkiyyətçilərə kompensasiya və ya alternativ torpaq təqdim edilməsi, sənədləşmə prosesində şəffaflıq və çevikliyin artırılması nəzərdə tutulur. Belə tənzimləmə həm beynəlxalq təcrübəyə uyğun gəlir, həm də sosial gərginliyin azaldılmasını şərtləndirir.

Bu gün torpaq icarəsi və arbitraj mexanizminin yaradılması da yeni hüquqi yanaşma kimi diqqətdə saxlanılır. Torpaq münasibətlərində ən çox rast gəlinən problemlərdən biri də icarə mübahisələridir. Belə mübahisələr çox zaman məhkəmələrdə illərlə uzanır, nəticədə hər iki tərəf həm vaxt, həm də maliyyə itkisi ilə üzləşir. Bunun qarşısını almaq üçün məhkəmədənkənar arbitraj mexanizminin tətbiqi gündəmə gətirilir.

Bu yanaşmada isə daha operativ həll yollarının tapılması, dövlət büdcəsinə əlavə yüklənmənin qarşısının alınması, sahibkarlar üçün mübahisələrin əlverişli qaydada tənzimlənməsi və beynəlxalq investisiya mühitində etimadın güclənməsinə önəm verilməsi ilə yaranmış narahatlığın aradan qaldırılmasına müsbət təsir göstərəcəyi bildirilir. Sözügedən problemin həllinin bu mexanizmin səmərəli işləməsindən, torpaq bazarında həm hüquqi, həm də iqtisadi mühitin şəffaflığından asılı olacağı vurğulanır.

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə torpaq icarəsi ilə bağlı 11 min mübahisə məhkəmələrdə baxılıb. Bu, əvvəlki illə müqayisədə 8 faiz artım deməkdir. Mütəxəssislər hesab edirlər ki, arbitraj mexanizminin tətbiqi bu yükü xeyli azalda bilər. Dünya Bankının "Doing Business" hesabatına görə, arbitraj üsulundan istifadə edən ölkələrdə mübahisələrin həll müddəti orta hesabla 3-6 ay, məhkəmələrdə isə 1,5-2 il çəkir. Bu fakt nəzərə alınmaqla əgər torpaq və daşınmaz əmlakla bağlı mübahisələrin həlli üçün arbitraj mərkəzləri yaradılsa, sahibkarların hüquqları daha çevik qorunar, həm də məhkəmə sisteminin üzərindəki yük azalır.

İndiki məqamda problemin səbəblərini də diqqətə çatdırmaq zəruridir. Bu, ilk növbədə, şəhərsalma normalarına əməl edilməməsi, uyğunluq olmaması ilə bağlıdır. Çünki bəzi evlər inşaat qaydalarının pozulması ilə tikilib. Bir çox sənədsiz ev isə ya mühafizə zolaqlarında, ya da kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa olunub.

Şübhəsiz ki, özbaşına tikililərin belə geniş miqyas alması həm də qanunvericilikdə boşluqlarla əlaqədardır. Belə ki, mövcud qanunlar real vəziyyəti tam əhatə etmir. Uzun illər ərzində torpaq bölgüsü və ev tikintisi sahəsindəki qeyri-şəffaflıq da bu vəziyyəti daha da ağırlaşdırıb. Bu, ilk növbədə, özünü sosial nəticələrdə büruzə verib. Belə ki, sənədsiz evlərin leqallaşdırılmaması minlərlə ailənin sosial təminatına mənfi təsir göstərib. Vətəndaşın evini girov qoyub kredit götürə bilməməsi, əmlakın satılması, miras qoyulması və ya bölüşdürülməsi zamanı hüquqi çətinliklərlə üzləşməsi hər zaman ciddi narahatlıq doğurub. Sənədsiz evlərin leqallaşdırılmaması, eyni zamanda, vergi bazasının tam formalaşmamasında maliyyə itkisi yaradıb.

### Problemdən 3 çıxış yolu

Ekspertlər problemin həlli üçün bir neçə istiqamət təklif edir. Birincisi, mühafizə zonalarının dəqiqləşdirilməsi prioritet istiqamət kimi önə çıxarılmalı, ikincisi, beynəlxalq standartlara uyğun yeni xəritələşdirmə layihəsi icra olunmalı, üçüncüsü, qanuni risk daşımayan evlər qeydiyyata alınmalı və sənədsiz evlərin mərhələli leqallaşdırılması həyata keçirilməlidir. Bütün bunlarla yanaşı, normativlərə uyğun tikilmiş evlərə dərhal çıxarış verilməli, uyğunsuzluq olan hallarda isə sahibinə evini qaydaya salmaq üçün vaxt və imkan yaradılmalıdır.

Eyni zamanda, kompensasiya mexanizmlərinin tətbiqi diqqətdə saxlanılmalıdır. Mühafizə zonasında yerləşən, qeydiyyata alınması mümkünsüz evlərin sahiblərinə alternativ torpaq və ya mənzil də təklif olunmalıdır. Bu məsələdə arbitraj mexanizminin genişləndirilməsi mühüm məsələlərdən biridir. Buna görə də torpaq və daşınmaz əmlakla bağlı mübahisələrin sürətli və ədalətli həlli üçün müstəqil arbitraj mərkəzləri yaradılması qarşıda önəmli vəzifə kimi durur.

Sonda qeyd edək ki, ölkəmizin sosial-iqtisadi inkişaf mərhələsində daşınmaz əmlakla bağlı problemlərin həlli dövlət siyasətinin prioritetlərindən biridir. Mühafizə zolaqlarında yerləşən obyektlərin qeydiyyatı ilə bağlı yeni qanunvericilik yanaşmaları, torpaq icarəsində arbitraj mexanizmlərinin tətbiqi və sənədsiz evlərin leqallaşdırılması vətəndaşların mülkiyyət hüquqlarının qorunmasına, dövlətin iqtisadi potensialının genişlənməsinə xidmət edir. Ən əsası isə bu addımlar vətəndaş – dövlət münasibətlərində inamın güclənməsinə, sosial ədalətin bərpasına və daşınmaz əmlak bazarında davamlı inkişafın gerçəkləşdirilməsinə əsaslı zəmin yaradır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Azərbaycanın turizm marşrutları*

# "Lənkəran istisuyu"nun qapısı dünyaya açıqdır

## *Burada beynəlxalq sağlamlıq turizmi mərkəzi yaradılıb*

**Ulu yaradan Lənkəranı dənizi, meşəsi, dağı, nadir subtropik iqlimi, çeşidli nemətləri, xoşqılıq insanları ilə sanki, binadan turizm məkanı kimi yaradıb. Elə buna görə də tarixən sıx məskunlaşıb, qonaq-qarası ilə məşhur olub. Azərbaycandan ötüb keçənlər bu torpağa da mütləq baş çəkib, onun gözəlliklərinə heyran qalıb. Elə buna görə də onu nəvazişli "Cənub mirvarisi" adlandırmışıq.**

Rayonun ərazisində ilboyu mövcud olan yaşıllıqlar, müxtəlif xüsusiyyətli qoruqlar, tarixi, mədəni, dini və təbiət abidələri, Azərbaycanın ən mühüm kurort-rekreasiya resurslarının inkişafı bu rayonu Azərbaycanın ən böyük turizm rayonuna çevrilməsinə zəmin yaratmışdır.



Bölgədəki termal və mineral sular Azərbaycanın digər yerlərinə nisbətən daha çoxdur. Bu qaynaqları geoloqlar, hidrogeoloqlar, tibb mütəxəssisləri, kimyaçılar ətraflı tədqiq etmişlər. Çar Rusiyası dövründə bu ərazidə xidmət edən rus hərbçiləri də bu suların istirahət və müalicə əhəmiyyətini öyrənmişlər. Diyarın İran və digər yaxın Şərq ölkələrinə yaxınlığı, həm də çoxsaylı termal və mineral sular zaman keçdikcə bu yerlərə diqqəti artırmışdır.

Lənkəranda turizmin inkişaf etdirilməsi üçün hər cür imkanlar vardır. Lənkəran üçün bu imkanlardan ən mühümü ərazisində kifayət miqdarda termal və mineral suların olmasıdır. 36 termal və mineral bulaqlara 11 çıxışı olan İbadi su, 13 çıxışı olan Meşə su, 3 çıxışı olan Qavzau, 2 çıxışı olan Haftoni və s. termal suları bu sıraya daxildir.

Hələ qədimdən insanlar bu yerlərə gələrək müxtəlif xəstəlikləri mineral sularla müalicə etmişlər. 1958-ci ildən burada yerli əhali üçün sanatoriya tipli müalicə müəssisəsi, 1974-cü ildən isə SSRİ əhəmiyyətli Lənkəran Müalicə Pansionatı fəaliyyət göstərməyə başlamışdır. Azərbaycanın müstəqillik əldə etdikdən sonra bölgənin iqtisadiyyatının turizm istiqamətində inkişafı ilə bağlı təkliflər ön plana çıxmışdır.

Sovet hakimiyyəti illərində Lənkəran rayonu da daxil olmaqla Azərbaycanın termal və mineral suları elmi cəhətdən ətraflı öyrənilmiş, akademik M.Qaşqay və professor Ə.Əsgərov bu mövzuya monoqrafiyalar həsr etmişlər. Bakı Dövlət Universitetinin mərhum professoru Neron Babaxanovla birgə yazdığımız məqalədə biz də Lənkəranın turizm potensialında termal suların önəmindən bəhs etmişik. Avqust ayında bir həftə istirahət etdiyim Lənkəran rayonunun Haftoni qəsəbəsində yerləşən, hazırda turistlərə yüksək səviyyədə xidmət edən "Lankaran Springs Wellness Resorts" istirahət kompleksində olarkən arzu-istəklərimizin həyata keçməsindən böyük məmnunluq duydum.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 2018-ci il oktyabrın 15-də Lənkəran şəhərinə səfərləri zamanı "Lankaran Springs Wellness Resorts" Sağlamlıq İstirahət Mərkəzində görülən işlərlə maraqla tanış olmuş, dəyərli tövsiyələrini bildirmişlər. İnşasına 2016-cı ilin noyabr ayında başlanmış kompleks 2019-cu ilin iyun ayında istifadəyə verilmişdir. Bununla əhalinin illər uzunu "Lənkəran istisuyu" kimi tanıdığı məkan beynəlxalq sağlamlıq turizmi səviyyəsində fəaliyyətini davam etdirməyə başlamışdır.

Yeni istirahət mərkəzində dünya standartlarına tam cavab verən 12 hektara yaxın ərazidə 182 otaqlı 9 mərtəbəli mehmanxana, 2 mərtəbəli tibb mərkəzi, isti su hamamları, uşaq mərkəzi, qapalı və açıq avtodayanacaqları yaradılmışdır. Restoran, lobbi bar, roof bar, vitamin bar, boulinq bar, ictimai kafe, digər obyektlər, landşaft ərazi də daxil olmaqla bir sıra obyektlər fəaliyyət göstərir. Burada 300 nəfərdən çox insan daimi işlə təmin olunmuşdur.

Tibb mərkəzində əksər xəstəlikləri müalicə etmək üçün ixtisaslı 9 həkim, 30-dan artıq tibbi personal çalışır. Onlar bura tək müalicəyə deyil, eləcə də istirahət üçün gələnlərə yüksək səviyyədə tibbi xidmət göstərirlər. Bura Belarus, Özbəkistan, Qazaxıstan və digər ölkələrdən də müalicə və istirahət üçün çoxlu turistlər gəlir, şəfa tapırlar. Mərkəzdə bütün gün ərzində ilkin tibbi yardım göstərə biləcək həkim və tibbi işçilər növbəsi var. Turizm obyekti pasiyent sayından və mövsümdən asılı olaraq bəzən bazar günləri də fəaliyyət göstərir.

Tibbi Mərkəzə daxil olduqda ilk 1-2 gün ərzində müalicə paketlərinə daxil olan çekap müayinələrindən keçirilir. Sonra baş həkim Agəli Əliyev xəstələrlə söhbət aparır və onları müvafiq həkimlərə yönəldir. İlkin həkim baxışından sonra müalicə paketinin ilk gündən müalicəyə başlanılır. Həkim terapevt-nevroloq Cəmil Məmmədovun pasiyentlərə diqqətlə yanaşması, onları dinləyib, hətta prosedur otaqlarını belə göstərməsi hər kəsi razı salır. Cəmil həkim Rusiyanın Voronej şəhərində Burdenko adına Voronej Dövlət Tibb Universitetini bitirmiş, altı il orada işləmiş, sonra təcrübəli həkim kimi doğma vətəninə qayıdaraq xalqına xidmət edir.

Həkim radioloq, Azərbaycan Tibb Universitetini bildirmiş Vüsal Əzizov vaxtın qısa, müalicə olunanların çoxluğunu nəzərə alıb, hətta bazar günü də pasiyentləri USM-dən keçirir. Bütün bu işlərin yoluna qoyulub sənədləşdirilməsində, əlavə izah verilməsində, prosedur otaqlarına göndərilməsində qeydiyyatçı Fidan Məhərrəmova hamıya mehribanlıq, lazımi qayğı göstərir.

Baş tibb bacıları Arzu Xəlilova, Xədicə Piriyeva, mineral su vannalarında xidmət göstərən Vüsalə Hüseynova, inqalyasiya, parafinoterapiya müalicə edən Ramilə Muradova və başqaları işlərini sevə-sevə, həvəslə icra edir, müalicə olunanlara xoş əhval gətirməyə çalışırlar.

"İstisu" tibb mərkəzi müasir tələblərə cavab verən müalicə sağlamlıq kompleksidir. Burada müraciət edənlərə yüksəkixtisaslı həkimlər tərəfindən xəstəliklərinə uyğun olaraq müayinə və müalicə kursları təyin edilir. Sanatoriyanın əsas təbii müalicə vasitəsi termal mineral su vannalarıdır. Hazırda otel ərazisində 12 su mənbəyi yerləşir. ACACIA SPA Mərkəzi istirahət və sağlamlıq axtaranlar üçün ideal məkandır. Burada həm bədəninizi, həm də ruhunuzu yeniləyəcək müxtəlif xidmətlər təqdim olunur.

Mərkəzin imkanlarına qapalı və açıq hovuzlar, müalicəvi termal istisu hovuzları, quru və buxar saunaları, türk hamamları, rahat istirahət otaqları və müasir avadanlıqla təchiz olunmuş idman zalı da daxildir. Bundan əlavə, xarici terapistlərin təqdimatında müxtəlif masaj növləri insana dərin rahatlıq və bədəndə balans hissi bəxş edir. ACACIA SPA Mərkəzinin Spa &Fitness üzrə baş komanda rəhbəri Elnur Həmidli bütün otaqları göstərərək insanların sağlamlığına xidmət edən müalicələri həvəslə izah edirdi.

Dünyada turizmin inkişaf etdiyi ölkələrdə gəlirlərin 30-40 faizi əsasən ekskursiyalar hesabına əldə edilir. Azərbaycanda isə turist səfərlərinin nə qədər gəlir gətirdiyini tam deyə bilməsək də bu rəqəm yüksək deyil. Buna əsas səbəb göstərilən sahəyə dair təbliğatın müntəzəm aparılmaması, digər tərəfdən isə turist obyektlərinin yerləşdiyi ərazilərdə ekskursiyaların təşkil edilməməsidir.

Bəs Azərbaycanda tarixən turizmin ən çox inkişaf etdiyi bölgələrdən biri olan Lənkəranda necə? Lənkəran rayonunda turistlər və istirahət edənlər üçün ekskursiyalar təşkil etməklə rayon büdcəsinə çox böyük gəlir gətirmək olar. Lənkəran və onun ətrafında ekskursiyaları təşkil etmək üçün gəzməli, görməli yerlər çoxdur. Bu bölgənin həmin xarici ölkələrə yaxınlığı, Xəzər dənizi ilə əhatələnməsi və s. burada saysız-hesabsız ekskursiyalar təşkil etməyə imkan verir.

***İsmayıl ƏLİYEV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

*İmran Əbilov – 90*

# Vətənə xidmətdə keçən ömür



**Tarix bər-bəzəyi xoşlamır, daha çox sərtliyə meyillidir. Tarix ibrətdir, onu unudanda ağır fəsadları olur. Uzun illər ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklər haqqında yazmadıq, yaddaşımıza həkk etmədik, onun acısını çəkdik. 44 günlük Vətən müharibəsindən sonra ibrət götürdüyümüz tarix budur: gələcəkdə ermənilərlə qonşu kimi yaşaya bilərik, amma ermənilərin illər boyu bizə qarşı törətdiklərini heç vaxt yaddan çıxarmamalıyıq. Bu, tarixin bizə öyrətdikləridir.**

Bakıda ali məktəbdə oxuyanda Masallıda doğulan və Bakıda məsul vəzifədə işləyən İmran Əbilov haqqında eşitmişdim, amma şəxsi tanışlığımız uzun illər sonra baş verdi. Oğlu tarix fakültəsinə qəbul olunmuşdu. Ata nə qədər təvazökar idisə, oğul da bir o qədər tərbiyəli idi. Övladının davranışından atasının yüksək vəzifə sahibi olduğu qətiyyən hiss olunmurdu. İmran müəllimlə şəxsi tanışlığımızın qısa tarixçəsi belə başladı.

Allah-taala İmran müəllimə hər şey verib. Çoxlarının həsrətində olduğu boy-buxun və qüsursuz qamət, gözəl nitq, şirin diksiya, qarşıdakını dinləmək bacarığı, yüksək mədəniyyət, səliqəli geyim, böyük səbr, mütaliə, yaddaş… Bu siyahını artırmaq da olar. Vətəninə böyük məhəbbət və hamıya nümunə ola bilən ailə başçısı, müdrik ata, şirin baba, sədaqətli dost və sair.

İmran müəllimin yazdığı kitabları oxuyanda ( "Bir ömrün salnaməsi", "Vətənə vurğun ömürdən səhifələr," "Deyilən söz yadigardır,“ "Xatirələrdə yaşayan insan" ) onun böyüklüyünə qibtə edirsən, yaşadığı həyata və qazandığı uğurlara heyran olursan.

Yeri gəlmişkən, onu da xüsusi qeyd etməliyəm ki, İmran müəllimin atası Rəşid kişi bölgənin tanınmış vəzifə sahiblərindən olub. Bir müddət mənim doğulduğum kəndə də rəhbərlik edib. İnsanların Rəşid kişi ilə bağlı fikirləri hər bir övlad üçün böyük fəxarət ola bilər. Ruhu şad olsun.

İmran müəllim, sözün həqiqi mənasında, müəllim kimi fəaliyyətə başlayıb. Lənkəranda pedaqoji texnikumunu bitirəndən sonra Boradigah qəsəbəsindəki məktəbdə çalışıb. İlk dəfə savadını, bacarığını və ədalətini həmin kəndin şagirdləri ilə bölüşüb.

İmran müəllim texnikum təhsili ilə kifayətlənməyib, ali təhsil barədə düşünüb. Gəncə Kənd Təsərrüfatı İnstitutunu seçib. Stalin təqaüdü ilə oxuyub və İnstitutu fərqlənmə diplomu ilə bitirib. Bəlkə də ilk dəfə Gəncədə hiss etdilər ki, gələcəyin kənd təsərrüfatı mütəxəssisi ədəbiyyat həvəskarıdır, klassiklərdən, o cümlədən Nazim Hikmət, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Bəxtiyar Vahavzadə və başqalarından saatlarla şeir deyə bilir.

Kənddə zootexnik, Rayon Partiya Komitəsində təlimatçı işlədi, Rayon Komsomol Komitəsinin birinci katibi seçildi, Respublika Komsomolu Mərkəzi Komitəsində təlimatçı, nəhayət, uzun illər Masallı İstehsalat İdarəsinin rəisi oldu. İmran müəllim sadaladığım bu vəzifələrdə vicdanla çalışdı, bölgənin kənd təsərrüfatı sahəsində uğurlarının qazanılmasında mühüm rol oynadı. Harda işlədisə, dürüst bir təsərrüfat işçisi olduğunu sübut etdi. İnstitutda qazandıqlarını praktikada rahat şəkildə tətbiq edə bilirdi. Ətrafında olanlar elə bil ilk dəfə bu düşüncədə insan görür və İmran müəllimə böyük hörmətlə yanaşırdılar.

İmran müəllim hiss edirdi ki, doğma Masallını nə qədər ürəkdən sevsə də respublikanın onun savad və təcrübəsinə ehtiyacı var. Həm də Azərbaycanın idarəçiliyi elə bir şəxsə tapşırılıb ki, işgüzar və novator mütəxəssislər onun ətrafında olmalı idilər. Beləliklə, İmran müəllimin Bakı həyatı başladı.

İmran müəllim sədaqətli insandır. Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə respublikanın heyvandarlıq sahəsinə rəhbərlik ona həvalə edildi. Heydər Əliyev İmran müəllimi şəxsən tanıyırdı, İmran müəllim respublika rəhbərinin etimadını doğrultmaq üçün bütün təcrübə və bacarığını ortaya qoydu.

Heydər Əliyev Moskvada Qorbaçov tərəfindən istefaya göndəriləndən sonra dünənə qədər Ulu öndərin çörəyini yeyənlərin bir çoxu ona xəyanət yolunu tutdu. Amma İmran müəllim əqidəsindən dönmədi, Heydər Əliyev yoluna xəyanət etmədi. Ulu öndər Azərbaycanın müstəqilliyi dövründə yenidən hakimiyyətə gələndə İmran Əbilovun bu keyfiyyətini yüksək qiymətləndirdi. Heydər Əliyev dəqiq bilirdi ki, Azərbaycanda çamışçılığın inkişafında İmran müəllimin müstəsna xidmətləri var. Ona görə də bu sahənin inkişafında İmran müəllimdən çox şey gözləyirdi. İmran müəllim də bu etimadı doğrultdu.

İmran Əbilov Qarabağın üstünü qara bulud alana qədər həmin rayonları bir-bir gəzmiş və heyvandarlıq sahəsində bu bölgəyə hər cür köməklik göstərmişdir. Azərbaycanın bütün bölgələri, o cümlədən Qarabağ və Şərqi Zəngəzurla bağlı şirin xatirələr İmran müəllimin həyatında xüsusi səhifə təşkil edir. O, 1989- 1991-ci illərdə Respublika Dövlət Aqrar-Sənaye Komitəsinin xətti ilə keçmiş Dağlıq Qarabağ, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Ağdamda erməni cəlladlarına qarşı mübarizədə fəal iştirak etmiş, yurdlarından köçkün düşən insanların ayrı-ayrı rayonlarda yerləşdirilməsində həlledici rolu olmuşdur.

İmran müəllim təvazökar və səmimi insandır. O, halal yolla qazandıqlarına qane olan gözü-könlü tox bir Allah bəndəsidir. "Mənim var-dövlətim Azərbaycandır, xalqımdır, övladlarımdır, nəvələrimdir,"- deyir.

İmran Əbilovun səliqəsi ilə ciddiliyi həmahəngdir. Kimlə süfrə yoldaşı olubsa, kəsdiyi çörəyi heç vaxt unutmayıb.

Qarabağ bölgəsi işğal olunandan sonra rahatlığını itirsə də ruhdan düşmürdü. Çətinlikləri görürdü, amma ruhdan düşmürdü, Ümummilli lider Heydər Əliyevə böyük ümid bəsləyirdi. Allaha şükürlər olsun ki, Ulu öndər Azərbaycan xalqının ümidini doğrultdu. Heydər Əliyevin " Mən ona öz varlığım kimi inanıram" kəlamına bütün Azərbaycan xalqı səs verdi. Ümummilli liderin təqdim etdiyi cənab İlham Əliyevin ətrafında bütün Azərbaycan xalqı dəmir yumruq kimi birləşdi. Azərbaycan öz tarixində ilk dəfə ərazi bütövlüyünü təmin etdi, Qarabağdakı separatçı yuvası ləğv olundu.

Bu qələbə İmran müəllimin ömrünə ömür qatdı. Vətənin bir hissəsi işğal altında olanda nə qədər toy- düyündən, neçə ad günündən imtina etməli olmuşdu. İndi qalib ölkənin xoşbəxt veteranı kimi ad gününü istədiyi şəkildə, böyük təmtəraqla keçirə bilir. İmran müəllimin buna tam haqqı çatır.

Cənub bölgəsində bu həqiqəti hamı bilir. Bu bölgədə Yeni Azərbaycan Partiyasının yaradılması Şirvan və İmran Əbilov qardaşlarının adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP Azərbaycanın qazandığı uğurlarının önündə gedir, xalqımızı daha böyük qələbələrə səsləyir.

Dövlətçilik İmran Əbilovun canında, qanındadır. Mən onu tanıyandan belə görmüşəm. İmran müəllim diqqətcil bir insandır. Nəzərindən heç nə yayınmır. O, böyük əxlaq sahibidir. Bu cəhətdən hamımız onunla fəxr edirik.

İmran müəllim kənd təsərrüfatı mütəxəssi olsa da, müxtəlif sənət sahibləri ilə dostluq etmişdir. O, Lənkəran Pedaqoji Texnikumunda oxuyarkən sevimli şairimiz Səməd Vurğunla məktublaşmış, bu barədə xatirələr Ədəbiyyat Muzeyində saxlanılır. İmran müəllim Mehdi Hüseyn, Rəsul Rza, İlyas Əfəndiyev, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, İsmayıl Dağıstanlı, Lütvəli Abdullayev, Canəli Əkbərov, Habil Əliyev, Arif Babayev, Sabir Mirzəyev, Cəmil Əlibəyov, Ağababa Rzayev, Rəfail Nağıyev, Əli İldırımoğlu, Braziliyanın keçmiş kənd təsərrüfatı naziri Antonio Kabrera, Bolqarıstanın Kənd Təsərrüfatı Akademiyasının keçmiş prezidenti X. Xinkovski və onlarla başqa görkəmli şəxsiyyətlərlə dostluq etmişdir.

Əziz oxucu, İmran müəllim barədə bildiklərimi Sizə şirin nağıl kimi çatdırdım. Əlavə edim ki, o, gözəl ailə başçısıdır. Övladlarından razıdır, çünki atalarının yolu ilə rahat gedə bilirlər. Hər biri doğma Azərbaycana ləyaqətlə xidmət edir. Nəvələr də bu yolu uğurla davam etdirirlər.

Yaxın günlərdə Respublika Veteranlar Şurasının Rəyasət Heyətinin üzvü, Qarabağ müharibəsi veteranı İmran Əbilovun 90 yaşı tamam olur. Borcumuz onun yubileyini təbrik etmək, arzularımızı dilə gətirməkdir. 100 rəqəmindən hamının xoşu gəlir. Əzizimiz İmran müəllimə hələlik 100 illik zirvəni fəth etməyi arzulayırıq.

Şübhəsiz, yaradan və ömür verən Allahdır. Allah İmran müəllimi qorusun!

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor***

*Yeni kitablar*

# Qəhrəmanlıq dastanının təqdimi

**Şair Ədalət Salmanın yenicə çapdan çıxmış "Murovun aslanı" poeması Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Rəşad Abdullayevin xatirəsinə həsr olunub. Dünən Müdafiə Nazirliyinin (MN) H.Aslanov adına Mədəniyyət Mərkəzində müharibə veteranlarının, şəhid ailələri üzvlərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə kitabın təqdimat mərasimi keçirilib.**



Əvvəlcə şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. Sonra videotəsvirlərin müşayiətilə Rəşad Abdullayevin həyat və döyüş yoluna nəzər salındı. Bütün iştirakçılara yeni kitabın nüsxələri hədiyyə edildi. MN şəhid ailələri və qadın hərbi qulluqçularla iş üzrə şöbənin müdiri Zümrüd Səmədova, Cəlilabad Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Füzuli Cəfərov, əsərə "Ön söz" yazmış Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov, XTQ veteranı Bəhruz Məmmədzadə, "Qarabağ" ordenli qazi Famil Fərəcov, Vətən müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filara İsmayılova çıxış edərək, şəhidin hünərindən və onun haqqında yazılmış poemanın məziyyətlərindən danışdılar.




Kitabın müəllifi – AYB və AJB-nin üzvü, Prezident təqaüdçüsü, Cəlilabad Rayon Veteranlar Təşkilatının sədri Ədalət Salman qəhrəmanın mövludu və 44 günlük Zəfər Yürüşünün 5 illiyi ərəfəsində ərsəyə gətirdiyi "Murovun aslanı" poeması üzərində yaradıcılıq prosesi barədə danışdı, kitabın nəşrində zəhməti olanlara minnətdarlığını bildirdi. Ölməz şəhidin valideynləri Arif və Sevil Abdullayevlər, həyat yoldaşı Gülnar xanım xatirələrini bölüşdülər və təqdimat mərasiminə toplaşanlara razılıqlarını bildirdilər.

Sonda vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim olundu.

***Ə.ƏLİYEV***
***XQ***

*Vaqif Musayev – 85*

# Nüfuzlu jurnalist, ləyaqətli ziyalı

**İnsan daşıdığı adın mənasını şəxsiyyəti və fəaliyyəti ilə doğruldanda ikiqat xoş təəssürat yaradır. Molla Pənah Vaqifdən üzübəri bu adla tanınan dəyərli soydaşlarımızın siyahısı uzundur. Onlardan bizə bəlli olan 4-nün soyadı ortaqdır – Musayevdir. İqtisad elmələri doktoru, lerikli sabiq deputat Vaqif Rəsul oğlu, qubalı nasir Vaqif Məmmədyusif oğlu, laçınlı Vaqif Musaoğlu və qaxlı Əməkdar jurnalist Vaqif Məmməd oğlu. Bu gün həmkarımız Vaqif Musayevin dünyaya gəldiyi gündür. Azərbaycanın tanınmış, nüfuzlu ahıl jurnalistinin ömür təqvimində 85-ci il tamam olur.**



Vaqif Musayev 1940-cı il sentyabrın 17-də Azərbaycanın dilbər guşələrindən olan Qax rayonunun Qax-Muğal kəndində Məmməd kişinin ailəsində dünyaya göz açıb. İkinci Dünya müharibəsinin dəhşətləri bu ailədən də yan ötməyib. Atası minlərlə azərbaycanlıdan biri kimi, qanlı-qadalı savaşda itkin düşüb.

Fələyin növbəti zərbəsi onu yenidən silkələyib, 8 yaşı olanda anası Fətmət xanım dünyasını dəyişib. Bütün bu ağrılara baxmayaraq, Vaqif boynubükük gəzməyib. Gecə-gündüz oxuyub, çalışqanlığı ilə həmyaşları arasında seçilib. Bir sözlə, həyatdan möcüzə gözləməyib, ömrün yolları ilə öz gücünə irəliləyib. 1957-ci ildə orta məktəbi bitirərək, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olub.

Universiteti bitirəndən sonra o, "Xəzərdəniztikinti" Trestinin inşaat hissələri zavodunda betonçu kimi əmək fəaliyyətinə başlayıb və düz 1 il orada çalışdıqdan sonra Şamaxı rayonunda tarix müəllimi işləyib. O, müxtəlif illərdə fəhlə-gənclər məktəbində texniki işçi, yataqxana tərbiyəçisi, Baş Mətbuat İdarəsində senzor vəzifələrində çalışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının aspiranturasını bitirən və bir çox məqalələri elmi jurnallarda dərc olunan Vaqif müəllimin mənalı ömür yolu qələmə sədaqətlə keçib. Maraqlı tərcümələri ilə də tanınıb.

Onun həyatında Azərbaycan Sovet Ensiklopediyası (ASE) Baş Redaksiyasının xüsusi yeri olub. Burada elmi redaktor kimi işə başlayıb və qısa vaxt ərzində böyük elmi redaktor, redaksiya müdiri vəzifələrinə qədər yüksəlib. Ensiklopediyadakı səmərəli fəaliyyətinə görə Əməkdar jurnalist fəxri adına layiq görülüb.

1991-ci ildən başlayaraq Vaqif Musayev ömrünün böyük hissəsini Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AZƏRTAC) həsr edib. Buraya tanınmış jurnalist Şamil Şahməmmədovun dəvəti ilə gəlib, müxtəlif vəzifələrdə çalışıb. İstedadı, qabiliyyəti, bacarığı sayəsində agentliyin baş direktorunun 1-ci müavini vəzifəsinə qədər yüksəlib.

Təxminən, 30 il əvvəlki ilk tanışlığımızda Vaqif müəllim mənə necə mədəni, xoşsima, təmkinli təsir bağışlamışdısa, sonrakı bütün görüşlərimizdə də onu elə o cür – dəyişməz gördüm. Ulu öndərin Prezident Administrasiyasındakı qəbullarında, xarici səfərlərdə AZƏRTAC-ı layiqincə təmsil etdiyi kimi, sadə insanlığını, ləyaqətini də qoruyub saxlayıb.

Əməkdar jurnalist Vaqif Musayev həm də prinsipial, haqqı nahaqqa verməyən bir jurnalistdir. Xalq şairi Rəsul Rzanın rəhbərliyi dövründə ASE-də çalışdığı vaxt ensiklopediyanın ilk cildinə böyük ziyalı şəxsiyyət Ağaoğlu Məhəmməd haqqında məqalə yazmışdı. Bu, həmin Ağaoğlu idi ki, görkəmli sənətşünas kimi tanınmışdı, sovet rejimini bəyənmədiyinə görə növbəti xarici səfərindən SSRİ-yə qayıtmamışdı. Bəzilərində qıcıq yaradan da bu idi. Sov. İKP MK-nın Partiya Nəzarəti Komitəsindən Bakıya gələn nümayəndə heyətinin rəhbəri Sokolov ensiklopedik nəşrdə "millətçilik" məqamlarını araşdırarkən bu faktı əsas götürərək, Vaqif müəllimdən soruşub ki, nəyə görə "üzüdönük" şəxslərdən yazırsınız. O, üzrxahlıq əvəzinə, gözlədiyinin tam əksi olan cavab almışdı.

Özü də partiya bürosunun katibi olan Vaqif Musayev Sokolovun sualına sualla cavab verərək demişdi ki, məgər Lenin tərəfindən Rusiyanın xalq artisti adına layiq görülmüş, ölkədən müvəqqəti getmək adı ilə vətənini həmişəlik tərk etmiş opera müğənnisi Fyodor Şalyapin haqqında Moskva ensiklopediyalarında məlumat verilmir? Yaxud sovet hakimiyyəti qurulandan sonra Rusiyadan getmiş bəstəkar Sergey Raxmaninov xarici milyonçular qarşısında çıxışlar etdiyi halda, bəs nəyə görə sovet ensiklopediyalarının hamısında onun haqqında məqalələr var? Bu cavab moskvalı partiya funksionerini qane etməsə də, ensiklopediya cildinin çıxmasına imkan verilməmişdi.

Daim çalışqanlığı ilə seçilən Vaqif Musayev hələ 1978-ci ildə "Bakı" qəzetində çap etdirdiyi "Molla İbrahimxəlil real şəxsiyyətdir" adlı yazısında Mirzə Fətəli Axundovun qəhrəmanının Şəki qəzasının gerçək sakini olduğunu konkret faktlarla sübut edib. Yazıb ki, Axundov şəxsən Molla İbrahimxəlilin kimliyindən xəbərdar imiş və Tiflisdə Qafqaz canişinliyinin dəftərxanaslında işlədiyi vaxt onun filizdən gümüş alması ilə bağlı rəsmi sənədlərlə də tanış olubmuş. Jurnalist araşdırmaları nəticəsində, bax, belə bir cəlbedici məqalə alınmışdır.

AZƏRTAC kimi mötəbər agentlikdə işləməyin çətin, məsuliyyətli, amma şərəfli olduğunu ilk gündən dərk edən Vaqif Musayev bu illər ərzində çox yuxusuz gecələr keçirib. Operativliyi, çevikliyi, peşəkar müqayisə – təhlil-nəticə bacarığı, yetkin düşüncə sahibi olması ilə seçilib. Onlarla gənc jurnalistin yetişməsinə, püxtələşməsinə dəstək olub. O, redaktə etdiyi hər bir informasiyaya əsl redaktor kimi öz möhürünü vururdu.

Yetkin qələm sahibinin redaktəsindən sonra rəsmi informasiylar oxucular maraqla oxunurdu. Vaqif müəllim hər bir yazını təkcə oxumurdu, sanki ona yeni bir nəfəs verirdi. Müəlliflərin nə demək istədiyini, amma dəqiq deyə bilmədiyini ilk andan başa düşən peşəkar redaktor kimi hər bir xəbərə elə müdaxilə edirdi ki, müxbirlər buna görə ona qəlbən təşəkkür etməli olurdular.

Başqa sözlə, Vaqif Musayevin qəlbində gəzdirdiyi insanlıq və səmimiyyət, zehnində formalaşmış peşəkarlıq hər zaman özünü açıq-aydın göstərib. Bütün bunlar onun istedadının və peşəşinə sonsuz sevginin nəticəsində mümkün olub. Məsələn, 1999-cu ildə "Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi ilə əlaqədar Fransa paytaxtında UNESCO-nun iqamətgahında keçirilən beynəlxalq elmi simpoziumdan operativ olaraq hazırlayıb, "isti-isti" AZƏRTAC-a göndərdiyi silsilə yazıları bir neçə gün dalbadal KİV-lərdə dərc olunaraq fərəhli əks-səda doğurmuşdu. Nümayəndə heyətinin üzvləri rəsmi proqram tədbirlərindən vaxt tapan kimi Parisin görməli yerlərinə gəzintiyə çıxdıqları halda, Vaqif Musayev hotel otağında qeydlərini sahmana salıb Bakıya göndərməklə məşğul olurdu.

Elə bu özəl keyfiyyətləri səbəbindən də onun AZƏRTAC-dakı fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib, 2005-ci ildə o, Azərbaycan "Tərəqqi" medalı ilə təltif edilib.

**AZƏRTAC-ın əməkdaşı Abdulla Suvar öz ustadından sevgi ilə söz açdı:**

– Hamı Vaqif Musayevi təmkinli, insanlara qarşı olduqca mehriban, duyğusal bir ziyalı kimi tanıyır. Tale mənə də Vaqif Musayevin AZƏRTAC-da işlədiyi illərdə onunla bir kollektivdə çalışmaq xoşbəxtliyi nəsib edib. Çoxları kimi, mən də ondan nəsə öyrənmək istəmişəm və öyrənmişəm. Vaqif müəllimin iş prosesində tez-tez təkrar etdiyi sözləri xatırlayıram: "İnsanlığın şərəf və xüsusiyyəti gördüyü işlərlə ölçülür. Hamı çalışır, yüksəlir, qiymət və etibar isə əmələ görə verilir. Ən xeyirli adam insanların ən faydalı olanıdır, insanlığa gərəkli işlər görənidir".

Vaqif Musayev üçün söz namusdur. Namuslu sözlə yaşayıb-yaradan Vaqif Musayev özünü bu müqəddəs hisslərə kökləməyi bacaran söz sərraflarındandır. O, heç zaman qələminə xəyanət etməyib, sözün ucalığını daim zirvədə saxlayıb. Bəlkə elə bu səbəbdən də qələminin ucunda göyərən sözlər onun yoluna daim yaşıl işıq yandırıb.

Pensiyaya çıxsa da, qələmini yerə qoymayan, dərin təhlili yazıları ilə heyrət yarada bilən ustad jurnalist Vaqif Musayev gənclər üçün əsl örnəkdir. Bu baxımdan bizim "Xalq qəzeti"ndə İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə Bakı neftinin oynadığı mühüm roldan bəhs edilən araşdırma yazısını, "525-ci qəzet"də milli tariximizin geniş ictimaiyyətə bəlli olmayan səhifələrindən, konkret olaraq 1877–78-ci illər Rusiya–Türkiyə müharibəsində Qaxın İlisu kəndindən olan gənclərin igidliyindən söz açılan oçerkini və s.-ni misal çəkmək olar.

O, betonçuluq da edib, tərbiyəçi-müəllim, texniki işçi, tərcüməçi də olub. Jurnalist, baş direktorun 1-ci müavini kimi çətin və şərəfli yol keçib. Hər zaman işini böyük həvəs və məsuliyyətlə yerinə yetirib. Həyatda nail olduqlarını məhz zəhməti bahasına qazanıb.

Hazırda ömrünün layiq olduğu xoşbəxt pensiyaçı dövrünü yaşayan 3 övlad atası Vaqif Musayev doğma Qax-Muğal kəndində xoş günlər keçirir. El-oba arasında hörmətli ağsaqqaldır. Gənclərlə söhbətlərində Vətən məhəbbətinin doğma kəndə, ulu adət-ənənələrə bağlılıqdan su içdiyini anladır. Deyir ki, İlahinin bəxş etdiyi ömür payını şərəflə yaşadığına, xəyallarının qanad açmasına görə ata ocağına borcludur. Qoy, ömür yolunun yoxuşu-enişi 85 yaşlı həmkarımızın nurani görkəminə, ziyalı yaddaşına bir daha güc versin, ruhunu daim cavan saxlasın.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Üzeyir Hacıbəylinin elmi əsəri özbək dilində

**Daşkənddəki Yunus Rəcəbi adına Milli Musiqi Sənəti İnstitutunda dünya şöhrətli bəstəkar, Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir Hacıbəylinin 140 illiyi ərəfəsində Türk xalqlarının sevimli sənətkarının məşhur elmi əsərinin – "Azərbaycan xalq musiqisinin əsasları" kitabının özbək dilində nəşri oxuculara təqdim edilib.**



Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə hazırlanmış kitabın müzakirəsində ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun təmsilçiləri, institutun professor-müəllim heyəti, tələbələr, jurnalistlər iştirak ediblər. Mərasimi giriş sözü ilə açan ali məktəbin rektoru, professor Eldor Şermanov Türk xalqlarının musiqi sənətinin öyrənilməsi və inkişaf etdirilməsi üçün də qiymətli mənbə sayılan əsərin özbək dilində işıq üzü görməsini Turan sevdalısı olmuş bəstəkarın yubileyi, eləcə də xalqlarımızın mədəni əlaqələrinin genişlənməsinə layiqli töhfə olduğunu qeyd edib.

Ölkəmizin Özbəkistandakı səfirliyinin müşaviri Fariz Məmmədov bildirib ki, böyük Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyinə həsr edilmiş kitab və onun təntənəli təqdimatı sənət korifeyinin milli musiqi mədəniyyətinin inkişafındakı müstəsna xidmətlərinin təbliği və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyət, milli musiqi xəzinəsini nadir forma və janrlarla zənginləşdirən novator sənətkar olduğunu, təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mədəniyyətinə böyük töhfələr verdiyini söyləyib.

Sonra institutun professoru Saibjon Beqmatov, dosentlər Bəxtiyar Aşurov, Şaxzoda Berdixanova, "Soqdiana" Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri, professor Firuza Abduraxmanova və başqaları təqdim edilən kitabı Azərbaycan zəngin musiqi irsini ilk dəfə elmi şəkildə sistemləşdirən fundamental tədqiqat kimi dəyərləndiriblər.

Sonra institutun tələbələri Üzeyir Hacıbəylinin populyar əsərlərini və özbək musiqilərini səsləndiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
***Daşkənd***

# Nəsimi həmişə müasirdir

**Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov sentyabrın 23-25-də ölkəmizdə keçiriləcək Nəsimi Şeir, Mənəviyyat və İncəsənət Festivalı ilə bağlı açıqlamasında bildirib:**

– Heydər Əliyev Fondu, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə ənənəvi keçirilən Nəsimi Festivalı Bakı və Şamaxıda təşkil olunacaq. Beynəlxalq mərasim elmi konfransla Bakıda başlayacaq, daha sonra Şamaxıda davam edəcək.

Nəsimi Festivalı mədəniyyətlər və nəsillər arasında yaradıcı dialoqu təşviq etməyi hədəfləyir. Bu tədbir əbədi həqiqət axtarışında olan Nəsimi irsini xalqa və dünyaya daha da yaxınlaşdırmaq yolunda növbəti addımdır.

Akademik qeyd edib ki, Böyük Britaniya, Almaniya, Pakistan, Oman, İran, İraq, Türkiyə, Orta Asiya respublikaları, eləcə də Azərbaycanın tanınmış alimlərinin iştirak edəcəyi festivalda Nəsiminin yaradıcılığı, həyat yolu, onun ədəbi mühit içərisindəki yeri və fəlsəfi baxışları yenidən araşdırılacaq, təhlil olunacaq. Nəsimi bu gün yenidən qayıdır, gələcəklər içərisində həmişə qayıdacaq.



***Qabil YUSİFOĞLU***
***XQ***

# Milli musiqimizin sorağı Pekindən gəldi



**Azərbaycan musiqisinin növbəti sorağı Pekin Milli İfaçılıq Mərkəzindən gəldi. Beynəlxalq səviyyəli bir məkanda milli musiqimizin səsləndirilməsi önəmli hadisədir.**

Mərkəz Çin Xalq Respublikasının ən mötəbər mədəniyyət ocaqlarından biri olaraq tanınır və "Su damlası" adlandırılan nadir memarlığı ilə diqqət çəkir. Burada azərbaycanlı musiqiçilərin çıxışı mədəni əlaqələrin daha da dərinləşməsinə xidmət edir.

Konsertin əsas siması olan dirijor Əyyub Quliyevin Çin Milli Balet Teatrının simfonik orkestri ilə əməkdaşlığı təsadüfi deyil. Bu, iki ölkə arasında incəsənət sahəsində formalaşmış uzunmüddətli münasibətlərin davamıdır. Ə.Quliyev daha əvvəl Çində "1001 gecə" baletinin təqdimatı ilə böyük uğura imza atmışdı. Bu cür əməkdaşlıqlar azərbaycanlı sənətkarların beynəlxalq arenada tanınmasına, onların peşəkarlığının dünyaya çatdırılmasına və Azərbaycan musiqisinin füsunkar aləminin fərqli mədəniyyətlərlə tanış olmasına zəmin yaradır.

Konsert proqramı dinləyicilərə Azərbaycan musiqisinin zənginliyini bütün əlvanlığı ilə təqdim edib. Dahi bəstəkarlar Üzeyir Hacıbəyli və Fikrət Əmirovun əsərləri milli musiqimizin klassik təməllərini nümayiş etdirərkən, gənc bəstəkar Tamilla Əhədovanın "Fortepiano və orkestr üçün konsert" əsərinin premyerası müasir Azərbaycan musiqisinin dinamik inkişafından xəbər verib. T.Əhədovanın ifa etdiyi Üzeyir Hacıbəyliyə həsr olunmuş əsəri tamaşaçılar böyük rəğbətlə qarşılayıb və bu da gənc istedadın yaradıcılığının beynəlxalq səviyyədə qəbul edildiyinin sübutudur.

Konsertdə dünya klassiklərindən – O. Respiqi, D.Şostakoviç və P.Çaykovskinin əsərlərinin səslənməsi gecəyə xüsusi rəng qatıb. Dinləyicilərin istəyi ilə Çində ən çox sevilən "Wanquang River" əsərinin səsləndirilməsi isə mədəniyyətlərarası dialoqun nə qədər səmimi və təsirli olduğunu bir daha sübut edib. Belə çıxışlar yalnız musiqi mübadiləsi deyil, həm də xalqlar arasında dostluq və anlaşmanın möhkəmlənməsinə töhfə verir.

***Arzu ƏLİYEVA***
***XQ***

# Rumıniyada Beynəlxalq Multikulturalizm Yay Məktəbi

**Rumıniyanın Yassı şəhərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aleksandr İohan Kuza Universiteti və Yassı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Beynəlxalq Yay Məktəbi təşkil olunub.**



"Qara dəniz və Xəzər hövzəsi: Tarix, ənənələr və multikultural perspektivlər" mövzusuna həsr olunan məşğələlərdə Rumıniya, Azərbaycan, Moldova, Bolqarıstan, Gürcüstan, Ukrayna və Türkiyədən olan tələbə və araşdırmaçılar iştirak ediblər. Məktəbdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri, dosent İrina Kunina "Multikulturalizmin Azərbaycan modelinin xüsusiyyətləri" mövzusunda mühazirə ilə çıxış edib. Məktəb iştirakçılarının Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdulla ilə onlayn görüşü də əşkil olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidmətinin rəhbəri Yadifar Məmmədli XQ-yə açıqlamasında bildirdi ki, qurumun önəmli layihələrindən olan və ildə 2 dəfə təşkil edilən beynəlxalq multikulturalizm məktəbi ilk dəfə olaraq Azərbaycandan kənarda həyata keçirildi. Yay məktəbi "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Layihənin məqsədi xarici və yerli universitetlərdə Azərbaycan multikulturalizmini öyrənən tələbələrin nəzəri biliklərinin multikultural və tolerant dəyərlərin qorunduğu ölkəmizdə əyani şəkildə tanış olmalarına şərait yaratmaqdır.

***T.RÜSTƏMLİ***
***XQ***

*Təhsil ekspertizası*

# Yetərsiz bilik və saxta diplom ölkəmizdə keçərli deyil




**Təhsildə Keyfiyyət Təminatı Agentliyində keçirilən mətbuat konfransında İdarə Heyətinin sədri Tural Əhmədov sentyabrın 16-da məlumat verdi ki, qurum cari ilin ötən 9 ayı ərzində xarici ixtisasların tanınması ilə bağlı 3 min 480 müraciət üzrə ekspertiza həyata keçirib. Nəticədə 2 min 989 müraciətə müsbət rəy və xaricdə əldə olunan diplomların tanınması haqqında şəhadətnamələr verilib. 491 xarici diplom isə tanınmayıb.**

Mənfi rəyin verilməsinə səbəb tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olmasından 344, təhsilalma formasının üzrə uyğunsuzluq səbəbilə 33, heqiqi olmayan diplom səbəbilə 23 tələbənin diplomu tanınmayıb. Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma və əhəmiyyətli fərq (ixtisas və qeyri-ixtisas fənlərinin nisbəti üzrə əldə olunan kredit sayı) səbəbilə 19, qeydiyyatsız ali təhsil müəssisəsindən 22, ekvivalenti olmayan ixtisas üzrə 8, qeydiyyatsız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olma səbəbilə 8, əhəmiyyətli fərq (ixtisas və qeyri-ixtisas fənlərinin nisbəti üzrə əldə olunan kredit sayı) səbəbilə 7, bakalavr diplomu üzrə kvalifikasiya tanınmadığı üçün 6 magistr diplomu qəbul olunmayıb.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin rəhbəri açıqlamasının davamında bildirdi ki, qurumun sifarişi əsasında Dövlət İmtahan Mərkəzinin hüquqşünaslıq ixtisası üzrə keçirdiyi peşə imtahanında iştirak edən 334 nəfərdən yalnız 72 nəfəri təqdim olunan 30 sualdan yarısına və ya daha çoxuna cavab verərək qurumdan ixtisasların tam (akademik və peşə) tanınması üzrə şəhadətnamələr əldə edib.

Uğursuz nəticə göstərən ixtisas sahibləri əsasən Rusiya Federasiyası və Ukrayna ali təhsil müəssisələrində təhsil alanlar olub. Ötən il oktyabrın 6-da DİM-in hüquqşünaslıq ixtisası üzrə təşkil etdiyi peşə imtahanında Rusiya Federasiyası 70, Ukrayna 63, 30 yanvar 2025-ci il tarixində təşkil edilən imtahanda isə Rusiya Federasiyasından 84, Ukraynadan isə 94 faizi uğursuz nəticə əldə edib.

Tural Əhmədov daha sonra qeyd etdi ki, agentliyin sifarişi əsasında Dövlət İmtahan Mərkəzinin bu ilin 23 iyununda keçirdiyi peşə imtahanında "İbtidai sinif müəllimliyi" ixtisası üzrə iştirak edən namizədlərin 90 faizi uğursuz nəticə göstərib. "Mühəndislik" ixtisası üzrə keçirilən peşə imtahanının nəticələrinə əsasən, ümumilikdə, 13 ixtisas göstəricisinə görə 89 nəfər imtahanda iştirak edib, onlardan yalnız 19 nəfəri (21 faiz) uğurlu nəticə göstərib, digər 70 nəfəri isə (79 faiz) uğursuz olub. "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" ixtisası üzrə isə 23 nəfərdən yalnız 1 nəfər (4 faiz) uğurlu, 22 nəfər isə (96 faiz) uğursuz olub. "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisası üzrə imtahanda iştirak edən 31 nəfərdən cəmi 4 nəfəri uğurlu (12 faiz) nəticə göstərib, digər 27 nəfər (88 faiz) isə nəticə əldə etməyib. Uğursuz nəticələrin əsas hissəsi Ukrayna, Belarus Respublikası və Rusiya Federasiyası ali təhsil müəssisələrinin məzunlarıdır.

Brifinqdə o da bildirildi ki, agentliyin fəaliyyət istiqamətinə uyğun olaraq qeyri-formal və informal təhsilin tanınması sahəsində müxtəlif peşə ixtisasları ("Aşpaz", "Qənnadçı-şirniyyatçı", "Bərbər-vizajist-manikürçü", "Bərbər", "Dərzi", "Kompüter operatoru", "Avtomobil mühərriklərinin yığıcısı", "Mühafizəçi", "Zərgər", "Elektrik qaz qaynaqçısı" və "Təmirçi-çilingər") üzrə Agentliyə ümumilikdə 226 müraciət daxil olub. Müraciət edən 200 nəfərdən 167 nəfəri məqbul, 33 nəfəri isə qeyri-məqbul nəticə göstərib, imtahanlara cəlb olunan 145 nəfərdən 138 nəfəri müvafiq peşə sənədi əldə edib, 7 nəfəri isə qeyri-məqbul nəticə göstərib. Hazırda 22 nəfər praktiki imtahanı gözləmə mərhələsindədir.

Bu ixtisaslar üzrə qiymətləndirmə və tanınma aşağıda qeyd olunan müxtəlif qurumlarla birgə əməkdaşlıq və layihələr çərçivəsində, həm də şəxsi vəsait hesabına həyata keçirilib. "bp Azərbaycan" şirkətinin maliyyə dəstəyi ilə "Sənətin varsa, sənədin olacaq!" layihəsi çərçivəsində 95 nəfər nəzəri imtahanlara cəlb edilib. Onlardan 77-si məqbul, 18 -i isə qeyri-məqbul nəticə göstərib. Praktiki imtahanlarda iştirak edən 77 nəfərdən 76 nəfəri uğurlu nəticə əldə edərək peşə sənədinə sahib olub, 1 nəfər isə uğursuz nəticə göstərib.

İşğaldan azad edilmiş ərazilərdə "2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı" çərçivəsində 45 nəfərdən 34 nəfər uğurlu, 11 nəfər isə uğursuz nəticə göstərib. Praktiki imtahanlarda isə 34 nəfərdən 9 nəfəri müvafiq peşə sənədi əldə edib. Digər 20 nəfərin yaxın zamanda praktiki imtahanlara cəlb edilməsi nəzərdə tutulur.

Brifinqdə digər nominasiyalar üzrə qiymətləndirmələrin nəticələri də açıqlanıb.

Ünvanladığımız "Mənfi rəy alan şəxslərin apellyasiya hüququ necə tənzimlənir?" sualına TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov belə cavab verdi: "Apellyasiya vətəndaşların qəbul olunmuş qərarlara etiraz, nəticələrə isə yenidən baxılmasını tələb etmək imkanı yaradır.

Bəzən nəticələrin açıqlanmasında, sənədlərin işlənməsində texniki və ya mexaniki xətalara yol verilə bilər. Bu halda apellyasiya mexanizmi yalnız şikayət vasitəsi deyil, həm də ədalətin bərpa olunmasına təminat verir. Əgər müraciət əsasında belə bir səhv aşkar edilirsə qərar və ya nəticə vətəndaşın xeyrinə həll olunur".

***Ləman TƏHMƏZ***
***XQ***




# Azərbaycan Avstraliyanın Lalə Festivalında

**Hər il payızda Avstraliyanın Melburn şəhəri yaxınlığında yerləşən Silvan qəsəbəsində Tesselaar Lalə Festivalı keçirilir. Bu il Azərbaycan festivalda ilk dəfə rəsmi şəkildə təmsil olunub. Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avstraliya-Azərbaycan Assosiasiyaları Alyansının təşkilatçılığı ilə Avstraliyanın müxtəlif şəhərlərində yaşayan Azərbaycan diasporunun nümayəndələri xüsusilə seçilirlər.**

1955-ci ildən keçirilən bu ənənəvi tədbir ölkənin ən məşhur bayramıdır. Festivalın keçirilməsi bu ərazidə təsərrüfatla məşğul olan hollandiyalı mühacirlər – Cees və Johanna Tesselaarın adı ilə bağlıdır. Belə ki, Hollandiyadan Avstraliyaya mühacirət edən ailə 1939-cu ildə Silvan qəsəbəsində gülçülüklə məşğul olmağa başlayıb. Zamanla təsərrüfatlarını böyüdərək əkdikləri lalələrlə məşhurlaşıblar. Bu tədbir illər ərzində genişlənərək Avstraliyanın ənənəvi festivallarından birinə çevrilib.

Şənliklərin keçirildiyi ərazidə hər il 1 milyondan çox lalə çiçək açır. Sərgidə yüzlərlə növ lalə, dekorativ gül bağçaları və fotoqrafiya üçün ideal mənzərələr ziyarətçilərə təqdim olunur. Festival, eyni zamanda multikultural mədəniyyət bayramıdır. Burada müxtəlif ölkələrin milli günləri keçirilir, musiqi, rəqs, geyim və mətbəx nümunələri nümayiş edilir.

Festival çərçivəsində Azərbaycana aid guşədə ölkəmizin zəngin mədəni irsindən, milli musiqisindən və rəqs sənətindən nümunələr ziyarətçilərə təqdim olunub. "AYTAY" musiqi və "ADENA" rəqs qrupunun çıxışları tamaşaçılarda xoş təəssürat yaradıb. Azərbaycan pavilyonunda milli mətbəximizdən seçmələr ziyarətçiləri ölkəmizin zəngin kulinariya ənənələri ilə tanış edib.

***Fidan ƏLİYEVA***
***XQ***

# Naxçıvanda sahibkarların iştirakı ilə müşavirə

**Sentyabrın 15-də Naxçıvanda yerli sahibkarların iştirakı ilə müşavirə keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2025-ci ilin yanvar-avqust ayları üzrə muxtar respublikada əldə olunan makroiqtisadi göstəricilərdən soz açaraq bildirib ki, ümumi daxili məhsul istehsalı 1 milyard 64 milyon 598 min 400 manat olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artıq göstəricidir.

Hesabat dövründə 343 milyon 6 min 900 manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da 2024-cü ilin müvafiq dövründəki göstəricini 19,1 faiz üstələyir. Həmçinin iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala bir il öncəki göstəricidən 42,4 faiz çox, 122 milyon 629 min 300 manat vəsait yönəldilib.

Sosial və iqtisadi sahələrin digər sferalarında da mühüm artımların olduğunu bildirən səlahiyyətli nümayəndə vurğulayıb ki, bu göstəricilər sahibkarlar üçün əlverişli mühitin formalaşdığını, rəqabətədavamlı məhsul istehsalına və xidmətlərin keyfiyyətinin artırılmasına mühüm şərait yaradıldığını təsdiq edir.

Fuad Nəcəfli bildirib ki, muxtar respublikada fəaliyyət göstərən sahibkarlar üçün daha əlverişli və perspektivli mərhələyə qədəm qoyuruq. Zəngəzur dəhlizinin reallaşması, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası Naxçıvanı mühüm logistika mərkəzinə və investisiya zonasına çevirəcək. Yerli sahibkarlar yaranacaq bu imkanlara, o cümlədən yeni investisiya mühitinə hazır olmalı, rəqabətə davam gətirəcək addımlar atılmalıdır.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, Naxçıvan MR Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov, Naxçıvan MR iqtisadiyyat naziri Kazım Hüseynəliyev tətbiq olunacaq gömrük və ticarət güzəştlərini muxtar respublikada sahibkarlığın inkişafına göstərilən mühüm dəstək kimi dəyərləndiriblər.

Sahibkarlar muxtar respublikada azad sahibkarlıq mühitinin formalaşmasına, bu istiqamətdə şəffaflığın təmin olunmasına və göstərilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilərin cinayətləri sübuta yetirilir





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətlər və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 16-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət (ehtiyat hakim Günel Səmədova) tərkibdə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək bir neçə vəsatətinin olduğunu bildirib.

Əvvəlcə təqsirləndirilən şəxs məhkəməyə müraciət edərək "ittiham edildiyi cinayət işi üzrə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın, ATƏT-in Minsk qrupunun üzvlərinin, BQXK-nın Azərbaycandakı nümayəndələrinin, Qarabağda olmuş Rusiyanın sülhməramlı kontingentinin komandanı olmuş şəxslərin məhkəmədə dindirilməsini xahiş edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov vəsatətlərə münasibət bildirərək qeyd ediblər ki, təqsirləndirilən şəxs tərəfindən dindirilməsi təklif olunan şəxslərin məhkəmədə baxılan ittihama aidiyyəti yoxdur. Qəbul edilmiş qərara əsasən prosesin hazırkı mərhələsində ittiham tərəfinin təqdim etdiyi sübutlar tədqiq olunur.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər də vəsatətin rədd olunmasını məhkəmədən xahiş ediblər.

Daha sonra Ruben Vardanyan digər vəsatətini məhkəməyə təqdim edərək hərbi qulluqçu olmadığını, buna görə də təqsirləndirildiyi cinayət işinə hərbi məhkəmədə baxılmasından narazı olduğunu deyib. Vəsatətə münasibət bildirən Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli bildirib ki, təqsirləndirilən şəxsin ittiham edildiyi cinayətlərin bəziləri hərbi cinayətlər olduğu üçün onun işinə hərbi məhkəmədə baxılır.

Sədrlik edən Zeynal Ağayev bildirib ki, təqsirləndirilən şəxsin ittiham olunduğu bəzi cinayət əməlləri hərbi cinayət hesab edildiyi üçün Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən işə hərbi məhkəmədə baxılır. Qeyd olunanlara əsasən vəsatətlər rədd edilib.

Sonra zərərçəkmiş Azad Kərimovun atası Zakir Kərimov övladının Kəlbəcərdə, Akşin Nəsibovun hüquqi varisi Vasif Nəsibov övladının Ağdərədə, Yunis Kazımovun hüquqi varisi Qasım Kazımov övladının Kəlbəcərdə, Kamran Hüseynovun atası Namiz Hüseynov oğlunun Xankəndi-Şuşa yolunda, Elşən Xankişiyevin hüquqi varisi Aidə Xankişiyeva övladının Xocalıda, Cəmil Qurbanzadənin atası Anar Qurbanov övladının Laçında, Əli Babazadənin hüquqi varisi Rüstəm Babayev övladının Xankəndidə, Toğrul Əliyevin hüquqi varisi Qızılgül Əliyeva övladının Xocavənddə, İslam Dünyamalıyevin hüquqi varisi Gülşən Dünyamalıyeva oğlunun Ağdərədə, Nəzər Əzizovun anası Cəmafət Əzizova oğlunun Kəlbəcərdə, Zöhrab Kərimovun atası Azad Kərimov övladnın Laçında, Məhəmməd Məmmədovun atası Bilal Məmmədov övladının Kəlbəcərdə, həlak olduqlarını bildiriblər.

Əbdülmətin İsmayılov deyib ki, Laçın rayonunda qarşı tərəfdən atılmış artilleriya mərmilərinin partlaması nəticəsində kəllə-beyin travması alıb və diz nahiyəsindən yaralanıb. Həmin vaxt Məhəmməd Hüseynov və Eltac Əhədov həlak olub, onun özündən başqa Kamal Bəhrəmov, Cavid Qurbanov, Əhəd Əsədullayev, Dilqəm Həsənov, Nicat Şükürov xəsarətlər alıblar.

Zərərçəkən Rəşad Ağayev ifadəsində bildirib ki, Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində xəsarət alıb. Həmin vaxt Vüsal Rüstəmov, Elvin Əliyev, Nihad Quluzadə, Əlibəy Əlibəyov, Ağami Əlişanov, Altun Əliyev həlak olub. Paşa Abayev bildirib ki, Ağdam rayonunun Əliağalı kəndində xəsarət alıb. Nəriman Kərimov bildirib ki, Xocavənddə yaralanıb. Elşən Zeynalov Ağdamda qəlpə xəsarəti aldığını deyib. Fərid Həsənov Ağdərədə yaralandığını söyləyib. Mirzəli Mirzəyev Xankəndidə yaralandığını deyib. Şəhriyar Zamanov Ağdərədə qəlpə yarası aldığını söyləyib. Anar Abasov ifadəsində qeyd edib ki, Ağdam rayonunun Abdal-Gülablı kəndindəki dağlıq-meşəlik ərazidə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkən Şirxan Hacıməmmədov bildirib ki, Laçında yaralanıb.

Elvar Nəhmətzadə Ağdamda xəsarət aldığını deyib. Taleh Qurbanov i qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndində Davud Qiyaslı və Ramin Məmmədov həlak olub, Mirəli Ağalarov və Pünhan Kazımov xəsarət alıblar. Amid Piriyev bildirib ki, Ağdamda yaralanıb. Nəciməddin Ələsgərov qeyd edib ki, Ağdərədə kəllə-beyin travması alıb. Şöhrət Aslanov bildirib ki, idarə etdiyi nəqliyyat vasitəsi minaya düşüb və yaralanıb.

Zərərçəkən Nurlan Abışov bildirib ki, Ağdərədə özü, Cavanşir Xəlilov və Pərviz Şirinov xəsarət alıblar. Hüseyn Müseyibov Ağdərədə xəsarət aldığını söyləyib. Bəxtiyar İsmayılov qeyd edib ki, Ağdərədə xəsarət alıb. Cəfər İsmayılov və Telman Əhmədov Xocalı rayonunun Xanabad kəndində yaralandıqlarını deyiblər.

Digər zərərçəkənlər - Babək Əhmədli, Ömər Nəsirov, Nurlan İbrahimov, Cavid Süleymanov, Elvin Hüseynov, Əkbər Səfərov, Ramil Məmmədov, Rəşad Süleymanov, Namiq Əlizadə, Raqif Mirzəyev, Vüsal Əhmədov, Afər Hüseynov, Bayram Hüseynov Sərxan Mahmudov, Niyaz Niyazəliyev, Yasin Cəbrayılov, Ruslan Nurəliyev isə müxtəlif ərazilərdə yaralandıqlarını bildiriblər.

Bundan başqa, məhkəmə prosesinin gedişində Ruben Vardanyanın vəkili təqsirləndirilən şəxslə konfidensial görüş üçün imkan yaradılmasını xahiş edib. Məhkəmə vəsatəti təmin edib.

Məhkəmənin növbəti iclası sentyabrın 23-nə təyin olunub.

***XQ***

# Pakistanlı alim AMEA-nın Gəncə Bölməsində





**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Gəncə Bölməsində Pakistanın Lahor Universitetinin professoru, şərqşünas-alim, fars ədəbiyyatı üzrə doktor Arif Nouşahi ilə görüş keçirilib.**

Bölmənin sədri, akademik Fuad Əliyev qonağı salamlayaraq, Azərbaycan-Pakistan münasibətlərinin tarixi dostluq və qardaşlıq üzərində qurulduğunu vurğulayıb. O, iki ölkə arasında elmi-mədəni əlaqələrin genişləndirilməsində ziyalıların rolunun önəmini qeyd edib. Akademik, həmçinin Gəncədə fəaliyyət göstərən Nizami Gəncəvi Mərkəzinin beynəlxalq əməkdaşlıqlarını genişləndirmək istiqamətində tövsiyələrini bölüşüb.

Professor Arif Nouşahi çıxışında səfərinin əsas məqsədinin farsdilli ədəbiyyatın görkəmli nümayəndəsi Nizami Gəncəvinin irsi ilə daha yaxından tanış olmaq oməqsədi daşıdığını bildirib. O, Gəncədə olmaqdan böyük məmnunluq duyduğunu və bu səfərin illərlə arzuladığı bir istək olduğunu diqqətə çatdırıb.

Görüşdə Gəncə Bölməsinin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov Nizami Gəncəvi ilə bağlı son illərdə görülən elmi işlər, nəşrlər və beynəlxalq tədbirlər haqqında məlumat verib.

Qonağa Nizami irsi ilə bağlı nəşr olunmuş monoqrafiya və jurnallar təqdim edilib. Professor Arif Nouşahi isə öz elmi əsərlərini və Pakistanda çap olunmuş tədqiqatlarını bölməyə hədiyyə edib.

Səfər çərçivəsində professor Nizami Gəncəvinin məqbərəsini, muzeyini və Gəncə şəhərinin digər tarixi abidələrini ziyarət edib, həmçinin Əlişir Nəvai adına Özbək Dili və Mədəniyyəti Mərkəzi ilə tanış olub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Macarıstan Çinlə nüvə enerjisi əməkdaşlığı qurur



**Macarıstan və Çin Nüvə Enerjisi Agentliyi atom energetikası, təhlükəsizlik və innovasiya sahəsində əməkdaşlıq haqqında saziş imzalayıb. Bu barədə Macarıstanın xarici işlər naziri Peter Siyarto məlumat verib: "Macarıstan sübut edir ki, nüvə energetikası Şərqlə Qərb arasında sivilizasiyalı əməkdaşlığın dirçəldilməsi üçün ən yaxşı sahələrdən biridir". O xatırladıb ki, Macarıstanda Rusiya, ABŞ, Almaniya və Fransa nüvə layihələri mövcuddur. Nazirin sözlərinə görə, Çin atom sənayesində getdikcə daha böyük rol oynayır. O, Macarıstanın Çin layihələrində fəal iştirak etməsinin ölkənin maraqlarına uyğun olduğunu qeyd edib.**

Macarıstanın Çinlə nüvə energetikası sahəsində əməkdaşlıq haqqında saziş imzalaması həm enerji siyasəti, həm də geosiyasi baxımdan diqqətəlayiq hadisədir. Bu addım göstərir ki, nüvə energetikası artıq təkcə enerji təminatı vasitəsi deyil, həm də müxtəlif qütblər arasında əlaqələrin qurulmasında strateji bir körpü rolunu oynayır. Macarıstanın xarici işlər naziri Peter Siyartonun da qeyd etdiyi kimi, bu sahə Şərqlə Qərbin sivilizasiyalı əməkdaşlığının bərpası üçün ən münasib platformalardan biridir.

Çinin nüvə energetikasında yüksəlişi təsadüfi deyil. Ölkə sürətlə artan enerji tələbatını qarşılamaq, eyni zamanda, karbon emissiyalarını azaltmaq məqsədilə alternativ mənbələrə yönəlib. Bu istiqamətdə nüvə texnologiyaları Çinə həm sabit enerji təminatı, həm də beynəlxalq iqlim öhdəliklərinə cavab vermək imkanı yaradır. Son illərdə Çin öz milli reaktor modellərini, xüsusilə Hualong One tipli reaktorları inkişaf etdirərək daxili və xarici bazarlarda tətbiq edir. Bu isə ölkəni yalnız texnologiyanı idxal edən deyil, eyni zamanda ixracatçı mövqeyinə gətirib çıxarır.

Çin nüvə energetikasında texnologiya ixracını genişləndirərək artıq Asiya və Afrika ilə kifayətlənmir, Avropa bazarına da daxil olur. Macarıstanla imzalanmış saziş bu prosesin bir nümunəsidir və gələcəkdə digər Avropa ölkələrində də bənzər əməkdaşlıqların baş verməsi ehtimalını gücləndirir. Beləliklə, Çin öz nüvə texnologiyalarını beynəlxalq əməkdaşlıq vasitəsinə çevirərək siyasi və iqtisadi təsir dairəsini genişləndirir.

Bu tendensiya həm də Qərb şirkətlərinin uzun müddət dominant olduğu nüvə sənayesində qüvvələr balansının dəyişdiyini göstərir. ABŞ, Rusiya, Almaniya və Fransanın layihələri ilə yanaşı, artıq Çin də rəqabət aparan mühüm oyunçuya çevrilir. Bununla yanaşı, Çin texnologiyalarının təhlükəsizlik standartları və nüvə tullantılarının idarə olunması məsələləri hələ də müzakirə mövzusu olaraq qalır.

Ümumilikdə, Çinin nüvə energetikasında fəallığı qlobal enerji siyasətində yeni reallıqlar formalaşdırır. Bu sahə təkcə iqtisadi maraqların deyil, həm də geosiyasi nüfuzun göstəricisinə çevrilir. Macarıstanın atdığı addım isə göstərir ki, Avropa ölkələri artıq yalnız ənənəvi Qərb tərəfdaşlarına deyil, eyni zamanda, Çinə də strateji enerji sahəsində etibar etməyə başlayır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***




**74 min il əvvəl insanlıq Toba vulkanının super partlayışını, Yer kürəsində son 2,5 milyon ildə baş vermiş ən böyük fəlakətlərdən birini yaşayıb. Bu hadisə o qədər genişmiqyaslı olub ki, alimlər hələ də "Homo sapiens"in necə sağ qalaraq bu sınaqdan çıxa bildiyini araşdırırlar.**

Toba ətrafında yaşayan insanlar tamamilə yox ola bilərdi. Amma uzaqdakı icmaların taleyi hələ də alimlərin müzakirəsindədir. Uzun müddət "Toba hipotezi" əsas nəzəriyyə sayılırdı: partlayış nəticəsində Yer əhalisi 10 min nəfərdən də az qalıb. Bu fikir genetik məlumatlarla da dəstəklənirdi. Lakin mübahisə davam edir: səbəb yalnız Toba partlayışı idimi, yoxsa başqa fəlakətlər və xəstəliklər də rol oynayıb?

Tədqiqatçılar cavabı kül və daş qatlarında – tefrada axtarırlar. Xüsusilə mikroskopik şüşə hissəcikləri, yəni kripto-tefra mühüm əhəmiyyət daşıyır. Onların kimyəvi analizi partlayışın miqyasını və nəticələrini anlamağa imkan verir. Arxeoloji tapıntılar isə həmin dövrdə insanların davranışındakı dəyişiklikləri üzə çıxarır.

Məlum olub ki, Toba fəlakəti insanlığı tam məhv etməyib. Cənubi Afrikada və Efiopiyada insanlar partlayışdan əvvəl də, sonra da yaşayıb, yeni alətlər düzəldib, ov və balıqçılıqda fərqli üsullar tətbiq ediblər. Hətta ox və yay ilk dəfə həmin dövrdə istifadə olunub. Oxşar izlər Hindistanda, Çində və İndoneziyada da tapılıb. Bu faktlar göstərir ki, Toba hadisəsi əhali azalmasının yeganə səbəbi olmayıb. Əksinə, insanlar çeviklik və uyğunlaşma qabiliyyəti sayəsində sağ qalıblar.

Alimlərin qənaətinə görə, Toba hadisəsi insanın ən güclü silahını – uyğunlaşma bacarığını sübut edir. Texnologiyasız dövrdə belə sağ qalmağı bacaran insan, bu gün vulkanların izlənildiyi və məlumatların dərhal paylaşıldığı bir zamanda daha hazırlıqlıdır. İstənilən fəlakətdə ən böyük üstünlüyümüz çevikliyimiz və dözümlülüyümüzdür. Bu xüsusiyyət bəşəriyyətin ən güclü silahıdır və həm keçmişdə, həm də gələcəkdə fəlakətlərin qarşısında sağ qalmağımıza kömək edir.

***Hazırladı:***
***S.ELAY***
***XQ***

"Finoko" Bank olmayan kredit təşkilatı ASC səhmdarlarının nəzərinə!

3 noyabr 2025-ci il saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı küçəsi ev 36, 488/489-cu məhəllə, mənzil 3 nömrəli ünvanda "Finoko" Bank olmayan kredit təşkilatı ASC (VÖEN: 1402771411) səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Növbədənkənar ümumi yığıncağın gündəliyi:**

1. "Finoko" Bank olmayan kredit təşkilatı ASC-nin ləğvi.

Gündəlik üzrə materiallarla cəmiyyətin binasında iclas günü tanış olmaq mümkündür.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 198 (30892) 17 sentyabr 2025-ci il, çərşənbə

## İDMAN

### Zaqrebdə daha 1 bürünc



**Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə dünya çempionatı davam edir.**

Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən aldığımız məlumata görə, güləşçimiz Osman Nurmaqomedov (92 kq) bürünc medal uğrunda görüşdə gürcüstanlı Miriani Maysuradzeylə üz-üzə gəlib. Osman rəqibinə heç bir şans verməyərək 5:1 hesabı ilə qalib gəlib. Bununla da güləşçimiz analoji yarışlarda 4-cü medalını qazanıb.

Cəbrayıl Hacıyev (79 kq) isə təsəlliverici görüşdə yaponiyalı Ryunosuke Kamiyaya 5:3 hesabıyla qalib gəlsə də bürünc medal uğrunda qarşılaşmada iranlı Mohammad Noxodilarimiyə (2:4) məğlub olaraq, dünya çempionatını 5-ci yerdə başa vurub.

Qadın güləşçilərimizdən 57 kiloqramda çıxış edən Jalə Əliyeva dünən 1/8 finalda yaponiyalı Himeka Tokuharaya 2:13 hesabıyla məğlub olub.

### III MDB Oyunlarına 12 ölkədən 1619 idmançı gələcək




**Azərbaycanda təşkil olunacaq III MDB Oyunları üçün qeydiyyatdan keçən ölkələrin və idmançıların sayı artıb.**

Bakı Şəhər Halqasından verilən məlumata görə, yarışa 12 ölkədən 1619 idmançı və 2313 nümayəndə qatılacaq.

Daha əvvəl 10 ölkənin iştirakı nəzərdə tutulsa da sonradan bu siyahıya Pakistan və Oman da əlavə olunub.

Turnirdə Azərbaycanı 340, Pakistanı 4, Rusiyanı 262, Özbəkistanı 254, Belarusu 240, Qazaxıstanı 147, Tacikistanı 144, Qırğızıstanı 126, Türkmənistanı 48, Türkiyəni 38, Küveyti 6, Omanı isə 4 idmançının təmsil edəcəyi dəqiqləşib.

### Dünyanın ən yaxşı boksçuları



**Nüfuzlu "The Ring" nəşri dünyanın ən yaxşı boksçularının reytinqini yeniləyib.**

ABŞ-dan olan mütləq dünya çempionu Terens Krouford ilk pillədə qərarlaşıb.

37 yaşlı idmançı Saul Alvares üzərində qazandığı qələbədən sonra birinci pilləyə yüksəlib və ukraynalı Aleksandr Usiki geridə qoyub.

İlk "üçlük"də, həmçinin yaponiyalı Naoya İnoue də yer alıb. O, ötən həftə özbəkistanlı Muradcan Əhmədəliyevi məğlub edib.

*Qabil YUSİFOĞLU*
*XQ*

***✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşı Ülviyyə Adıgözəl qızı İsmayılovaya məxsus AR seriyalı, 060886 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ Tellanlı Rüfət Ağacəfər oğluna məxsus şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, "KİA Sorento" markalı avtomobilin 90OL213 nömrəli və "Chevrolet Niva" markalı avtomobilin texniki pasportları itdiyi üçün etibarsız sayılır.***

# "Formula 1"-də ən yaxşı komandaların dəyəri nə qədərdir?



**"Formula 1"-də lider olan "McLaren" komandası minoritar səhmdarlar və MSP Sports Capital-ə məxsus 30 faiz səhmlərin alınması nəticəsində 3 milyard funt sterlinq ($4,1 milyard) qiymətləndirilə bilər. "Bloomberg" agentliyi bu məlumatı mənbələrə istinadən yayıb.**

Bu əməliyyatdan sonra "McLaren Group Limited"in sahibləri - Bəhreyn suveren fondu "Mumtalakat" və Abu Dabidə yerləşən "CYVN Holdings" komandaya tam nəzarət edəcəklər. Xatırladaq ki, 2020-ci ildə "McLaren" komandası 560 milyon funt sterlinq (700 milyon ABŞ dolları) məbləğində qiymətləndirilmişdi.



"Formula 1" komandalarının dəyəri azarkeşlər və investorlar arasında artan maraq fonunda yüksəlir. Bu maraq Netflix video platformasında yayımlanan və baş rolda məşhur Hollivud aktyoru Bred Pittin çəkildiyi "Formula 1: Drive to Survive" film sayəsində artır. Konstrukturlar Kubokunda altıncı yerdə olan Aston Martin də səhmlərin satışı ilə bağlı danışıqlar aparır və nəticədə onun dəyəri 2,4 milyard funt sterlinq (3,3 milyard ABŞ dolları) ola bilər.

Xatırladaq ki, ötən il "McLaren" komandası 26 ildən sonra ilk dəfə Konstrukturlar Kubokunu qazandı. Komandanın pilotları Oskar Piastri və Lando Norris bu mövsümdə çempionluq uğrunda əsas namizədlərdir. Ötən il Oskar Piastri Azərbaycan Qran-Prisinin qalibi olmuşdu. Avstraliyalı pilot qarşıdakı həftəsonunda uğuru təkrarlamağa çalışacaq. Onun komanda yoldaşı Lando Norris də yüksək nəticə qazanmaq istəyir. Həmçinin məhz Bakıda mövsümün sonunda "McLaren" Konstruktorlar Kubokunu təmin edə bilər. "Bakıya qayıtmağı səbirsizliklə gözləyirəm. Şəhər yollarında yeni sınaqlar olacaq və onları necə keçəcəyimi səbirsizliklə gözləyirəm. Uokingdəki bazada çox çalışdım ki, növbəti qələbəyə tam hazır olum", – deyə Lando Norris bildirib.

Oskar Piastri isə bildirib ki, keçən ilki Bakı yarışı onun üçün ən yaxşı xatirələrdəndir: "Həyatımın ən yaxşı yarışlarından biri idi və yüksək nəticə qazandığım trekə qayıtmaq hər zaman xoşdur. Bu həftə sonu məqsədim əvvəlki nəticəni təkrarlamaqdır"

*S.MƏMMƏDOV*
*XQ*

# Payızın sağlamlıq resepti

**Payız...Təbiətin rəssam kimi hər yarpağa bir fırça toxunuşu bəxş etdiyi mövsüm. Sarı, qızılı, narıncı və tünd qırmızı rənglərin rəqs etdiyi bu fəsildə sanki küləklər də söz demək istəyirmiş kimi pıçıldayır. Amma payızın bu romantikasının altında bir sınaq da yatır – bədənimizin müqaviməti, immunitetimiz.**



Soyuyan hava, dəyişən temperatur və artan rütubət, bunlar təkcə yarpaqları deyil, bədənimizi də silkələyir. Yayın günəşindən ayrılan orqanizm, soyuq küləklərə qarşı hazırlıqsız qala bilər. Elə buna görə də payızda immun sisteminə xüsusi diqqət göstərmək vacibdir. Bəs bu mövsümdə immuniteti necə gücləndirək? Məhz bu məqsədlə kiçik bir araşdırma aparıb mütəxəssis rəylərini toplayaraq oxucularımıza təqdim edirik.

Payız bazarları bir rəng cənnətinə çevrilir. Nar, alma, armud, heyva, balqabaq, kök... Hər biri vitaminlərlə doludur. Xüsusilə C vitamini ilə zəngin olan meyvələr (nar, limon, kivi) immun sistemini təbii şəkildə dəstəkləyir. Balqabaq və kök kimi tərəvəzlər isə beta-karotinlə zəngindir ki, bu da orqanizmi infeksiyalardan qoruyur. Təbii ki, payızda soğanın yerini heç nə tuta bilməz. Kimi onun qoxusundan qaçar, kimi isə onu dərman sayır. Amma bir həqiqət dəyişməz qalır: soğan orqanizmin gizli qalasıdır. Soğan tərkibindəki kversetin, kükürd birləşmələrinin və antioksidantların sayəsində mikroblara qarşı mübarizədə ön cəbhədə dayanır. Soyuqdəymə, öskürək və burun axıntısının qarşını alır. Soğan həm də qanın durulaşmasına, orqanizmdəki ziyanlı maddələrin atılmasına və həzm sisteminin yaxşılaşmasına kömək edir. Bu fəsildə hər evin əvəzedilməz qoruyucularından biri də antibakterial və antivirus təsiri ilə tanınan sarımsaqdır. Qan dövranını yaxşılaşdırır, xəstəliklərə qarşı sipərdir.

Payızın dadlı və xeyirli təamlarından biri də xurmadır. A, C vitaminləri və dəmirlə zəngindir. İmmunitetə güc qatır, yorğunluğu aradan qaldırır. Bu fəsildə qida rasionumuza qatılması vacib olan digər tərəvəzlərdən olan kələm C vitamini və liflə zəngindir. Bağırsaq sağlamlığını qoruyur, orqanizmdəki toksinləri təmizləyir. Qırmızı bibərdə isə (acı və şirin) C vitamini limondan belə çoxdur. Qan dövranını sürətləndirir, bədəni isidir, soyuqdəymənin qarşısını alır. Qısası, bu sadə tərəvəzlər, payızın soyuyan nəfəsinə qarşı isti nəfəs kimi dayanır.

Payızda isti çayın yeri isə başqadır. Zəncəfil, limon və bal ilə hazırlanmış bir fincan çay bəzən bir həkimin edə bilmədiyini edə bilər. Eyni zamanda kəklikotu, adaçayı, nanə, cökə – bunlar da təkcə nənələrimizin sehirli reseptləri deyil, həm də elmi şəkildə təsdiqlənmiş təbii dərmanlardır.

Bunlarla yanaşı, hərəkət, bədəni canlı tutmaqda vacib şərtlərdəndir. Payızın sərin havası insanı yorğunluğa sürükləsə də gündəlik kiçik gəzintilər qan dövranını yaxşılaşdırır, orqanizmin dözümlülüyünü artırır. Parkdakı saralmış yarpaqların üzərində gəzmək həm ruhu, həm bədəni sağaldır.

Bəli, payızda təbiət necə ki köhnə yarpaqlarından azad olub yenilənməyə hazırlaşır, biz də bədənimizi və ruhumuzu bu dəyişikliklərə hazırlamalıyıq. Güclü immunitet yalnız dərmanlarla deyil, həyat tərzimizlə formalaşır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Leysan, dolu və sulu qar



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən gündüz saatlarında yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-19, gündüz 20-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 13-17, gündüz 17-22, dağlarda gecə 2-7, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Mahir, Əsli və Həmid Alıyevlər Füqan və Doğan Yıldırımlara əzizləri – Türkiyənin məşhur cərrahı, professor

**İBRAHİM YILDIRIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi tarix kafedrasının dosenti Şapi Yegizarova əzizi, Xalq artisti

**HACI MURAD YEGİZAROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3488
SİFARİŞ 1743
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00